Hər kəs ədalətli olacaq

www.adalet.az

# ƏDALƏT

Qurucusu: Adil Minbaşıyev

İctimai-siyasi, hüquq qəzeti

Qəzet 1990-cı ilin iyulundan çıxır

№ 33 (6076) 30 avqust 2024-cü il

Qiyməti 40 qəpik

# PREZİDENT LANDAU MƏKTƏBİNİN AÇILIŞINDA İŞTİRAK ETDİ




Bax:səh-2

## "Azərbaycan-Türkiyə birliyi bölgəyə sülh, əmin-amanlıq və sabitlik gətirəcək"



**Azərbaycan ilə Türkiyənin mövqeyi vahiddir, birdir. Qarşılıqlı dəstək, strateji tərəfdaşlıq və müttəfiqlik münasibətlərimiz davam edəcək. Ölkələrimizin bu siyasəti bölgəmizə sülh, əmin-amanlıq və sabitlik gətirəcək.**

Adalet.az xəbər verir ki, bu fikri Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov türkiyəli həmkarı Hakan Fidanla Ankarada keçirdiyi birgə mətbuat konfransında səsləndirib.

Ermənistanla danışıqlar prosesinə nəzər salan Azərbaycanın XİN başçısı bildirib ki, sülh prosesinin başa çatdırılması üçün əsas əngəl məhz Ermənistanın konstitusiyasında Azərbaycan və Türkiyəyə qarşı olan ərazi iddialarıdır.

Nazir son zamanlar regionda müşahidə olunan narahatedici tendensiyaya da nəzər salıb: "Ermənistan surətlə silahlanır və bu prosesə töhfə verən üçüncü ölkələr var. Bu çox yanlış siyasət bölgəmiz üçün əlavə təhdid mənbəyidir".

Ceyhun Bayramov vurğulayıb ki, rəsmi Bakı bütün prosesləri diqqətlə izləyir və addımlarını Türkiyə ilə koordinasiya edib.

## Türkiyə ordusu PKK liderini məhv etdi

**Türkiyə Milli Kəşfiyyat Təşkilatı (MİT) İraqın Süleymaniyyə şəhərində əməliyyat keçirib.**

Adalet.az xəbər verir ki, keçirilən əməliyyatda terror təşkilatı PKK/KCK-nın sözdə liderlərindən olan Gülüstan Tekiki zərərsizləşdirilib.

## Polis Qarabağda sanitariya-gigeyina tədbirləri görür




**Polis işğaldan azad olunan bölgələrdə sanitariya-gigeyina qaydaları ilə bağlı tədbirləri davam etdirir.**

DİN-in Mətbuat Xidmətindən Adalet.az-a bildirilib ki, həmin ərazilərdə yaşayan, işləyən və səfər edən şəxslərə təhlükəsizlik qaydaları ilə yanaşı, sanitariya-gigiyena tələbləri izah edilir, onlara məlumatverici yaddaş vərəqələri paylanılır.

Sanitariya-gigiyena qaydaları ilə bağlı vətəndaşların ən çox səfər etdikləri Şuşa və Xankəndi şəhərlərində avqust ayı ərzində ümumilikdə 46 nəfər barəsində İnzibati Xətalar Məcəlləsinin məişət tullantıları və tütün məmulatlarının tutumlardan (urnalardan) kənar yerlərə atılmasına görə məsuliyyətə cəlb olunub. Qaydalara əməl etməyən şəxslərə qarşı inzibati tənbeh tədbirləri davam etdirilir.

Bir daha vətəndaşlarımızın nəzərinə çatdırırıq ki, ərazilərin təmizlik, sanitariya-gigiyena qaydalarına ciddi əməl etsinlər. Zibili, tullantıları urnalardan kənara atmaq qanunla qadağandır və inzibati məsuliyyət yaradır.

## BQXK Bakıda həbsdə olan separatçılara baş çəkdi

**BQXK nümayəndələri avqust ayının 26-da Bakıda həbsdə olan ermənilərə baş çəkiblər.**

Adalet.az xəbər verir ki, bu barədə Qırmızı Xaç Cəmiyyətinin Ermənistan nümayəndəliyinin kommunikasiya proqramlarına cavabdeh Zara Amatuni açıqlayıb.

Onlara ailə üzvləri ilə əlaqə yaratmaq imkanı verildiyi qeyd edilib.

## "Seçicinin öz hüququndan istifadəsinə manea cinayətdir"

**Hər hansı seçicinin öz hüququndan istifadəsinə manea törədilməsi cinayət məsuliyyəti yaradır.**

**Adalet.az xəbər verir ki, bunu Mərkəzi Seçki Komissiyasının (MSK) bu gün keçirilən iclasında qurum sədri Məzahir Pənahov deyib.O qeyd edib ki, bu, məntəqələrdə ciddi rejim yaradıldığı demək deyil:**

**"Amma bütün tərəflər bir-birinə hörmətlə yanaşmalıdır. Seçkilərin pozuntusunun başa çatdırılması mümkün deyil. Amma hansısa xoşagəlməz hal baş veribsə, məntəqə seçki komissiyası müvafiq qərar verməlidir.**

**Bundan narazı olan yuxarı - dairə seçki komissiyasına, Mərkəzi Seçki Komissiyasına şikayət edə bilər.**

**Seçkilərdə pozuntunun olmayacağını iddia etmək xülyadır. Amma bundan faciə düzəltmək lazım deyil".**

İradə TUNCAY
iradetuncay@rambler.ru

## Mehriban Əliyeva – ölkənin First Ladysi...



**Hamının maraq dairəsində olan bir xanım... Yəni boğazdan yuxarı sözlər deyil - həqiqətən belədir... Hər zümrədən olan insanların diqqət mərkəzində - hər kəsin öz istəyi var ondan. Yaxın tariximizdə tamam yeni bir obrazdır - həm siyasi anlamda, həm də mənəvi... Əslində bir xarakteri açmaq üçün həmin adamın kənardakı insanlara necə münasibətdə olduğunu bilmək yetərli. Necə bilmək olar? Siyasi tərəfləri qoyaq bir tərəfə - mənəvi anlamda danışsaq??? İlk gözə dəyən mərhəmət hissi olacaq. Onun hakimiyyətdə göstərdiyi performans məhz bu tərəfdən açıldı. Mərhəmət!!! Şəfqət!!!**

**Zövq... Bu da daxili keyfiyyətdir, heç nə ilə alınan bir nəsnə deyil. Məncə, genetik keyfiyyətdir. Sonradan formalaşması çətin prosesdir...**

**Daha bir genetik xüsusiyyət isə dünyada gedən mədəni dəyişimləri dərindən bilməkdir.**

Bax: səh-2

## GÜNÜN LƏTİFƏSİ

Bir kor kişinin çopur arvadı olur. Arvad elə hey özünü tərifləyir:

**- Ay kişi heyif ki, sənin gözlərin görmür. Görsəydi mənim necə gözəl olduğumu bilərdin.**

Bir gün arvad yenə özünü tərifləyəndə kişi dözməyib deyir:

**- Ay arvad, az özünü təriflə də, belə gözəl olsaydın səni kor kişiyə ərə verərdilərmi?**

# PREZİDENT LANDAU MƏKTƏBİNİN AÇILIŞINDA İŞTİRAK EDİB



**Bakıda "Sea Breeze" istirahət mərkəzinin ərazisində yaradılan "LANDAU School" Təhsil Kompleksinin məktəbinin və "The Grand" apart hotelinin açılışı olub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva tədbirdə iştirak ediblər.**

"Agalarov Development" şirkətinin təsisçisi Emin Ağalarov Prezident İlham Əliyevə görülən işlər, o cümlədən "Sea Breeze"in əsas layihələri - 231 şagird üçün nəzərdə tutulmuş "LANDAU School" Təhsil Kompleksinin "Sea Breeze"dəki məktəbi və 450 şagird üçün nəzərdə tutulmuş "SABAH.school" barədə məlumat verdi. Bildirildi ki, məktəb binalarında kompüter sinifləri, psixoloq kabineti, laboratoriyalar, açıq və qapalı idman meydançaları var. Təlim Britaniya kurikulumuna uyğun olaraq ingilis dilində aparılır. LANDAU Məktəb kompleksinin ərazisində orta ümumi təhsillə yanaşı, məktəbəqədər təhsil üçün ayrıca bina da var. Ümumilikdə, təhsil kompleksi 1100-dən çox şagird üçün nəzərdə tutulub.

Ərazidəki ən böyük apart otel - "The Grand" da istifadəyə verildi.

Diqqətə çatdırıldı ki, bura il boyu yaşamaq və ya kirayə vermək üçün nəzərdə tutulmuş 224 mənzil və 3 penthausdan ibarətdir. Təmirli 100 mənzil əşyalarla birlikdə artıq satılıb. Apart otelin ərazisində iki hovuz, üç restoran, konfrans zalı, butiklər, SPA mərkəzi və qəbul xidməti fəaliyyət göstərir.

Qeyd olundu ki, ekoloji cəhətdən təmiz, müasir və memarlıq həlləri baxımından texnoloji layihə olan "Sea Breeze" gələcəyin şəhəri kimi inkişaf edir. Nəhəng layner formasında ilk mənzillərdən ibarət flaqman daşınmaz əmlak layihəsi olan "Caspian Dream Liner" süni adada tikiləcək. Bu nadir memarlıq quruluşu sayəsində "Sea Breeze" qlobal turizm xəritəsində daha da cəlbedici məntəqəyə çevriləcək. İrimiqyaslı layihə fondunun hazırlanması üzərində bir neçə memarlıq bürosu işləyir, o cümlədən dünyaşöhrətli memarlar cəlb olunur. Ekspertlər kurort şəhərini bu gün dünyada öz ərazisində bu qədər çoxlu sayda daşınmaz əmlakı birləşdirən yeganə layihə adlandırırlar.

"Sea Breeze"in beynəlxalq tərəfdaşları arasında nüfuzlu, qlobal otel şəbəkələri var ki, onlar yaxın illərdə sahildə otel kompleksləri açmağı planlaşdırırlar.

İlboyu yaşamaq, rahatlıq və yaxşı istirahət üçün hər cür şərait yaradılan "Sea Breeze"də beynəlxalq məktəb və LANDAU uşaq bağçası kimi təhsil müəssisələri, tibb ocaqları, biznes mərkəzi və tibbi-sağlamlıq kompleksi tikinti mərhələsindədir. Həmçinin ərazidə həm uşaqlar, həm də böyüklər üçün ustad dərsləri, mühazirələr və praktik məşğələlərin keçirildiyi incəsənət mərkəzi yerləşir.

Qeyd edək ki, "Sea Breeze" kurort şəhəri Xəzər dənizinin sahilində, Bakının mərkəzindən 30 dəqiqəlik məsafədə yerləşir. 500 hektar sahədə artıq 1,5 milyon kvadratmetrdən çox kommersiya obyekti və mənzillərdən ibarət daşınmaz əmlak satılıb və istifadəyə verilib. İstirahət zonaları, parklar və çimərlik üçün 150 hektardan çox ərazi ayrılıb. Bu gün daha 1,5 milyon kvadratmetr sahə reallaşdırma mərhələsindədir və yaxın vaxtlarda daha 2 milyon kvadratmetr sahənin tikintisinə başlanılacaq.

Üç il ərzində layihənin ümumi sahəsi 5 milyon kvadratmetrdən çox təşkil edəcək və 100 min daşınmaz əmlak obyekti tikilib istifadəyə veriləcək. Sakinlərin və turistlərin ümumi sayı 300 min nəfərə çatacaq, iş yerlərinin sayı isə 20 minə qədər artacaq. Hazırda burada 6560 nəfər işlə təmin olunub. Layihəyə qoyulan investisiyalar 7 milyard dollar təşkil edir.

Cari yay mövsümündə akvapark, luna park və sirk, həmçinin kurort şəhərciyinin yaxınlığında yeni yaradılan pulsuz çimərlik zonası da daxil olmaqla, yeni çimərlik zonaları açılıb. Həmçinin ərazidə 1 milyona yaxın bitki və ağac əkilib. Hazırda yaşıllıqların sahəsi 150 hektara çatır.

**Bu ilin noyabrında ölkəmizin ev sahibliyi edəcəyi BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) çərçivəsində "Sea Breeze" landşaft parkının salınması təşkil olunacaq - tədbirin qonaqları, Azərbaycanın və beynəlxalq şirkətlərin rəhbərləri, siyasətçilər və mədəniyyət xadimləri ağacların əkilməsində iştirak edəcəklər.**

## *Kamran Əliyev:* "Ölkə prezidentinə xalqdan gələn dəstək misilsizdir"

**"Ölkə prezidentinə xalqdan gələn dəstək misilsizdir". Adalet.az xəbər verir ki, bu sözləri bu gün Şəki şəhərində "Ətraf mühitin gücləndirilməsi: Maarifləndirmə və hüquq mühafizə tədbirlərinin rolu" ECOLEAD layihəsi çərçivəsində "İqlim dəyişikliyinə qarşı yaşıllıqların qorunmasının akademik-elmi əsaslarının formalaşması" mövzusunda Elmi-Praktiki Konfransda Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev bildirib.**

Konfrans iştirakçılarını salamlayan Baş prokuror qeyd edib ki, 2024-cü il BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası - COP29 kimi mötəbər bir tədbirin Azərbaycan Respublikasında keçirilməsi ölkəmizin tarix kitabına qızıl hərflərlə yazılacaqdır. Beynəlxalq ictimaiyyətin bu barədə yekdil qərarını verməsi dünyada Azərbaycana böyük hörmət və etimadın, eləcə də ölkəmizin milli, regional və qlobal səviyyədə ətraf mühitin qorunması, iqlim dəyişmələrinin qarşısının alınması işinə töhfəsinin təqdir olunmasının bariz nümunəsidir.

"Təbii ki, bu etimadın əsas səbəbkarı, bu tarixi nailiyyətin ərsəyə gəlməsi üçün yorulmadan çalışan möhtərəm cənab Prezident cənab İlham Əliyevə xalqımızdan gələn dəstək də misilsizdir" - deyə Baş prokuror əlavə edib.

## Kiberşəbəkə ifşa edildi: 400-ə yaxın vətəndaşa yarım milyon manat ziyan vuruldu

**Daxili İşlər Nazirliyinə son dövrlər ödəniş sistemləri, online alış-veriş saytları və digər internet resurslarında yeni texnoloji vasitələrdən istifadə olunmaqla müştərilərin kart məlumatlarının ələ keçirilərək pul vəsaitlərinin oğurlandığı barədə vətəndaşlar tərəfindən çoxsaylı müraciətlər edilir.**

Adalet.az xəbər verir ki, bu barədə DİN-dən bildirilib.

Kibercinayətkarlıqla Mübarizə Baş İdarəsinin əməkdaşları tərəfindən internet resurslarında aparılan araşdırmalar nəticəsində həyata keçirilən əməliyyat-texniki tədbirlərlə sosial şəbəkələrdə qanunsuz şəkildə fəaliyyət göstərərək fişinq yolu ilə vətəndaşların kart məlumatlarını əldə edərək xüsusilə külli miqdarda pul vəsaitləri oğurlayan daha bir dəstənin üzvləri Ərtoğrul Akdemir, Şamxal Abbasov, Qnyaz Həsənov və Sabir Hümmətzadə saxlanılıblar. Müəyyən olunub ki, dəstə üzvləri cinayət əlaqəsinə girərək banklar və alış-veriş platformalarına oxşar saxta saytlar hazırlayaraq guya banklar tərəfindən pul uduşlu lotereyalar keçirildiyi, bahalı telefon modellərinin dəyərindən aşağı qiymətə satışa çıxarıldığı barədə həqiqətəuyğun olmayan elanlar yerləşdiriblər. Dəstə üzvləri bu elanların geniş yayımı və daha çox vətəndaşın cəlb olunması üçün sosial şəbəkələrdə həmin linklərin ödənişli reklamlarını da təşkil ediblər. Vətəndaşlar saxta linklərə daxil olaraq özlərinə məxsus bank kartlarının məxfi və OTP təhlükəsizlik kodlarını təqdim edəndən sonra qrup üzvləri həmin şəxslərin mobil bank tətbiqlərinə daxil olaraq hesablardakı pulları oğurlayıblar. Saxlanılanlar şəxsiyyətlərinin müəyyən edilməməsi məqsədilə oğurlanmış vəsaitləri müxtəlif şəxslərdən ödəniş müqabilində ələ keçirdikləri kartlara köçürərək sonradan kriptovalyuta hesablarına göndəriblər. Nəzərə almaq lazımdır ki, kartını kibercinayətkarlara maddi maraq qarşılığında istifadəyə verən şəxs də həmin cinayətkar dəstələrin üzvü hesab edilir və qanun qarşısında məsuliyyət daşıyır. Baş İdarədə aparılan araşdırmalar, eləcə də dəstə üzvlərinin gizli şəkildə fəaliyyət göstərdikləri internet resurslarına baxış zamanı aşkar olunan maddi və elektron sübutlar əsasında onların 400-ə yaxın vətəndaşın kartından pul vəsaitləri oğurlayaraq onlara ümumilikdə 500.000 manata yaxın maddi ziyan vurduqları müəyyən edilib. Sonuncu əməliyyat zamanı saxlanılan Ərtoğrul Akdemir və Şamxal Abbasovun başçılıq etdiyi kiberdəstənin törətdiyi qanunsuz əməllərlə bağlı Baş İdarədə məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib, əməliyyat-texniki tədbirlər davam etdirilir.

## *Qarabağ müharibəsi veteranlarının sayı artıb*

**Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda döyüş əməliyyatlarında iştirak etmiş və rəsmi olaraq "Müharibə veteranı" statusu almış şəxslərlə bağlı ən son statistika məlum olub.**

Adalet.az Dövlət Statistika Komitəsinə istinadən xəbər verir ki, Qarabağ müharibəsi veteranlarının sayı artıb.

Belə ki, 2024-cü il iyul ayının 1-i vəziyyətinə Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda döyüş əməliyyatlarında iştirak etmiş 184.094 nəfər rəsmi olaraq "Müharibə veteranı" statusu daşıyır. Bura həm Birinci, həm də İkinci Qarabağ müharibəsinin iştirakçıları daxildir. Müharibə veteranlarına ayda 80 manat təqaüd verilir.

Xatırladaq ki, bu ilin əvvəlində Qarabağ müharibəsi veteranlarının sayı 180.476 nəfər idi.

Veteranların sayının artımı İkinci Qarabağ müharibəsinin iştirakçıları ilə bağlı aparılan araşdırma nəticəsində 4 minədək şəxsə rəsmi status verilməsi ilə bağlıdır.

*İRADƏ TUNCAY*

# Mehriban Əliyeva – ölkənin First Ladysi...

**Hamının maraq dairəsində olan bir xanım... Yəni boğazdan yuxarı sözlər deyil - həqiqətən belədir... Hər zümrədən olan insanların diqqət mərkəzində - hər kəsin öz istəyi var ondan. Yaxın tariximizdə tamam yeni bir obrazdır - həm siyasi anlamda, həm də mənəvi... Əslində bir xarakteri açmaq üçün həmin adamın kənardakı insanlara necə münasibətdə olduğunu bilmək yetərli. Necə bilmək olar? Siyasi tərəfləri qoyaq bir tərəfə - mənəvi anlamda danışsaq??? İlk gözə dəyən mərhəmət hissi olacaq. Onun hakimiyyətdə göstərdiyi performans məhz bu tərəfdən açıldı. Mərhəmət!!! Şəfqət!!!**



**Zövq... Bu da daxili keyfiyyətdir, heç nə ilə alınan bir nəsnə deyil. Məncə, genetik keyfiyyətdir. Sonradan formalaşması çətin prosesdir...**

**Daha bir genetik xüsusiyyət isə dünyada gedən mədəni dəyişimləri dərindən bilməkdir. Yazıçı ailəsinə, söz aləminə mənsub olması da çox problemlərə münasibəti göstərə bilir. Hər halda mən belə düşünürəm. Və sonra məmləkətin ən önəmli adamının ailəsinə düşüb də burda formalaşmaq. Maraqlı taledir... Üstəlik də xarici görkəmin də belə maraqlı ola... Və belə qarışıq dövrə rast gələsən, belə dövrü yönətmək iqtidarın ola... Ailə bütünlükdə ölkənin azadlıq əsgəri oldu. Qarabağın xilası səadəti nəsib oldu. Göz önündə o tarixin necə baş verdiyini yaşadı... Əlbəttə, ona həsəd aparanlar da çoxdur. Ayın görünməyən tərəfi də var axı -görünməyən tərəfdə isə ağrı-acı da çoxdur... Nə çətindi amma zərif xanım vücudunda səni əhatə edən güclülərə öz iradəni göstərə biləsən...**

**Əslində biz hər hansı tarixi sima haqqında tam həqiqəti bilmirik - yəni müasiri olduğumuz simalar haqqında... Deyək ki, insan haqqında yazdığı məktublar da çox həqiqətləri danışır... Təəssüf bunu bilmirik...**

**Amma bildiklərimiz də çoxdur - ölkədə gedən bütün möhtəşəm tikintilər onun imzasıyla gedir. Bilirik ki, bunları Mehriban xanım edir... Monteneqroda görmüşəm, dağın ətəyindən çəkilən yol hündürdən M hərfiylə görünür... Kraliçanın adı M hərfiylə başlanır. Bəlkə getdiyimiz dağ yollarında bizim Mehribanın da öz işarəsi olsun? O, bunu haqq edib... Poetik, həyatsevər, isti qammalarda təqdim edib öz portretini...Allah balalarını qorusun, yubiley günü xoş keçsin.**

## *92 amerikalının Rusiyaya girişinə qadağa qoyuldu*

**ABŞ-ın 92 vətəndaşının Rusiyaya girişinə daimi olaraq qadağa qoyulub.**

Bu barədə Rusiya Xarici İşlər Nazirliyi məlumat yayıb.

Rusiya XİN bunun ABŞ hakim elitasının çılğın sanksiya hücumuna cavab olduğunu bildirib və gələcəkdə "stop-siyahı"nın genişləndiriləcəyinə qeyd edib.

# 85 saylı Füzuli-Ağcabədi Seçki Dairəsindən Azərbaycan Respublikası Milli Məclisinə deputatlığa namizəd Aqil Abbas seçicilərlə görüşdü

**85 saylı Füzuli-Ağcabədi Seçki Dairəsindən Azərbaycan Respublikası Milli Məclisinə deputatlığa namizəd Aqil Məhəmməd oğlu Abbasov (Aqil Abbas) Ağcabədi rayonun Sarıcalı kəndində seçicilərlə görüş keçirib.**

Adalet.az xəbər verir ki, görüşdən öncə Vətən uğrunda şəhid olanların əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Seçiciləri ilə mütəmadi görüşlər keçirən Aqil Abbası kənd camaatı yüksək əhval ruhiyyədə qarşıladılar. Onlar bu illər ərzində etimad göstərdikləri deputatları ilə səmimi söhbət etdilər, rayonda , kənd və kənd yollarında aparılan abadlıq işlərindən, dövlətin əhalinin sosial rifahına yönəli atdığı addımlardan razı qaldıqlarını bildirdilər.

Aqil Abbas kənd sakinlərini narahat edən bəzi problemlərin həlli istiqamətində onları dinləyib, müzakirələr aparıb. Kəndin içməli su məsələsinin, əkin sahələrinin suvarılması sahəsində vəziyyətin daha da yaxşılaşdırılması istiqamətində, kənddə yeni artezian quyularının saylarının daha da artmasına nail olacağını söyləyib.

Öz növbəsində də deputatlığa namizəd seçicilərinə 01 sentyabr tarixində keçiriləcək seçkilərdə aktiv olmağı tövsiyyə etdi. Və bütün bu illər ərzində olduğu kimi yenə də onların şikayət və problemlərini dinləməyə hazır olduğunu, həllində bütün imkanları ilə çalışacağını dilə gətirdi.

***

**85 saylı Füzuli-Ağcabədi Seçki Dairəsindən Azərbaycan Respublikası Milli Məclisinə deputatlığa namizəd Aqil Abbas Ağcabədi rayonun Taynaq kəndində seçicilərlə görüş keçirib.**

Görüşdən öncə Vətən uğrunda şəhid olanların əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Görüşdə Aqil Abbas ona yenidən dəstək və etimad göstərəcəklərini deyən Taynaq kənd sakinlərinə təşəkkürünü bildirib: "Bütün fəaliyyətim dövründə gücümün çatdığı qədər sizə, bütün seçicilərimə, millətimizə və dövlətimizə xidmət edəcəm!

Deputat fəaliyyətim dövründə də hər gün bu düşüncə ilə yaşadım və çalışdım. Bu illər ərzində problemlərin böyük hissəsi öz həllini tapdı.

Bilirəm, hələ də həllini gözləyən məsələlər var. Bundan sonra da həmin məsələlərin öz həllini tapması istiqamətində yenə də əlimdən gələni əsirgəməyəcəm. Bilirsiniz ki, mən hər zaman sizin yanınızda oldum. Çünki bu mənim bir borcumdur. Vəzifə ilə yanaşı, həm də insanlıq borcumdur və bundan sonra da harada çalışmağımdan asılı olmayaraq, gücümün çatdığı qədər hər zaman sizin yanınızda olacam"

Sonda seçicilər bildirib ki, A. Abbas bu müddət ərzində nəinki Taynaq seçicilərin, ümumilikdə Azərbaycan cəmiyyətinin böyük etimadını qazanıb: "Aqil Abbas siz bizim dəstəyimizi öz fəaliyyətinizlə illər öncə qazanmısınız və bu dəstək davam edəcək. İnanırıq ki, siz bundan sonra da hər zaman bizim səsimiz olacaqsınız".

***

**85 saylı Füzuli-Ağcabədi Seçki Dairəsindən Azərbaycan Respublikası Milli Məclisinə deputatlığa namizəd Aqil Abbas Ağcabədi rayonun Poladlı kəndində seçicilərlə görüş keçirib**

Görüşdən öncə Vətən uğrunda şəhid olanların əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Aqil Abbas görüş zamanı deputat fəaliyyəti barədə danışaraq deyib ki, o, bu illər ərzində seçicilərini Milli Məclisdə layiqincə təmsil etmək üçün var qüvvəsi ilə çalışıb.

Aqil Abbas bildirib ki, Poladlı sakinləri yenidən ona etimad göstərərlərsə, gələcəkdə də onları və bütövlükdə ölkəmizi daim layiqincə və ləyaqətlə təmsil etmək üçün əlindən gələni etməyə çalışacaq: "Namizədliyimi yenidən irəli sürməkdə məqsədim budur".

"Bütün fəaliyyətim boyu sizi özümdən əvvəl düşündüm və sizin etimadınızı bir an belə itirməmək üçün çalışdım" - deyən A.Abbas vurğulayıb ki, cənab Prezident İlham Əliyevin rəhbərliyi altında inkişaf edən ölkəmiz üçün bundan sonra da hər birimiz əlimizdən gələni etməlidir.

Poladlı seçiciləri çıxış edərək bildiriblər ki, millət vəkili Aqil Abbasa etimadları tamdır, çünki o, deputatlıq fəaliyyəti zamanı daim kənd sakinləri ilə görüşlər keçirib, ailələri, xəstələri ziyarət edib, gənclərlə önəmli müzakirələr aparıb və hər zaman onların müraciətlərinə, problemlərinə, təkliflərinə həssaslıqla yanaşıb və onların həlli istiqamətində əlindən gələn dəstəyi əsirgəməyib.

***

**85 saylı Füzuli-Ağcabədi Seçki Dairəsindən Azərbaycan Respublikası Milli Məclisinə deputatlığa namizəd Aqil Abbas Ağcabədi rayonun Hindarx qəsəbəsində seçicilərlə görüşüb.**

Görüşdən öncə Vətən uğrunda şəhid olanların əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Qəsəbə sakinlərinin qatıldığı görüşdə namizəd deputatlıq fəaliyyəti barədə danışıb: "Bu illər ərzində ailənizin bir üzvü oldum, sevincinizə sevindim, kədərinizi paylaşdım, problemlərinizin həlli üçün əlimdən gələni etməyə çalışdım".

Hindarx sakinlərini narahat edən problemlərin xeyli hissəsinin öz həllini tapdığını deyən A.Abbas qeyd edib ki, ölkəmiz gücləndikcə digər problemlər də öz həllini tapacaq. Aqil Abbas ölkəmizin əldə etdiyi uğurlardan danışaraq, bunun beynəlxalq siyasətdən də yan keçmədiyini qeyd edib.

O, bildirib ki, deputatlıq fəaliyyəti dövründə Hindarx qəsəbə sakinlərinin çoxsaylı müraciətləri cavabsız qalmayıb. Sağlamlıqla, təhsillə, şəxsi problemləri ilə bağlı yüzlərlə məktubuna cavab verilib və bu məktublarda əksini tapan məsələlər öz müsbət həllini tapıb.

A. Abbas gənclər arasında təhsilə daha böyük marağın yaranması istiqamətində həyata keçirilən layihələr nəticəsində Hindarx qəsəbəsi də daxil olmaqla, Ağcabədi rayonundan hər il ali məktəblərə daxil olan gənclərin sayının artdığını vurğulayıb. O, xüsusilə gənclər arasında vətənpərvərliyin artması istiqamətində həyata keçirilən layihələrdən danışıb.

Hər bir seçicinin toxunduğu məsələlər ətrafında müzakirə aparılıb. Aqil Abbas müxtəlif mövzular üzrə müraciət edən seçicilərin qayğıları ilə maraqlanıb.

A. Abbas seçicilərin iş, yol, su, qaz, bağça, pensiya, məhkəmə işi və s. ilə bağlı qaldırdığı bir sıra məsələlərin operativ həllini diqqətdə saxlayacağına söz verib.

Görüşdə çıxış edən onlarla qəsəbə sakini, ziyalılar millət vəkilinin təkcə rayon səviyyəsində deyil, respublika səviyyəsində böyük uğurlar əldə etdiyini, seçicilərlə mütəmadi olaraq görüşdüyünü, onların problemlərinin həlli istiqamətində daim əlindən gələni etməyə çalışmasını yüksək qiymətləndiriblər. Bildiriblər ki, sentyabrın 1-də keçiriləcək növbəti parlament seçkilərində Aqil Abbas səs verəcəklər.



***

**85 saylı Füzuli-Ağcabədi Seçki Dairəsindən Azərbaycan Respublikası Milli Məclisinə deputatlığa namizəd Aqil Abbas Ağcabədi rayonun Rəncbərlər kəndində seçicilərlə görüş keçirib.**

Görüşdən öncə Vətən uğrunda şəhid olanların əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Aqil Abbas seçki platformasını geniş şərh edib, habelə seçicilərin qaldırdığı məsələlərlə bağlı keçən dönəmdə Millət vəkili olaraq gördüyü işlərdən danışıb.

Aqil Abbas ölkədə aparılan geniş miqyaslı abadlıq-quruculuq işlərindən, xüsusilə işğaldan azad olunmuş ərazilərdə sürətli bərpa işlərinin həyata keçirilməsindən danışıb.

Vətən müharibəsi iştirakçılarına, əlillərinə və şəhid ailələrinə göstərilən qayğı haqqında məlumat verən A.Abbas bütün bunlarla yanaşı regionların sosial-iqtisadi inkişafı üzrə Dövlət proqramının icrasının da ölkə başçısının diqqət mərkəzində olduğunu bildirib, seçki dairəsinin müxtəlif ərazilərində su və qaz təminatının yaxşılaşdırılması haqqında danışıb.

Daha sonra deputatlığa namizəd seçicilərin müxtəlif mövzularda ona ünvanladıqları sualları cavablandırıb.

Onu da qeyd edək ki, seçicilər deputatlığa namizədə daha çox sosial problemlərlə bağlı suallar ünvanlayıblar.

***

**85 saylı Füzuli-Ağcabədi Seçki Dairəsindən Azərbaycan Respublikası Milli Məclisinə deputatlığa namizəd Aqil Abbas Ağcabədi rayonun Arazbar kəndində seçicilərlə görüş keçirib.**

Adalet.az xəbər verir ki,görüşdən öncə Vətən uğrunda şəhid olanların əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Görüşdə gənclər, eləcə də, müxtəlif yaş və sosial qrupdan olan seçicilər iştirak edib.

Aqil Abbas seçki platformasını geniş şərh edib, habelə seçicilərin qaldırdığı məsələlərlə bağlı keçən dönəmdə Millət vəkili olaraq gördüyü işlərdən danışıb. Namizəd seçiciləri maraqlandıran sualları ətraflı cavablandırıb.

Seçicilərin toxunduğu müxtəlif məsələlərə dair öz fikrini bildirən Aqil Abbas, dövlətin gördüyü və görməkdə olduğu böyük layihələrdən, infrastruktur layihələrindən, dövlət proqramlarından söz açıb, habelə yenidən mandat qazanacağı təqdirdə seçiciləri qayğılandıran məsələləri parlamentdə, müvafiq dövlət orqanları qarşısında qaldıracağını bildirib.

Seçicilər çıxış edərək bildiriblər ki, əhalinin üzləşdiyi çətinliklər əsasən məktəb, kəndlərdə su çatışmamazlığıdır.Seçicilər maraqlı təklif irəli sürərək bildiriblər ki, Qarqar çayının yanında su anbarı tikilərsə, neçə kənd bu sudan istiadə edərək, problemini həll edərlər.

A. Abbas seçicilərin iş, yol, su, qaz, bağça, pensiya, məktəb və s. ilə bağlı qaldırdığı bir sıra məsələlərin operativ həllini diqqətdə saxlayacağına söz verib.

Görüş qarşılıqlı maraq doğuran bir sıra digər mövzuların müzakirəsi ilə davam edib.

***

**85 saylı Füzuli-Ağcabədi Seçki Dairəsindən Azərbaycan Respublikası Milli Məclisinə deputatlığa namizəd Aqil Abbas Ağcabədi rayonun Sarvanlar kəndində seçicilərlə görüş keçirib.**

Adalet.az xəbər verir ki,görüşdən öncə Vətən uğrunda şəhid olanların əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbiri açan Aqil Abbasın vəkili Ceyhun Rüstəmov seçiciləri salamladıqdan sonra əvvəlcə seçiciləri namizədin seçki platforması ilə tanış edib.

Daha sonra Aqil Abbas qeyd edib ki, parlament seçkiləri ilk dəfədir ki, ərazi bütövlüyü, suverenliyi təmin edilən Azərbaycanda keçirilir və bunun böyük mənəvi və siyasi əhəmiyyəti var.

Aqil Abbas seçicilərinə bu dəfə də ona etimad göstəriləcəyi təqdirdə görəcəyi işlərdən bəhs edib. A.Abbas ali dövlət rəhbərliyinin vətəndaşlara qayğısından danışıb və bunun hər bir millət vəkili, məmur üçün örnək olduğunu deyib:

"Seçicinin qayğısı bizim qayğımızdır. Biz hər bir vətəndaşın qayğılarını öz qayğımız bilmədən ümumölkə inkişafına töhfə verə bilmərik. Biz dövlət-xalq birliyinin təntənəsini Vətən müharibəsində gördük. Bu birlik xalqımızın xarakterinin göstəricisidir".

Görüşün sonunda A.Abbas seçicilərlə fərdi qaydada görüşüb, onların suallarını cavablandırıb. Seçicilər bu dəfə də daha çox sosial problemlərini iş, yol, su, qaz, bağça, pensiya, məktəb və.s dilə gətirib, onların həllində namizədin yardımçı olmasını xahiş ediblər.

A. Abbas seçicilərin qaldırdığı bir sıra məsələlərin operativ həllini diqqətdə saxlayacağına söz verib.

Deputatlığa namizəd seçicilərinə 01 sentyabr tarixində keçiriləcək seçkilərdə aktiv olmağı tövsiyyə etdi.

***

**85 saylı Füzuli-Ağcabədi Seçki Dairəsindən Azərbaycan Respublikası Milli Məclisinə deputatlığa namizəd Aqil Abbas Ağcabədi rayonun Şərəfxanlı kəndində seçicilərlə görüş keçirib.**

Görüşdən öncə Vətən uğrunda şəhid olanların əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbiri açan Aqil Abbasın vəkili Ceyhun Rüstəmov seçiciləri salamladıqdan sonra əvvəlcə seçiciləri namizədin seçki platforması ilə tanış edib.

A.Abbas ölkədə aparılan geniş miqyaslı abadlıq-quruculuq işlərindən, xüsusilə işğaldan azad olunmuş ərazilərdə sürətli bərpa işlərinin həyata keçirilməsindən danışıb. Vətən müharibəsi iştirakçılarına, əlillərinə və şəhid ailələrinə göstərilən qayğı haqqında məlumat verən namizəd bütün bunlarla yanaşı regionların sosial-iqtisadi inkişafı üzrə Dövlət proqramının icrasının da ölkə başçısının diqqət mərkəzində olduğunu bildirib, seçki dairəsinin müxtəlif ərazilərində su və qaz təminatının yaxşılaşdırılması haqqında danışıb.

Seçicilər içməli su təminatı və digər problemlərlə bağlı fikirlərini səsləndiriblər.

Namizəd seçicilərin hər birini, o cümlədən gəncləri maraqlandıran məsələlərlə bağlı sualları cavablandırıb.

Seçicilərin qaldırdığı məsələlərə dair düşüncə və fikirlərini bölüşən Aqil Abbas, onları seçkilərdə aktiv olmağa səsvermə hüququndan istifadəyə çağırıb.

Aqil Abbas yenidən Millət vəkili seçiləcəyi halda, gəncləri, bütövlükdə seçiciləri qayğılandıran ayrı-ayrı məsələləri parlamentdə, hökumət qarşısında qaldıracağını bildirib.

**Sonda Aqil Abbasın vəkili Ceyhun Rüstəmov seçicilərin şikayətlərini, müraciətlərini dinləyərək qeydlər aparıb.**



*Səxavət Məmməd*

# Zəngəzur dəhlizi müəmması: Silahlanma, hazırlıqlar

## Müharibənin ayaq səsləri

***Ermənistanın silahlanmasına ən primitiv yanaşma Azərbaycana görədir, ermənilər revanş istəyir, Qarabağdan əl çəkməyiblər.***

***Ermənistanın silahlanmasına nəzər etdikdə bir çox amillərə diqqət çəkmək lazımdır. Əvvəla, Ermənistan öz gücü ilə müharibədən əvvəlki səviyyəyə gəlib çıxması üçün həm uzun illər lazım idi, həm də böyük pullar. Görünən odur ki, Ermənistan pulu tapdı, müddəti də qısaltdı. Silah anlaşmalarına diqqət etdikdə açıq şəkildə görürük ki, Ermənistana Qərbdən hər dəfə pul ayrılanda dərhal sonra yeni silah alır. Ona görə də, silahlandırılır desək, daha məntiqli olar. Dəfələrlə yazılarımda qeyd etmişəm ki, hazırda Rusiya-Ukrayna müharibəsi Cənubi Qafqaza transfer edilir.***

***Gəlin, bir qədər bunu da açaq. Rusiyanın Ukraynaya hücumundan əvvəl Ukraynada nələr baş verirdi? Siyasi tərəfləri qoyaq bir kənara, ancaq hərbi tərəflərini xatırlayaq. Ukrayna ordusunun içərisində NATO mütəxəssisləri işləməyə başlamışdı, yeni silahlar verilirdi, media dəstəyi də pik həddə çatmışdı, ölkənin Avropa İttifaqına və NATO-ya daxil olması üçün fikirlər səsləndirlirdi. Rusiya ilə sözlü atışmalar, qarşılıqlı ittihamlar və sonda Rusiyanın işğal siyasəti həyata keçməyə başladı. Müharibə buna görə başladığını demirəm, müharibədən əvvəlki vəziyyəti nəzərdə tuturam.***

***Ermənistana baxdıqda da demək olar ki, eyni prosesin şahidi oluruq. Silahlanma, siyasi baxımdan Rusiyadan qopma, KTMT-də fəaliyyətin dondurulması, təlimlərdə iştirak etməmə, Azərbaycanla sülh danışıqlarından yayınma, Zəngəzur dəhlizi ilə bağlı ortaya qoyduğu mövqe, ordusunda Fransa və ABŞ nümayəndələrinin olması və digər məsələlər.***

***Sahədə Ermənistan və Azərbaycandır, ancaq tərəflər eynidir. 10 noyabr bəyanatının 8 bəndini Azərbaycan özü icra edib, qalıb sonuncu bənd, adını Zəngəzur dəhlizi qoyduğumuz kommunikasiyalar məsələsi.***

***Ermənistan və Rusiya tərəfi necə götürdüyü öhdəliyin heç birinə əməl etmədi, Azərbaycan tərəfi güc yolu ilə bütün bəndləri özü icra etdi, Ermənistan 9-cu bəndlə bağlı öhdəliyi də yerinə yetirmir. Təəccüblüdür? Qətiyyən! Düzdür, bir çox məsələləri Azərbaycan tərəfi ilə Rusiya uzlaşdıqdan sonra həyata keçirildi, ancaq əsas güc yenə rəsmi Bakının üstünə düşdü.***

***Azərbaycanın əlində Ermənistana təsir rıçaqları qalıb? Düşünmürəm. Anti-terror əməliyyatı bitib, ermənilərin də Qarabağı tərk etməsi ilə Azərbaycanın Ermənistana təzyiq, təsir edəcəyi demək olar ki, heç nə qalmadı. Ermənistan da bunun fəqrindədir. Anti-terror əməliyyatından əvvəl və sonrakı dönəmə diqqət edin, hər şey aydın olacaq.***

***Zəngəzur dəhlizi açılacaq. Görünən odur ki, bu danışıqlar yolu ilə baş tutmayacaq. Çünki yolda Rusiyanın nəzarəti məsələsi ilə Qərb razı olmur, olmayacaq. Bu yeni məsələ deyil. Bəyanatdan dərhal sonra Fransa buna etiraz etmişdi.***

***Zəngəzur dəhlizinin danışıqlar yolu ilə açılması mümkündür?***

***Rusiyanın əlində 10 noyabr bəyanatı var. Rusiya hələ ki o sənədi əsas gətirərək, hərəkət edir və tələsir. Niyə tələsir? Çünki bəyanatın digər bəndləri nəinki icra olunub, bəyanatın Ermənistan və Azərbaycana təsir rıçaqı olan sülhməramlılar hissəsi də ermənilərin Qarabağdan getməsi ilə sıradan çıxıb. Yəni, bəyanatın son bəndi havadan asılıdır. Rusiya düşünə bilər ki, ən azı 2025-ci ilin ortasına qədər gücündən istifadə edərək bəyanatı keçərli sənəd kimi saydırsın. Bəs sonra? Ona görə də, Rusiya tələsir. Ümumiyyətlə, indiki məqamda Qərblə Rusiyanın uzlaşması mümkün görünür? Düşünmürəm ki, Ukraynada savaşa-savaşa gəlib Cənubi Qafqazda tərəflər əl sıxsın. Danışıqlar yolu görünmürsə, qalır hərb yolu.***

***Hərb yolu realdır, hətta uzaq olmayan zamanda baş verə bilər. Ermənistanın silahlanması, bunkerlərin tikilməsi, hətta bunun nümayiş etdirilməsi, müdafiə xətlərinin qurulması onu deməyə əsas verir ki, erməni tərəfi və Qərb olacaqların fərqindədir. Rusiya kimi onların da tələsdiyini açıq şəkildə görə bilərik. İstiqamətlər də bəllidir. Əgər toqquşma baş tutsa, İranla Ermənistanın əlaqəsi kəsiləcək. O zaman İran necə davranacaq? Ümumiyyətlə, İran buna sakit yanaşacaq? Bax bu yerdə diplomatiya işə düşməlidir. Türkiyə, yəhudi lobbisi Azərbaycanı yenə də dəstəkləyəcəklər. Necə ki, müharibə zamanı yəhudi lobbisi erməni lobbisini sıfırlamışdı və bu prosesi davam etdirirlər. Azərbaycan tərəfi İranla uzlaşma əldə etməlidir. İranla uzlaşmadan addım atmaq böyük problemlər yarada bilər. Necə ki, anti-terror əməliyyatlarından əvvəl yazırdım, Azərbaycan Rusiya uzlaşma əldə etmədən nəticə əldə edə bilməyəcək. İndi də eyni vəziyyət İranla bağlıdır.***

***Toqquşma olacağı təqdirdə, təbii ki, Azərbaycana qarşı ağır sanksiyalar tətbiq edilə bilər. Sanksiyalar zamanı ən önəmli məsələ sanksiyaları yarmaqdır. BRİKS təşkilatı sanksiyaların yarılması üçün önəmli ola bilər. Bəlkə də BRİKS-ə müraciət bununla bağlıdır.***

***Dəfələrlə yazmışam, bu gərginlik bəlkə də Azərbaycan və Ermənistanın arzusu deyil. Ona görə də, toqquşma sahədə Ermənistan və Azərbaycan kimi görünsə də, əslində, rəqiblər dəyişməz olaraq qalacaq.***

# *MEDİA Naxçıvan idarəsi üzrə könüllülük proqramı elan edib*




**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin Naxçıvan regional idarəsi media sahəsinin inkişafı istiqamətində həyata keçirilən layihələr çərçivəsində gənclərin potensialından daha səmərəli istifadə etmək, onların fərdi və peşəkar inkişafına şərait yaratmaq, media sahəsində gənclərin fəal iştirakını və yaradıcı-innovativ potensialını stimullaşdırmaq, eyni zamanda ölkədə könüllülük hərəkatına dəstək olmaq məqsədi ilə ”Media könüllüləri” Proqramına qeydiyyat elan edir.**

Adalet.az xəbər verir ki, proqram müddətində könüllülərin nəzəri və təcrübi biliklər qazanması üçün Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin Naxçıvan regional idarəsinin müvafiq struktur bölmələrində, həmçinin müxtəlif media subyektlərində təşkil ediləcək təcrübə proqramlarında, təlim və layihələrdə iştirakı nəzərdə tutulur. Media sahəsində MEDİA könüllüsü olmaq istəyən 18-29 yaş arası gənclər qurumun saytına daxil olaraq müvafiq linkdən qeydiyyatdan keçməlidir.

Qeyd edək ki, ”MEDİA könüllüləri” Proqramı 3 ay müddətində davam edəcəkdir. Könüllülük fəaliyyətini uğurla başa çatdırmış və öz öhdəliklərini yerinə yetirmiş könüllülər Proqramın sonunda Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin Naxçıvan regional idarəsi tərəfindən sertifikatla təltif olunacaqlar.

Müraciət üçün son qeydiyyat tarixi 10 sentyabrdır.

# *Polisə yalan məlumat verib 3 nəfərin həbs olunmasını istəyirdi - Özü saxlanıldı*

**Polisə bilərəkdən quldurluq cinayəti barədə yalan məlumat verən şəxs saxlanılıb.**

Adalet.az xəbər verir ki, bu barədə Daxili İşlər Nazirliyi məlumat yayıb. Qeyd olunub ki, avqustun 25-də vətəndaş Mərhəmət Mehdiyev 102 Xidməti-Zəng mərkəzi və Nəsimi RPİ-nin 19-cu Polis Şöbəsinə müraciət edərək ”Əbdül”, ”Tofiq” və ”Taleh” adlı şəxslər tərəfindən avtomaşına əyləşdirilib başına beşbarmaqla vurularaq 164 manatının və mobil telefonunun əlindən zorla alınması barədə məlumat verib.

Nəsimi RPİ-nin İstintaq Şöbəsində Cinayət Məcəlləsinin 181.2.1-ci (quldurluq, qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən törədildikdə) maddəsi ilə cinayət işi başlanılıb.

M.Mehdiyevin iş üzrə zərərçəkmiş şəxs qismində dindirilib. Həyata keçirilən əməliyyat tədbirləri nəticəsində Tofiq Tağıyev və Əbdül Məmmədov müəyyən edilərək şübhəli şəxs qismində saxlanılıblar. Onlar ifadələrində qeyd olunanları inkar edərək M.Mehdiyevə qarşı heç bir cinayət əməli törətmədiklərini, onun pulunu və telefonunu əlindən almadıqlarını bildiriblər.

Həyata keçirilən əlavə istintaq hərəkətləri zamanı M.Mehdiyev ilkin ifadəsində qeyd etdiklərinin tam əksinə olaraq həmin şəxslər tərəfindən ona qarşı heç bir zorakılığın olmadığını, pulunun və mobil telefonunun əlindən alınmadığını bildirib. O, aralarında əvvəllər olmuş narazılıqlarla bağlı həmin şəxslərin həbs olunmasını istədiyini və buna görə də bilərəkdən ağır cinayət hadisəsi barədə polisə yalan məlumat verdiyini qeyd edib.

İş üzrə Cinayət Məcəlləsinin 181.2.1-ci maddəsi ilə başlanan Cinayət İşi həmin məcəllənin 296.2-ci (Bilə-bilə yalan xəbərçilik etmə) maddəsinə tövsif olunub. T.Tağıyev və Ə.Məmmədov sərbəst buraxılıb.

M.Mehdiyev isə Cinayət Məcəlləsinun 296.2-ci maddəsi ilə şübhəli şəxs qismində saxlanılıb, zəruri istintaq hərəkətləri davam etdirilir.

# *Ukraynanın Rusiya ərazilərinə hücumu effektli ola bilərmi?*

**Foreign Affairs, Kolumbiya Universitetinin beynəlxalq əlaqələr üzrə professoru Stiven Biddlun sözlərinə istinadən bildirir ki, Ukraynaya Qərb silahlarından Rusiyanın dərinliklərinə zərbələr endirilməsinə icazənin verilməsi, münaqişədə Kiyevə kömək etməyəcək və çətin ki, hər hansı bir effekti ola biləcək.**

”Rusiyanın dərinliklərinə zərbə endirilməsinə icazə verilməsi Ukraynaya kömək etməyəcək. Oyunun gedişatının dəyişdirilməs üçün, Kiyevə bu zərbələri yerüstü əməliyyatlarla əlaqələndirməsi lazımdır.

Lakin Ukrayna hələ ki, bu müharibədə irəliləyişə nail ola bilməyib və yalnız Qərb silahlarından istifadə edilməsi vəziyyəti öz xeyirlərinə dəyişmək üçün kifayyət etmir.

Daha əvvəl The Wall Streed Journal qəzeti də, mənbələrinə əsasən yazıb ki, Ukrayna silahlı qüvvələrinin amerikan ATACMS raketləri ilə Rusita ərazilərinə zərbələri minimum effekt verəcək.

**Rüstəm Hacıyev**

*Rüstəm Hacıyev*



# Fransa diktaturanın simvoluna çevrilib

### *”Telegram”ın yaradıcısı Fransada həbs olundu*

**Xəbər verildiyi kimi, ”Telegram” kanalının yaradıcısı və sahibi Pavel Durov, şəxsi təyyarəsiylə Azərbaycandan Fransaya qayıdan zaman Parisin Le-Burje hava limanında saxlanılıb. Fransa KİV-lərinin verdiyi məlumatlara görə, Telegram kanalının yaradıcısına qarşı narkotiklərin yayılması, uşaqlara qarşı cinayət törətmək, çirkli pulların yuyulması və dələduzluq tötətmək maddələri ilə ittihamlar irəli sürülüb.**

**Pavel Durov bir neçə il bundan əvvəl Frsnsa vətəndaşlığını qəbul edib və bildirilir ki, eyni zamanda Rusiya pasportu da daşıyır.**

**Əslində Durova qarşı irəli sürülən iddihamlanın səbəbi kimi, onun sahibi oduğu kanalın istifadəçilərinin yazışmalarının kodlaşdırılması və onların xüsusi xidmət orqanları ilə bölüşməməsi olduğu bildirilir. Qeyd olunur ki, guya istifadəçilər bu kanal vasitəsi ilə narkotiklərin yayılması, çirkli pulların yuyulması, uşaq ponoqrafiyasının yayılması, frıldaqçı maliyyə əməliyyatlarının aparılmasına şərait yaradılması və s. çinayət xarakterli yazışmalar aparmalarıdı.**

**Teleqram kanalının sahibinin həbs olunması siyasi cəmiyyət tərəfindən birmənalı qarşılanmayıb. Fransalı politoloq və publisist Ksavye Moro bəyan edib ki, Fransa dünyada yeganə dövlətdir**

**ki, Pavel Durovu həbs edə bilərdi.**

**”Avropada bu insanı həbs etmək istəyən ölkə yalnız Fransa ola bilərdi. Təəssüf ki, bir fransIz kimi bunu mən deyirəm”- deyə politoloq bəyan edib.**

**Moro hesab edir ki, Telegram kanalının sahibinin həbs olunması ABŞ-ın göstərişiylə həyata keçirilib. Onlar Durovu, nə də X sosial şəbəkənin sahibi İlon Maksı həbs edə bilməzlər. Çünki ABŞ konstitusiyasına edilən ”Bir saylı düzəliş” azad sözün təminatçısıdır. Ona qalsa gərək bütün mobil telefon şirkətlərinin rəhbərləri həbs oluna, çünki orda da ”narkodillerlər”, terrorçular və s. çinayətkar ünsürlər də onların xidmətlərindən istifadə edirlər.**

**Belə çıxır ki, digər sosial şəbəkələr və mobil telefon şirkətlərinin rəhbərləri istifadəçilərinin şəxsi yazışmaları barədə Mərkəzi Kəşfiyyat İdarəsinə və digər xüsusi xidmət orqanlarına məlumatlar verirlər, ona görə də onlara dəymirlər.**

**Digər fransalı politoloq Bertsn Şoller isə, bəyan edib ki, rusiyalı milyarderin həbs olunması bir daha göstərir ki, Fransa diktaturanın simvoluna çevrilib.**

**Bu arada Fransanın xarici işlər nazirliyi Pavel Durovun həbs olunması ilə bağlı şəhr verməkdən boyun qaçırıb və belə əsaslandırlb ki, guya Fransanın hüquq sistemi müstəqildir...**

# "Bu ölkələr böyük təhlükə altındadır"

### BMT-dən xəbərdarlıq

**Birləşmiş Millətlər Təşkilatının (BMT) Baş katibi Antonio Quterreş, Sakit okeandakı ada ölkələrinin dənizlərdəki suyun səviyyəsinin yüksəlməsinin gətirdiyi təhlükələrlə üzləşdiyinə diqqət çəkib.**

Adalet.az xəbər verir ki, Quterreş Tonqa Krallığında keçirilən 53-cü Sakit Okean Adaları Forumunda okean və dəniz suyunun səviyyəsinin artmasının təsirləri haqqında məlumat verib.

İqlim dəyişikliyi ilə əlaqədar okeanlarda suyun səviyyəsinin qalxmasının Sakit okean ada ölkələri üçün ciddi təhlükə yaratdığını bildirən Quterreş, qalıq yanacaqlardan istifadə edərək ətraf mühitə atılan karbon emissiyalarının su səviyyəsinin artımını sürətləndirdiyini qeyd edib.

BMT-nin hazırladığı hesabatda Tonqanın paytaxtı Nuku'alofada dəniz səviyyəsinin 1990-2020-ci illər arasında 21 santimetr yüksələrək dünya ortalamasının təxminən iki dəfə artdığı bildirilib.

Hesabatda, həmçinin Samoanın Apia bölgəsində dəniz səviyyəsinin 31 santimetr, Ficinin Suva-B bölgəsində isə 29 santimetr yüksəldiyi qeyd olunub.

Bölgədəki insanların təxminən 90 faizinin su səviyyəsinin yüksəldiyi okeanların 5 kilometrliyində yaşadığına diqqət çəkən Quterreş, ”Bu vəziyyət Sakit okeandakı ada ölkələrini ciddi təhlükə qarşısında qoyur”,- deyib.

Quterreş vurğulayıb ki, böyük şirkətlər və inkişaf etmiş ölkələr iqlimlə bağlı razılaşmaları yerinə yetirməli və iqlim dəyişikliyindən təsirlənən ölkələr üçün maliyyəni xeyli artırmalıdır.

# 2 tank vuran "puşka" komandiri, haqqı verilməyən döyüşçü - Şəkili Azər

*Xatırlamasaq olmaz! Bu gün Füzuli rayonunun işğal edildiyi gündür.*

*Bir anlıq fikrimiz -xəyalımız o məşəqqətli günlərə gedir. İlahi, bu xalq son 35 ildə nələr yaşadı? Bir-birinin ardınca baş verən faciələrimiz, məğlubiyyətlərimiz, xalq olaraq aşağılanmağımız, qətlə yetirilən günahsız insanlarımız, evlərə səpələnən şəhid tabutları, talanlar, qarətlər, kütləvi insan itkisi, deportasiya ..*

*Təkcə 1992-ci ildə baş verən faciələri yada salaq: Yanvarın 28-də Ağdam-Şuşa marşrutu ilə uçan Mİ-8 mülki vertolyotu Şuşa şəhəri yaxınlığında erməni terrorçuları tərəfindən vuruldu.İçərisində körpə uşaq olmaqla 44 soydaşımızın külü dağlara-daşlara səpələndi. Ondan 2 gün sonra Kərkicahan qəsəbəsinə ermənilərin hücumu nəticəsində 80 günahsız şəxs qətlə yetirildi.*

*Fevral ayının əvvəllərində 56 nəfər, onlardan 12 nəfəri uşaq olan Qaradağlı kənd sakinlərini güllələndi, sonra 613 nəfər dinc sakinimizin məhv edildiyi Xocalı soyqırımı başverdi.*

*Əvvəl Xocalı rayonu, sonra Şuşa, daha sonra Laçın Sonramənfur ermənilər tərəfindən işğal olundu.*

*Əli silah tuta bilən bütün Azərbaycan oğulları döyüş meydanına axışırdı. Bu kabusun, bu məşəqqətli günlərin sonunu gətirmək üçün silaha sarılmışdı.*

### *Bolludərəli gəncin həyat hekayəsi*

1992-ci ilin iyul ayına Şəki rayonunun Bolludərə kəndindən bir gənc Qarabağa tərəf yol almışdı. O bütün qüvvəsini toplayaraq qisas üçün döyüş meydanına tələsiyirdi.

Bu 20 yaşlı gənc həm soydaşlarının, həm də 2 il əvvəl Xocalı rayonunda şəhidlik zirvəsinə ucalmış baş leytenant, Azərbaycanın Milli Qəhrəmanı Mikayıl Cəbrayılovun qisasını almağı özünə söz vermişdi. Halbuki o yaşda hər gəncin arzuları tam başqaydı . Təhsil, tələbəlik həyatı, qızğın gəncliyin firavan günləri, sevgi həyatı, eşq macəraları ...

Amma Bolludənin qorxmaz oğlu ölüm-dirim meydanına girməyi, hər an həyatına nöqtə qoyacaq bir gülləni, bir qəlpəni görməzdən gəlməyi, özünü həsr etməyə hazırlaşdığı bu yola baş qoymağı qarşısına məqsəd qoymuşdu. Arxasınca baxan doğmaları, yaxınları xəlvət-xəlvəti göz yaşlarını silsələr də onun qarşısına qoyduğu ali məqsədə hörmətlə yanaşırdılar, xeyir-dua verirdilər.

Aradan 32 il keçəndən sonra həmin gənclə - artıq 52 yaşlı Qarabağ qazisi ilə tanış oluram. Onun mənim ünvanıma yazdığı məktubun vasitəsi ilə... Yazmışdı ki... Bu haqda bəlkə elə Bolludərənin qorxmaz oğlu danışsın? Danışsın!

**- Cənab komandir, qazi qardaş, özünüz haqqında oxucularımıza məlumat verərdiniz...**

-Mən Məmmədov Azər İbrahim oğlu 27 May 1972-ci ildə Şəki rayonunun Bolludərə kəndində anadan olmuşam. 1979-cu ildə həmin kənddə fəaliyyət göstərən 8 illik məktəbin 1-ci sinfinə daxil olub, 1987-ci ildə həmin məktəbin 8-ci sinfini bitirmişəm.

1989-cu ildə həmin rayonun Orconikidze qəsəbəsindəki (Turan qəsəbəsi) tam orta məktəbin 9-cu sinfinə daxil olub ,1991-ci ildə həmin tam orta maktəbin 11-ci sinfini də bitirmişəm. Sonradan qəsəbədə fəaliyyət göstərən texniki peşə məktəbini də bitirdim .

**- Müharibəyə nə vaxt getdiniz?**

1992-ci ilin iyul ayından 1996-cı ilin oktyabr ayına dək yəni 4 il, 4 ay hərbi xidmətdə olmuşam.1992-ci il, İyul ayının 22-də Bakıya göndərildildik. Təlimlər keçdik, hərbi and qəbul etdik. Müharibə zonasına gedən mərmilərin yüklənməsi, yola salınmasında yaxından iştirak etdim. Komandirimiz əsgərlərə müraciət edərək, kimin tank əleyhinə puşka (tank əleyhinə top komandiri )komandiri olmaq istədiyini soruşanda, dedim ki, mən komandir olmaq istəyirəm.

Xidmət dövrüm Füzuli rayonunda keçib.Bizi Bakıdan bir başa göndərdilər Horadiz qəsəbəsində yerləşən 702 saylı briqadaya ( komandir İsa Qasımov (Füzuli-Cəbrayıl-Beyləqan-Xocavənd)

"Puşka" komandiri olaraq döyüşlərə girmişəm. Füzuli rayonunun Dilağarda kənd inzibati ərazi dairəsində bir kənd vardı Dördlərkəndi! Döyüşə okenddən başlamışam.

Amma ən ağır döyüşümüz erməni tanklarının Veysəlli kənd istiqamətində hücuma keçdiyi zaman baş verdi. 17 avqust 1992-ci il mənim komandanlığım altında döyüşə atılmışıq!Tank əleyhinə puşkanı Yuxarı Veysəlli kəndinin üst tərəfində el arasında "Yel ocağı "deyilən dağın üstündə yerləşdirmişdik. Saat 11 radələrində artıq ilk tankı vurdum.

**-Bəs, ikinci tankı?**

-İkinci tankın vurulması isə 1993-cu ilin təxminən mart ayında baş tutdu. Dilağarda kəndi ərazisinə hücum edən erməni tanklarları Azərbaycan əsgərlərinin mövqelərinə qarşı güclü hücuma keçmişdi. Komandam altında olan atıcılar durduğu ərazi də təhlükəli idi. Eyni zamanda tankların sıx ağaclıq ərazidən atması da bizim onları məhv etmək işimizə mane olurdu.Tankların durduğu ərazini müəyyən etdikdən sonra atəş açmağa başladım.

Həmin vaxt diqqət etdim ki, mənim acdığım atəş mənzil başına 8 saniyəyə, onların açdığı atəş bir saniyəyə gəlib çatır. Onların silah - sursatı bizimkindən daha güclü və müasir dövrün standartlarına uyğun olduğunu anladım və bu çox təhlükəli hal idi. Buna baxmayaraq ərazidən çəkilməyi ağlımın ucundan da keçirmirdim.




Artıq tanklara tərəf atdığım mərmi yerimi bəlli etmişdi. Şahmat taxtasındakı kimi ətrafıma mərmilər səpələnirdi. Çalışırdım özümü itirməyim. Mərminin küləyi üzümü saçımı yalayanda 4-cü mərmini erməni tanklarına tərəf tuşladım .Göy gurultusuna bənzər partlayış səsindən və qara tüstüdən anladım ki atdığım mərmi hədəfə dəyib. Tankın partlaması ilə səngərimizdə əsgərlərimizin sevinc qarışıq bağırtısına qoşuldum, bəli təhlükənin birini mən məhv etmişdim.

Xidmət müddəti ərzində bütün güçümlə döyüşmüşəm. Döyüşdə göstərdiyim şücaətə mənimlə bir səngərdə olan silahdaşlarım şahiddir. Dəfələrlə ölümlə nəfəs-nəfəsə olmuşam.

**- O zaman 1993-ci ilin dekabrından başlamış 6 yanvara qədər davam edən Horadiz əməliyyatında iştirakınız haqqında da oxucularımızı məlumatlandırardınız.**

-Bildiyiniz kimi , 1993-cü ilin dekabrına qədər Qarabağın azərbaycanlılar yaşayan Xocalı, Şuşa, Laçın, Kəlbəcər, Ağdam, Füzuli, Qubadlı, Zəngilan rayonları dolayısı ilə rus hərbi birləşmələrinin və Ermənisan silahlı qüvvələri tərəfindən işğal edilmişdi. Hətta fikirlərində tutmuşdular ki, Azərbaycan-İran sərhədində yerləşən Horadizi tez elə keçirib, orada qoşun yeridib, oranı da işğal etsin.

Amma istədiklərini ala bilmədilər. 702 saylı hərbi hissənin həyəti düşmənin müdafiəsini dağıtdı və top atəşi və raket artilleriyasının altında Füzuli rayonun daxilinə irəlləməyə başlamışdı. 1994-cü ilin yanvar ayının əvvəlində, azərbaycanlılar 11 qəsəbə və 40 kilometr Azərbaycan-İran sərhədi uzunluğunda ərazini ermənidən təmizləyə bildi.

Hərb tariximizin uğurlu Horadiz əməliyyatında top komandiri olaraq ölüm-dirim savaşında iştirakımı həyatımın ən uğurlu günü hesab edirəm.

Mənimdə iştirakçısı olduğum o hərbi əməliyyat Azərbaycan dövləti üçün böyük önəm daşıyırdı. Bəli, Füzuli rayonunun 21 kəndi və Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndi Azərbaycanın nəzarətinə keçdi. 8 nəfər Azərbaycanın Milli Qəhrəmanı adına layiq görüldü.

Düzdür İtkilərimiz də oldu. Həmin döyüşdə Azərbaycanın Milli Qəhrəmanı Elxan Zülfüqarov və Yasamal batalyonunun komandiri Mirələkbər İbrahimov da şəhid oldu.

**-Siz, deyəsən elə bu döyüşlərdə yaralandınız...**

- Bəli, mərmi gəlib önümə düşdü. Başımdan yaralandım. Gənc idim deyə ağrısam da döyüş meydanından geri çəkilmədim.

**-Amma deyəsən, hərbi əlillik almamısınız...**

-2017-ci ildə ikinci qrup mülki əlilllik alsam da bu 5 il davam edib.

Baxmayaraq ki, müharibədə aldığım ağır xəsarət nəticəsində beynimdə olan yeddi yüz mərkəzdən beş yüzu işləmir , hələki, hərbi əlillik almamışam. 10 gün əvvəl komissiyadan keçdim və hazırda cavab gözləyirəm.

**-Qayıdaq o illəri...Sağalan kimi yenidən orduya döndünüz...**

-1995-ci ilin aprelində 181 saylı hərbi hissəyə dəyişdirilmişəm. Amma burda atıcı vəzifəsini həyata keçirmişəm. 1996-cı ildə oktyabrın 30-da isə 181 saylı hərbi hissədən tərxis olundum.

**- Ordudan qayıtdıqdan sonra nə işlə məşğul oldunuz?**

-Ordudan tərxis olunduqdan sonra Bolludərə bələdiyyəsində metodist kimi fəaliyyət göstərmişəm . 1999-cu ilə dək həmin peşəni tutmuşam. 2000-ci ildən 2003-cü ilə dək həmin bələdiyyədə mühafizəçi peşəsində çalışmışam. Müddət ərzində həmin müəssisə də ixtisar olunduğu üçün işdən azad olunmuşam. Orduda aldığım ciddi travmalarla əlaqədar olaraq sonradan işləyə bilmədim çünki fiziki imkanlarım məhduddur. Belə ki, beynimdə olan yeddi yüz mərkəzdən beş yüzu işləmir. Ailəliyəm, 3 övladım var.

**-Azər bəy, siz gəncliyini, sağlamlığını, gələcək arzularını vətən uğruna qurban verən igidlərimizdənsiniz. Arzu edirik , əlaqədar orqanlar sizin 2 tank vurmağınızdan əlavə 4 ildən artıq xidmətinizi, uğurlu Horadiz əməliyyatındakı fəaliyyətinizi yüksək qiymətləndirəcək. Sizi nəinki hərbi əlillik dərəsi ilə , eyni zamanda vətənə layiq xidmətlərinizlə bağlı mükafatlandıracaq. Bizdən yalnız arzu etməkdir. İcra etmək isə dövlət qurumlarına qalır. Sizə isə uzun ömr can sağlığı arzu edirəm. Ümid edirəm, füzulililər Horadiz qəhrəmanlarının birini də tanıdılar.**

**Əntiqə Rəşid**

## *Seysmik zonada ikinci təhlükə: Növbəti "Metsomor"u ABŞ tikəcək*

**Metsamor AES-lə bağlı verdiyimiz xəbərlərdə bildirmişdik ki, artıq Qafqazınən seysmik zonasında yerləşən Ermənistan Metsamor AES kimi dəhşətli təhlükədən sonra ikinci böyük təhlükənin təməlini atmaq ərəfəsindədir.**

Bələki, Ermənistan ərazisində atom elektrik stansiyasının tikintisinə icazə verən sazişin mümkün bağlanması ilə bağlı sorğu göndərib və bunu açıq şəkildə təsdiqləyib.

Rəsmi İrəvan bildirib ki, Ermənistan nüvə enerjisindən çox asılıdır:" Hazırda Metsamor atom elektrik stansiyası ölkənin ümumi enerji tələbatının təxminən üçdə birini ödəyir. 1980-ci illərin əvvəllərində istifadəyə verilən zavodun istismar müddəti 2017-ci ildə başa çatsa da, modernləşdirmədən sonra istismar müddəti 19 il uzadılıb. Beynəlxalq Atom Enerjisi Agentliyi ötən il elan etmişdi ki, Ermənistan AES beynəlxalq təhlükəsizlik standartlarına cavab verir".

Bu fikirlə özünə haqq qazandırmağa çalışan Ermənistan rəhbərliyi Qafqazı və qonşu xalqları necə böyük bir bəlanın içərisinə atdığının fərqində deyil. Əslində heç kim zəmanət verə bilməz ki, 1988-ci ildə 25 min adam öldürən Spitak zəlzələsi bir daha baş verməyəcək.

Yerli media bildirir ki, Metsamor AES-in fəaliyyəti həm yanacaq təchizatı, həm də texnoloji təkmilləşdirmələr baxımından tamamilə Rusiyanın dövlət nüvə enerjisi korporasiyası olan Rosatomdan asılıdır:" Ötən il Ermənistan hökuməti AES-in 2036-cı ilə qədər istismarı üçün Rosatom ilə 65 milyon dollarlıq modernləşdirmə və təmir müqaviləsi imzalayıb. Bundan sonra istismardan çıxarılmalı və dəyişdirilməlidir.

Avqustun əvvəlində hökumət Metsamor AES-ni əvəz edəcək yeni AES-in tikintisi üçün dövlət şirkəti yaratdı . Gözlənilir ki, yaxın iki il ərzində şirkət yeni AES-in hansı ölkənin texnologiyası və hansı gücdə tikiləcəyi ilə bağlı planını təqdim edəcək.

Ermənistan rəsmilərinin daha əvvəl bəyanatları var idi ki, Ermənistan Çin, Rusiya, Cənubi Koreya və ABŞ-dan AES-in dəyişdirilməsi variantlarını nəzərdən keçirmək niyyətindədir".

Bu məsələ ilə əlaqədar olaraq İrəvan ABŞ-a iki ölkə arasında Amerika texnologiyasından istifadə etməklə Ermənistan ərazisində atom elektrik stansiyasının tikintisinə icazə verən sazişin mümkün bağlanması ilə bağlı sorğu göndərib və bunu açıq şəkildə təsdiqləyib.

Ermənistan Dövlət Departamentinin sözçüsü ölkəsinin ABŞ-ın mülki nüvə texnologiyalarını ala biləcəyini təsdiqləyib.

Qeyd edək ki, ABŞ federal qanunlarına əsasən, ABŞ hökuməti mülki nüvə texnologiyasının digər ölkələrə ötürülməsi üçün lazımi şərtləri müəyyən edən Birləşmiş Ştatların Atom Enerjisi Agentliyi Aktının 123-cü Bölməsini imzalamalıdır . Dövlət Departamentinin 2022-ci il yenilənməsinə görə, ABŞ-ın 48 ölkə və ərazi ilə belə müqavilələri var.

**Xatırladaq ki,ötən il Ermənistan hökuməti iyunun 1-də keçirdiyi iclasda "Ermənistan Nüvə Təhlükəsizliyi Tənzimləmə Komitəsi ilə Amerika Birləşmiş Ştatlarının Nüvə Tənzimləmə Komissiyası arasında texniki məlumat mübadiləsi və nüvə təhlükəsizliyi məsələləri üzrə əməkdaşlıq haqqında sazişin təsdiq edilməsi barədə" layihəni təsdiqləmişdi. Müqavilə 2023-cü il martın 14-də Vaşingtonda imzalanıb.**

**Əntiqə Aslan**



Faiq QİSMƏTOĞLU
faiqqismetoglu@box.az

# Ağ xalatlı mələklər...

**Biz istəsək də , istəməsək tez- tez yolumuz xəstəxanalara düşür; ya özümüz xəstələnirik , ya da doğmalarımız. Və bir də insan həmişə sağlam olmur ki, onun da xəstələnən vaxtları olur.Heç şübhəsiz belə anlarda adamın gözü yaxşı həkimlər axtarır.**

**Həkim var ki, savadlıdır, amma adamla elə açı danışır, yanına getməyinə peşman olursan. Həkim də var həm savadlıdır, həm də gözəl insandır. Bax belə həkimləri bütün pasiyent lər çox istəyir. Və onu da deyək ki, ağ xalatlı həkimlər mələyə bənzəyirlər. O mələyə bənzəyən həkimlər Bakıdakı 2 nömrəli Klinik Psixiatrik Xəstəxanasında da var.**

**Çünki biz onları özümüz görmüşük və onlara ünsiyyətdə olmuşuq.Görmüşük bu xəstəxanada çalışan adını çəkəcəyimiz həkimlər və tibb personalı Hippokrat andına sadiq insanlardır. Bizim doğmamız düz altı dəfə bu tibb ocağında müalicə olunub. Hər bir müaliconi də həkimlər yüksək səviyyədə aparıblar. Xəstələrin və valideynlərin ən çox razılıq etdiyi həkim xəstəxananın birinci kişi şöbəsinin müdiri Leyla xanım Başirovadir. Bu həkim insandan çox mələyə bənzəyir və bütün xəstələrə öz balası kimi münasibət bəsləyir.**

**Burda müalicə olunan xəstələrin psixoloji durumu çətin olsa da , Leyla xanım onların hər biri ilə öz dilində söhbət edir. Gözəl söhbəti və şirin sözləri ilə bu xəstələrin ürəyini fəth edir.Əlbəttə, hər həkim belə nəcib və gözəl qəlbə sahib deyil. Leyla xanım məhz belə ürək sahibidir.Onun üçün bütün xəstələr eynidir və hamısına eyni gözlə baxır. Lap yadımızdan çıxmısdı.**

**Onu da deyək ki, Leyla Başirovanı həm də xəstəxananın əməkdaşları da çox istəyirlər. Deyirlər ki, Leyla xanım kimi sadə və səmimi həkimlər çox az olur. Xəstəxanan baş həkimi İlqar Əfəndiyev kollektivdə şəffaf və sağlam mühit yaradıb. Valideynlər belə duruma görə , baş həkimdən razılıq edir. Xəstəxanan böyük tibb bacısı Rəsxəndə Sadıqovadan , tibb personalından, təsərrüfat bacısı Alidə Rəcəbovadan, eləcə də nəzarətçilərin fəaliyyətindən razılıq edənlər çoxdur.**

**Hər bir insan həkimə gedəndə böyük ümidlə gedir. Və təbii ki, bu xəstəxanaya ümidlə gələnlər, sevinclə də evlərinə dönürlər. Çünki onları müalicə edən Leyla Başirova kimi ağ xalatlı mələklərdir!**

## Sizə gələn zəngdə belə sözlər deyilirsə... – Bakıda qurbanların başına "Kurtlar Vadisi"ndəki oyundan açırlar



**Çox təhlükəli və dəhşətli dələduzluq növü yayılıb, yenidir - diqqətli olun. Artıq Azərbaycanda qurbanlar var və külli miqdarda vəsait talanıb. Mümkünsə paylaşın.**

Adalet.az bildirir ki, bu barədə Fərid Pərdəşünas məlumat yayıb.

Deməli, valideyninizə zəng gəlir. Dəstəyin o tərəfədə olan səsinizin süni intellekt ilə klonlanmış variantıdır. Valideyninizə sizin öz səsinizlə qəza keçirib, yararlı olduğunuzu və kimisə avtomobillə vurduğunuz deyilir. Burada səs klonlanır və evdə olan valideyn sanki övladı və ya nəvəsi ilə danışırmış kimi təəssürat yaranır.

Valideyndən təcili formada pul istənilir. Evdə nə var nə yox hamısı xəstəxana xərcləri üçün tələb olunur. Hətta, inandırıcı olsun deyə dəstəyi yanında olan saxta polis və ya prokror olan şəxsə ötürür. O da təsdiqləyir ki, qəza baş verib, vəziyyət ağırdır.

Növbəti mərhələdə oğul, valideyninə özünün gələ bilmədiyini və pul üçün adam göndərəcəyini deyir. Valideyn təlaş içində pulu aşağı düşürür və ondan 1 nəfər pulu götürür. Bu cür dələduzluqla artıq neçə nəfərin pulu talanıb. 11,000 avro pul itirən zərərçəkən var. Hazırda DİN məsələni araşdırır.

Mənim ilkin araşdırmalarıma görə binanın önünə gələn şəxs belə başqa dələduzluğun qurbanıdır, sadəcə kuryer funksiyasını daşıyır.

Film kimi senari qurulub. Bu dələduzluğu edənlər ehtimal edirəm ki, Azərbaycanda deyil. Yenə də son açıqlama DİNdən olacaq. İndiki halda maksiumum diqqətli olun. Proses çox inandırıcıdır və hədəf yaşlı insanlardır.

**Qeyd edək ki, hələ 2004-cü ildə "Kurtlar Vadisi" serialında səs klonlama proqramı ilə Polat Alemdarın yaxınlarına zəng edərək onun səsi ilə qohumlarını tələyə salmışdılar.**

## Taksilər niyə bahalaşdı?!




**Əlaqədar qurumlar taksi xidmətində yeni sistemə keçəndən sonra Bakıda əvvəlki vaxtlara nisbətən taksi xidməti bahalaşıb.**

Təbii ki, xidmətin bahalaşması həmin şirkətlərə sərf eləsə də, taksi sifariş edib, mənzil başına gedənlərə sərf etmir. Özü də bu bahalaşma bir- iki manat deyil, hətta dörd- beş manat fərq edir! Heç şübhəsiz, bu da əhali arasında müyyən narazılıqlar yaradıb. Əlaqədar qurumlar ona da bildirirlər ki, bahalaşmadan sonra xidmətin keyfiyyəti yaxşılaşıb.

Taksidən istifadə edənlər isə bu fikrin əksinə deyirlər. Yəni xidmətin keyfiyyəti elə də ürəkaçan deyil. İndi işə qəbul olan taksi sürücülərini test imtanından keçirirlər. Bu yaxşı addımdır. Sirr deyil ki, bir çox taksi sürücüləri qeyri-peşəkardır və zamanında qəzalar törədiblər.Ümid var ki, belə sürücülər işə qəbul edilməyəcək.Bu, lap yaxşı. Ancaq taksilərdə gediş haqqı aşağı salınsa, əhalinin və xidmətdən istifadə edənlərin ürəyincə olar!

## Biz tələbə olanda...



**Bizim tələbəliyimiz çox gözəl keçib.Yəni hökumət bizə müyyən hüquqlar vermişdi. Məsələn , rayona qatarla , avtobusla gedən tələbə bileti ilə 50 faiz pul ödəyirdik.**

Bakı- Moskva sərnişin qatarının plsakart vaqonda tam gediş haqqı 50 manat idi, amma biz 25 manat ödəyirdik. Çox təəssüf ki, indi tələbələrin belə hüquqları yoxdu. Ancaq yaxşı olar ki, hökumətimiz onlara belə bir imtiyaz verəydi.

Təbii ki, belə bir hüquq tələbələrimizə verilsə, hökumətimiz onları sevindirmiş olar. Bizim gənclik, o cümlədən tələbələr hər cür qayğıya və diqqətə layiqdirlər. Bircə, o qalır ki, tələbələri sevindirək!

## Tarixlər dəyişdirilir



**Bizim yolumuz hər gün istər- istəməz marketlərdən düşür.**

Burada müxtəlif çeşidli məhsullar göz qamaşdırır. Bunlar çox gözəl! Amma istehlakçıları narahat edən məsələlər də az deyildir. Bu barədə Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov da dəfələrlə öz etiraz səsini ucaldıb. Belə ki, bəzi marketlərdə ərzaq məhsulların ustündəki vaxtı keçmis tarixi silib, yeni tarix yazırlar.

Xüsusilə də qablaşdırılmış ərzaq məhsullarında bu daha aydın görünür. Hətta bəzi çörək istehsalçıları da bu üsuldan istifadə edir. Belə ki, onlar çörəklər gerı qayıdandan sonra onu yenidən emal edir və marketlərə göndərirlər.Elə ki, çörək alırsan , görürsən çörəyin içində düyünlər var. Bax həmin an hiss olunur ki, çörəyə köhnə çörək qatıblar! Ona görə də bu cür mövcud nöqsanlar əlaqədar qurumlar tərəfindən aradan qaldırılmalıdır!

## Çox mərtəbəli binalar...



**Bakıda son 20 ildə sayı- hesabı bilməyən yüksək mərtəbəli binalar inşa edilib.**

Onların arasında keyfiyyət tikilən binalar da var, tələb olunan standartlara cavab verməyənlər də! Əlbəttə, elə yüksək mərtəbəli binalar var ki, istifadəyə verilsə də, dövlət qurumları həmin binaların istismarına icazə verməyib.Amma buna məhəl qoymayan MTKlar sakinləri ora köçürüblər.İnsanlar belə yüksək mərtəbəli binada özlərini rahat hiss etmirlər. Çünki sakinlər neçə illərdir ki, o mənzillərdə yaşasalar da , evlərinə çıxarış ala bilmirlər.

Bununla yanaşı, Bakıda son illər inşa edilmiş yüksək mərtəbəli binların çoxu zəlzələyə davamlı deyil. Bu barədə mənzil ekspertləri də həyəcan təbili çalırlar.

Onlar deyirlər ki, Allah eləməmiş Bakıda zəlzələ olsa, keyfiyyətsiz tikilmiş yüksək mərtəbəli binaların əksəriyyəti uça bilər. Bu deməkdir ki, əlaqədar qurumlar paytaxtda yüksək mərtəbəli keyfiyyətsiz tikilmiş binalaradakı nöqsanlara göz yumub. Nöqsanlara göz yummaq isə bizi faciələrə dögru apara bilər!

## Yeniyetmələrə avtomobil verməyin

**Heç kimə sirr deyil ki, yeniyetmələrin və gənclərin avtomobil idarə etməyə böyük həvəsləri var.**

Birincisi, yeniyetmənin avtomobil idarə etmək hüququ yoxdur. İkincisi də heç onların çoxunun maşın sürməkdən xəbərləri belə yoxdur.Amma bəzı yeniyetmələr avtomobil idarə edə bilməsələr də sükan arxasında əyləşir, magistral yola çıxaraq ağır qəzalar törədirlər. Bu yaxınlarda Şamaxı rayonunda baş vermiş hadisəni yada salmaq kifayətdir.



Belə ki, bir yeniyetmə atasından xəbərsiz avtomobilin sükanı arxasında əyləşmiş və maşın bir xeyli gedəndən sonra aşmış, nəticədə qəza zamanı yeniyetmə ölmüşdür. Ani bir səhv addım bir ailənin faciəsinə səbəb olmuşdu. Heç şübhəsiz, bu cür hadisələr valideynləri dərindən düşündürməlidir ki, yeniyetmələrə nəzarət etsinlər və onlara avtomobilin sükanı arxasında əyləşməyə imkan verməsinlər.

**Baş Dövlət Yol Polisi İdarəsinin ictimaiyyətlə əlaqələr şöbəsinin inspektoru Elvin Hacıyev bu barədə dəfələrlə valideynlərə yol polisinin xəbərdarlıqlarını catdırıb və bildirib ki, həddi-buluğa çatmamış uşaqlara avtomobil verilməsin. Bu xəbərdarlıqlardan nəticə çıxaran da olub, çıxarmayanlar da! Amma gələn onunla razılaşaq ki, hələ də ipə- sapa yatmayan yeniyetmələr və məsuliyyətsiz valideynlər var.**



**EMİL FAİQOĞLU**

# Voskanyanın "qədim Ermənistan" sayıqlaması, yaxud, itin hürməsi...

**Bütün Qafqaza, hətta bütün dünyaya məlumdur ki, 1813-28-cillərdən bölgədə məskunlaşdırılan ermənilər Cənubi Qafqazdakı Alban abidələrinin üzərindəki ornamentləri, elementləri və digər yazı nümunələrini dəyişərək saxtalaşdırırlar, yeni erməniləşdirirlər.**



Bu da kütləvi şəkildə Alban dövrü abidələrinin ilkin görkəminin itirilməsinə və Alban mədəniyyətinin tədricən məhv edilərək tarixdən silinməsinə səbəb olur. Artıq Qafqaza köç etmiş ermənilərin məskunlaşdığı türk torpaqlarında İslama aid heç bir abidə, qala, qəsr, məscid və s. nümunəsi qalmayıb. Alban tarixinə aid olan abidələrə isə ermənilər tərəfindən xaçkarlar yerləşdirilir, yeni restavrasiya üsulları ilə tamamilə dəyişdirilir . Ermənistan ərazisində ermənilərə aid abidələr 1920-ci illərdən sonra tikilməyə başlayıb. Bu faktı əlbəttəki Ermənistanda uşaqdan böyüyə bilməyən yoxdur. Amma bu bilgini həyasızcasına ört-basdır etməyə çalışan erməni alimlər kifayət qədərdir. Onlardan biri də erməni professor, İranşünas alim, separatçı və terrorçu ruhlu Vardan Voskanyandır. Onun teleqram kanalındakı paylaşımı da əslində həyasızlığın, yalanın və şüvenlizmin bariz nümunəsidir. Voskanyan yazır:

"Qədim Ermənistan hər yerdə, Ermənistanın hər yerində, müqəddəs torpağımızın hər bir parçasındadır.

Biz millət və dövlət olaraq barbarların çirkin istəklərini uçuruma qərq edərək əcdadlarımızın sivilizasiya səylərinə layiq olmağa borcluyuq.

Bunu təkcə bizim əsas yaşamaq hüququmuz deyil, həm də erməni sivilizasiyasını barbar ünsürlərdən qorumaq kimi müqəddəs vəzifəmiz tələb edir".

***P.S. Əvvəllər Voskanyan kimilərini təcili layiq olduğu cavabı verməyə çalışmışam. Artıq bu qədər həyasızlığa cavab verməyi özümə layiq bilmirəm. Əslində hürən itə qoşulmaq günahdır... Hürüb- hürüb susacaq... İmkan verin hürsün!***

**Əntiqə Aslan**

# Qazanmaq xatirinə məhsulunu məhv edənlər – Kasıbların qənimi

**Ötən ilin elə bu vaxtları idi. Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi (AQTA) istehlaka yararsız 62,1 ton süd məhsullarını məhv etdiyini elan elədi.**

Dedi ki, "Sun Food" MMC-nin istehlaka yararsız və istifadə müddəti bitmiş qida məhsullarının məhv edilməsi ilə bağlı Agentliyə müraciəti əsasında ümumi çəkisi 62.1 ton müxtəlif növ süd məhsulu EkoSum MMC-yə məxsus tullantıların zərərsizləşdirilməsi poliqonunda məhv edilib.

Həmin vaxt o da qeyd edildi ki, son 6 ayda "Sun Food" MMC-nin istehlaka yararsız və istifadə müddəti bitmiş qida məhsullarının məhv edilməsi ilə bağlı Agentliyə 3 dəfə müraciət edib. Bu ilin aprelində ümumi çəkisi 51,3 ton müxtəlif növ süd məhsulu, mayında isə ümumi çəkisi 33.6 ton müxtəlif növ süd məhsulu məhv edildi.

Ölkədə bu qədər işsiz, imkansız, kasıb təbəqə olduğu halda bu qədər məhsulun xarab edilərək məhv edilməsinə qarşı etiraz etmişdim. Etirazımı da bu sözlərlə ifadə etmişdim: Maraqlıdır. 62, 1 ton müxtəlif növ süd məhsulları vaxtında uyğun qiymətə bu xalqa satılsaydı faciə baş verərdimi? Qiymətin qalxmasını gözləməklə məhsulun istifadə müddətini ötürmək. indiki ərzaq qıtlığı, xüsusən kənd təsərrüfatı məhsullarına böyük tələbat olduğu bir dövrdə bu böyüklükdə itki lazım idimi?

Təbii ki, bu itki nə "Sun Food" MMC-nin rəhbərliyinə, bu itkidən təsirləcək işçilərə, nə də 62,1 ton süd məhsulundan əli çıxmış əhaliyə sərfəli deyil.

Bakının hər tərəfi duz yataqlarıdır. Belə bir təbii sərvətin içərisində oturub əhaliyə o duzu "od" qiymətinə sırıyan bir şirkət 62, 1 ton müxtəlif növ süd məhsullarını da xalqa daha yüksək qiymətə satmaq üçün gözlədiyi fürsəti "fötə" verib. Heyif, o 62, 1 ton müxtəlif növ süd məhsullarından, qiymətini qaldırmaq, çox qazanc götürmək düşünülməsəydi indi nə qədər insanın ehtiyacı ödənərdi".



Bu gün isə xəbərlərdən oxudum ki, Naxçıvanda 177480 ədəd yumurta məhsulunda uyğunsuzluqlar aşkarlanaraq məhv edilib.

Daha dəqiq, Naxçıvanda dövlət nəzarəti tədbirləri zamanı laborator müayinəyə cəlb olunmuş 16 iyul istehsal tarixli yumurta məhsulunda uyğunsuzluqlar aşkarlanıb. Bu zaman istifadəyə yararsız yumurta məhsulu topdançı subyekt tərəfindən geri çağırılıb. Geri çağırılan 493 qutu (177480 ədəd) yumurta məhsullarının Agentlik əməkdaşlarının iştirakı ilə məhv edilməsi prosesi həyata keçirilib.

Heyf bu məhsullardan! Onsuzda sahibkarlar itirdiklərinin əvəzini qiymətləri qaldırmaqla bizim canımızdan çıxaracaq Yazıq bu xalqa ki, mağazalarda qiyməti 20-25 qəpiyə qalxmış yumurtanı almağa imkanı olmayıb. Sahibkar yumurtanın qiymətinin qalxmasını, kasıb əhali isə ucuzlaşmasını gözləyib.

Yəni insanda vicdan bu qədər kasad ola bilər ki, heç olmasa, məhsulun vaxtının bitməsinə 3-4 gün qalmış, qiymətini aşağı salmasın? Axı evlər var ki, körpələr o evdə yarı ac, yarı tox yaşayır. 2-3 yumurta bəzən bir imkansız ailənin naharıdır

**Milyonlar qazanmaq eşqi, insanlığı öldürürmüş**

**Təəssüf...**

**Əntiqə Rəşid**

# Məhvə gedən dünyanın "Qan yatırdan ağsaqqal" problemi: NATO, Aİ, BMT, PAPA...

**Ağsaqqal-bir ailənin, elin, cəmiyyətin ən yaxşı və hörmətli adamı, başçısı deməkdir. Belə gördük, belə eşitdik.**

Dünyanın bəzi ağırçəkili təşkilatları və ağırçəkili siyasət, din, iqtisadiyyat, mədəniyyət adamları var ki, adama elə gəlir ki, onların sözü də özləri kimi ağırçəkili ola bilər və bəzi münaqişələri, problemləri yoluna qoya bilər. Başa düşməniz üçün xırdalayım: Deməli, dünyanın "ağsaqqalı" adına layiq görülmüş "qan yatırdan", "münaqişəni aradan qaldıran", "sülh toxumu əkən" zümrələri yuxarıda qeyd etdiyim fikri əhatə edir.

Məsələn, Xristian-katolik dünyasının lideri papa Fransisk din adamı olaraq belə bir titulu daşıyır. BMT Baş katibi Antonio Qutereş, Bill Qeyts, BMT , Avropa İttifaqı, NATO və sairləri dünya miqyasında "ağsaqqal" dır.

Amma papa Fransisk hamıdan çox ağsaqqal olmaq imkanındadır. Çünki xristian ölkələrin sayı başqa dində olan ölkələrin sayından , xristianların sayı da digər dindən olan insanların sayından artıqdır.

Həmin o xristianlar üçün də papa çox hörmətli, müqəddəs bir şəxsdir ki, kimsə onun sözündən çıxmağa cürət etməz.

Yəni, papa Fransiskin niyə "ağırçəkili" olduğunu anlada bildimmi?

Onda keçək əsas məsələyə!

Deməli, ötən il Avropada tüğyan edən "Quran " yandırma prosesi gücləndi. Həmin



vaxt papa Fransisk Stokholmda və bir sıra iri şəhərlərdə Quranın yandırılması ilə bağlı hadisəni yolverilməz olduğunu və bu kimi hərəkətlərdən hiddətləndiyini və iyrəndiyini bildirdi. Onun bu fikirlərini dinləyəndən sonra düşündük ki, Avropada "Quran" yandırma prosesi, İslamafobiya ortadan qalxacaq.

Elə papanın o açıqlamasından sonra nəinki Avropada, hətta Amerika qitəsinin bəzi şəhərlərində, Hindistanda proses daha da qızışdı.

Yadınıza gəlir , 2 il Roma Papası Fransisk onda da Ukrayna Silahlı Qüvvələrinin Donetski atəşə tutmasını qətiyyətlə pislədi və danışıqlara başlamağa çağırdı.

2022-ci ilin əvvəlin Rusiyanın Ukraynaya hücumuna, dinc sakinləri bombalamasına susan , Rusiyanın hərəkətlərini pisləməyən papa qəflətən bu ilin martında da Ukrayna və Rusiyanı, o cümlədən Yaxın Şərq münaqişəsinin tərəflərini danışıqlara çağırıb. Sanki ortada "işğalçı və işğal edilən" "tema"sı yox, iki döyüşən tərəf "tema"sı var. Nə biliək, bəlkə 88 yaşlı papa hələ bu faktı bilmir? Bilmir ki, Rusiya Ukraynaya havadan, sudan, torpaqdan hücum edib, onların kütləvi məhvinə qalxıb?

Ötən gün isə, hörmətli Papa Ukraynada Rus Pravoslav Kilsəsinə qarşı tətbiq edilən məhdudiyyətləri pisləyib. Rusiyanın Ukrayna torpaqlarında yaratdığı xarabazarlığı yox haa! Məhz Rus Pravoslav Kilsəsinə qarşı məhdudiyyətləri!

Ağsaqqal BMT 1993-cü ildə ağsaqqallıq edib 4 qətnamə qəbul etmişdi. Düz 27 il o 4 qətnamənin heç birinin bir bəndini həyata keçirə bilmədi. Yenə də var olsun ordumuz! Ədaləti bərqərar etdi.

Bunları yazmaqda məqsədin nədir?- deyə soruşsanız, cavab verərdim ki, planetimizin məhvə tərəf yüyürməsini görməyim. Dünyanın hansı ölkəsinə, hansı nöqtəsinə nəzər salırsan sal, müharibə, münaqişə, qarşıdurma, ölüm, qan, faciə və ilaxır...

**Anlamaq çətin deyil ki, obalarımızda, ellərimizdə "Ağsaqqal sözü" , Ağsaqqalın özü məna kəsb etmədyi kimi, dünyada da Ağsaqqallıq sözü bitib tükənib. Dünyadan qan izini siləcək ağsaqqallar, ağırçəkili siyasət, din, iqtisadiyyat, mədəniyyət adamlarının , təşkilatların sözü ədalətsiz olduqca, çəkisiz qalacaq, dünyadan axan qanlar da durmayacaq.**

**Əntiqə Rəşid**

*Əntiqə Rəşid*



## Ermənistan "qaşınır": Təcrübədən yararlanmamağın nəticəsi ağır olur

***Ermənilər növbəti dəfə qaşındığını sübut eləmək üçün bu gün saat 06:45 radələrində yenə təxribat törədiblər .***

***Beləki, Ermənistan silahlı qüvvələrinin bölmələri Dəvəli rayonunun Arazdəyən yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərindən Azərbaycan Ordusunun Naxçıvan Muxtar Respublikasının Sədərək rayonunun Heydərabad yaşayış məntəqəsi istiqamətindəki mövqelərini atıcı silahlardan atəşə tutub.***

***Hamımıza məlumdur ki, hazırda Ermənistana aid edilən bütün ərazi Azərbaycanın qayım-qədim torpaqlarıdır. Oğuz türklərinin məskəni olub.***

***1813-28-ci ildə Çar Rusiyasının mənfur siyasəti sayəsində ermənilər Qafqaza , həmin dədə-baba yurdlarımıza köçürülüb.***

***Rusiyanın türkçülüyə və türkə olan nifrətinin sayəsində hətta Ermənistan dövləti də torpaqlarımızda bərqərar olub. Odur ki, dədə -babalarımızdan qalan yer adları, toponimlər asta-asta dəyişdirilərək birbaşa ermənilərin, dolayısı ilə rusların təsiri ilə erməniləşdirilib.***

***Tarix üzrə fəlsəfə doktoru, dosent, AMEA Qafqazşünaslıq İnstitutunun Qafqaz siyasəti şöbəsinin müdiri Elnur Kəlbizadə demişkən, 1930-cu ildə Cəlaloğlu Stepanavana çevrilib.***

***"Sərdarabadı 1932-ci ildə Oktamberyana, 1992-ci ildə Armavirə çeviriblər:" 1935-ci ildə Axta Hrazdan, Dəvəli Ararat, Qarakilsə Kirovakan (1993-cü ildən isə Vanadzor) adlandırılıb.***

***Basarkeçər 1945-ci ildə Vardenis olub. 1948-ci ilə qədər Spitakın adı Hamamlı olub. 1950-ci ildə Alagöz saxta Araqats, Düzkənd isə saxta Axuryan adı ilə əvəzlənib. Yuxarı Qəmərli 1962-ci ildə Artaşat edilib. Bu siyahını uzatmaq da olar. Ermənilərin yer adlarını necə dəyişdirdikləri ilə bağlı sənədləri Ermənistan arxivlərindən də tapmaq olar".***

***Uzun sözün qısası, adını dəyişib Ararat qoyduqları yurdlarımızdan biri də Dəvəli rayonu olub. Dəvəli rayonunun Arazdəyən kəndinin də adını dəyişib Yerasx qoyublar. Bax, həmin o bizim yağmalanmış, erməniləşdirilmiş dədə -baba torpaqlarımızdan, bizim qanuni torpaqlarımıza atəş açıb təxribat salırlar. Gedişata baxarkən, düşünürəm ki, bir gün Azərbaycan ordusu buna da bir əncam çəkəcək! Nə vaxt bilmirəm, amma mütləq bir nəticə olacaq..***

***Yadınıza gələr, düz 30 il işğal edib, talan etdikləri Qarabağımıza "artsax respublikası " adı verərək , oradan bizi azmı atəşə tutdular?***

***Demək olar ki, 30 ilin elə bir günü olmadı ki, ermənilər işğal etdikləri ərazidən işğal edə bilmədikləri ərazilərə atəş açmasın, təxribat yaratmasın, dinc insaları öldürməsin, yaralamasın, təsərrüfatları, evləri, inzibati binaları dağıtmasın, xaraba qoymasın!***

***İlahi gediaştdan məlumdur ki, hər şeyin bir əvvəli , bir sonu olduğu kimi, hər insanında(dövlətin də) səbrinin bir əvvəli, bir sonu olur. Səbr kasası dolub-daşanda isə böyük bir tufan, qasırğa, fəlakət baş verir.***

***Artıq düşünməyə ehtiyac yoxdur. Fransa, ABŞ, Hindistan, İran və s. ölkələrin silahı ilə silahlanmış Ermənistan növbəti fəlakəti yaşamaq istəyir.***

***Yeri gəlmişkən, 44 günlük müharibədən əvvəl də adıgedən ölkələr Ermənistanı müasir silahlarla təmin etmişdi. Hətta Rusiya Ermənistana Hədəfi vurma maksimal məsafəsi: 500/280 km olan "İsgəndər-M" raketləri, "Smerç" reaktiv yaylım atəşi sistemləri və "Solntsepyok" TOS-1A ağır odsaçan sistemləri satdı, bundan başqa 400 ton silah da hədiyyə verdi.***

***Təcrübə dedi axı, daşmış səbrin qarşısını heç bir güclü silah ala bilməz!Nə tez unutdunuz?***

## Hicablı müəllimlər müsahibədən kənarlaşdırılır?

**Sosial şəbəkədə yayılan hicablı müəllimlərin işə qəbul müsabiqəsinin müsahibə mərhələsindən kəsilməsi ilə bağlı iddialar əsassızdır.**

Adalet.az xəbər verir ki, bunu Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinin (MÜTDA) Ümumi təhsilin təşkili şöbəsinin müdir müavini Nurlan İsmayılbəyli MİQ-lə bağlı keçirilən brifinqdə deyib.

Onun sözlərinə görə, ümumilikdə müsabiqə müddətində heç bir dini və ya cinsiyyət baxımından ayrı-seçkilik edilmir: "Bəzən də hər hansı komissiyanın fəaliyyətinin qərəzli olmasını deyirlər.

Halbuki 30 fərqli komissiya var və hər biri də təlimdən keçən şəxslərdir. Onların əsas işi müsabiqənin şəffaf keçirilməsini təmin etməkdir. Narazılıqlar həmişə var və olacaq. Əsas odur ki, heç vaxt ayrı-seçkilik halı olmur".



Əbülfət MƏDƏTOĞLU
madatoglua@mail.ru

# Avqust havasına özəl qiymət...

**Günü-güzəranı, hava durumunu, üstəlik də quru sərhədlərimizi bərk bağlayan bu COVİD-19 bəlasını düşünəndə adam heç bilgisayara yaxın getmək istəmir.Elə istəyirsən ki, düşündüklərini ürəyində özün üçün təkrarlayasan, ya da gözünü zilləyib tavana, otaqdakı temperaturu azacıq mülayimləşdirən ventilyatora baxa-baxa özün eşidə biləcəyin səslə mövzunu pıçıldayasan - bir divarlar eşitsin, bir də ürəyindəkilər. Bilmirəm, bu nə qədər inandırıcıdı. Amma inanın ki, istinin əlindən( qoruyucu maskada ki, lap əldən salır!!)adam elə tıncıxır ki, məhz divarla, əsən küləklə, lap elə ventilyatorla danışıb havanın qaralmağını, günün dağın arxasını aşmasını bir təhər qarşılasın...Təəssüf ki, Bakıda elə diqqət çəkən dağ yoxdu. Amma bunun əvəzinə dənizə boylanırıq. Günəş də elə dənizdən çıxıbyenə dənizə qayıdır. Deməli, adama elə gəlir ki, bütün yollar bir də başlanğıc nöqtəyə qayıdır. Doğrudur, zaman-zaman deyiblər ki, tarix təkrar olunur. Bu və ya digər formada yanaşanda elə yolun başlanğıc nöqtəsinə sondan bir də baxanda bu təkrarı hiss etmək olur. Bax, Bakının bu cırhacırında da nə düşündüyümü, nə yazdığımı az qala unudaraq sözləri də tapmağa çətinlik çəkirəm. Çünki Bakının yayı təkcə günəşin yandırması ilə deyil, həm də Bakının asfalt küçələrinin od püskürməsi ilə həmin o cırhacırı adamın bütün əhval-ruhiyyəsini alt-üst edir. Lap obrazlı desəm, göydən də od tökülür, yerdən də od qalxır. Belə məqamda bəzilərinin klima, bəzilərinin kondisioner kimi təqdim etdiyi cihazın da sözü boğazında qalır, hayımıza çata bilmir. Amma soyuq su satanların işi başdan aşıb. Necə deyərlər, suyu soyutmağa macal tapmırlar. Nə isə...**

**Bax, belə bir məqamda öz-özümə fikirləşirəm ki, günün bu günündə, bu saatında, bu anında mənim doğulduğum kənddə, beş barmağım kimi tanıdığım bulaqların başında əyləşsəm nə bu isti yadıma düşər, nə də bu istinin əli gedib oralara çata bilər. Çünki o yerləri, o bulaqları dağlar da, meşələr də, elə Allahın özü də böyük lütflə qoruyur. Ona görə də soyuq bulaqların bumbuz suyu dodaq göynədir və o göynərti adamın təkcə canından deyil, yadından da istini bütünlüklə çıxarır.**

**Əslinə baxanda isti, ılıq anlayışları həm gərəklidi, həm də müəyyən bir zərurətdi. Çünki adamın evi, ocağı isti olanda, ətrafında ılıq münasibət olanda və o bu istiliyin, bu ılıqlığın içərisində yaşayanda həyat da mənalı olur, onun həyatı da. Çünki onu anladıqları kimi o da anlayır, onu duyduqları kimi o da duyur. Və sonda ortaya mükəmməl bir insan həyatı qoyulur. Elə bir həyat ki, onun hər anında yaşamın, sevginin cizgiləri, eləcə də zamanın ştrixləri özünü göstərir. Bunu yaşayan da əlini ürəyinin üstünə qoyub rahatlıqla arxada qalan günlərin təkcə təəssüfünü yox, həm də təəssüratını yaşayır. Deməli, böyük Səməd Vurğunun dediyi kimi, "çörək bol olarsa, basılmaz vətən" çağırışını müasirləşdirsək, zamana uyğunlaşdırsaq, lap elə bu yazının yazıldığı anın notlarına köklənsək, onda deyə bilərik ki, "istilik bol olarsa dözümümüz də artar. Axı biz dözümlü xalqın nümayəndəsiyik!"**

**Söhbət dözümdən düşərkən qoy imkandan istifadə edib bir az özümü tərifləyim. Zarafat deyil, həm bu istiyə dözürəm, həm bu istinin yaratdığı problemlərə. Üstəlik bu istidə həm yazı yazıram, həm yazı oxuyuram, həm də ən vacibi iç dünyamdakı səni sevirəm. Deməli, mənim dözümüm digərlərinin dözümündən ən azı 20dəfəçoxdu. İndi özün hesabla dözümümün həcmini. Sən onu hesablayana kimi mən sənə bir şeir deyim:**

***Səndə sevgi oyananda***
***Məni torpaq isidəcək...***
***Gözlərinin oxşadığı -***
***Quru yarpaq isidəcək!..***

***Nə çəkirəm Allah bilir***
***Kipriyimi külək silir...***
***Daş da səndən tez isinir -***
***Düşsə qor, bax isinəcək...***

***Bir insaf et, düşün məni***
***Bil, mən varam - düşünməli!..***
***Toparlasan düşüncəni -***
***Soyuq gorgah isinəcək!..***

**Bu isti havada adam bəzən telefona da cavab verməyə ərinir. Ən dəhşətlisi iş və ev telefonlarıdı. Çünki orada nömrə görünmədiyindən zəngin kimdən gəldiyini təxmin edə bilmirsən və məcbur olub dəstəyi qaldırırsang Və bütün problem də elə bundan sonra başlayır...**

**Hansısa bir uzaq qohum, tanış, lap elə qapı qonşu telefonun o biri ucunda əsnəyə-əsnəyə havalardan başlayıb dənizdən keçib bütün şəhəri, bütün ölkəni dolaşandan sonra axırda soruşur ki, müəllim, sən bilərsən, bu istilər nə qədər davam edəcək?**

**Bax belə bir məqamda dişini dişinə sıxıb dinlədiyin bu adama deməyə söz tapmırsan. Hətta əsəbi bir şəkildə hərdən zarafat da etmək istəyirsən. Məsələn belə:**

**- Bağışla qonşu, Allahın telefon nömrəsini itirmişəm. Öyrənən kimi soruşub sizə məlumat verərəm.**

**Bəli, bu mənim demək olar ki, hər gün eşitdiyim sualın qarşılığında tək-tək adamlara verdiyim cavabdı. O cavabı o adamlara deyirəm ki, onların müəyyən mənada anlayışları var. Amma neyləyəsən ki, həmin anlayışlı adamlar da bir az keçəndən sonra yenə həmin o mövzuya qayıdırlar. Bax onda mən tam şəkildə əmin oluram ki, Bakının, yəni Bakının yayının istisi bizi altdan-üstdən qaynadır. Elə "qaynadığımıza" görə də yaddaşımız əriyir. Eyni sualı, eyni sözü təkrar edirik. Özü də necə gəldi. Yenə nə isə...**

**Hə, günəşin bütün gücü ilə od səpdiyi bir məqamda şəhərin bir ucundan o biri ucuna gedirəm. İnsafən bu yollarda maşınların sayı o qədər də çox deyil. Amma tək-tək maşınların ya bütün şüşələri qaldırılıb, içəridə klima işləyir, ya da bütün şüşələr endirilibvə maqnitofon bütün gücü ilə bağırır. Bax, mənə elə gəlir ki, həmin o maqnitofonu "bağırdan" bu üsulla maşının içərisindəki istini qovur, özünü sərinlədir. Əks halda, adam gərək kar ola ki, o səsi, o bağırtını eşitməyə. Bu da şəhərimizin bir özəlliyidi. Əgər nə vaxtsa, kimsə şəhərimizin yay özəlliklərindən yazmaq istəsə, bundan da istifadə edə bilər. Tam səmimiyyətlə hər kəsə bu fikri istifadə etmək haqqını bağışlayıram...**

**Deməli, şəhərdə yaşadığım Masazır ərazisində hərdən elə bürkü olur ki, necə deyərlər, yarpaq da tərpənmir. Onda məcbur olub kənd məzarlığına üz tuturam... Çünki burada sükut və hava axını var... Üstəlik şair Məmməd Aslan da burada uyuyur...Onunla anlaşmaq mənə bir rahatlıq gətirir...Xəyalım qanadlanır...Dərələrdən...təpələrdən sel kimi...yel kimi... ruh kimi keçib gedirəm -üzü Qarabağa! Yönü Tuğa doğru... Bu əslində getmək yox, qaçmaqdı, uçmaqdı! Kaş ki gerçək olaydı... kaş ki!!!**

**Bəli, yəqin ki, nə demək istədiyimi və ümumiyyətlə hansı mənzərəni bu yazıda ortaya qoyduğumu təxmin etdiniz.Etməyənlər də, edə bilənlərdən soruşa bilərlər. Amma şəxsən mən ən azı bu yazının diktəsinin dinləyicisi olanlarınnəyi təxmin etdiyini heçdə anlamadım. Bilmədim ki,buyazıya müdaxilə etməklə nə demək istəyirlər. Hər halda onlarda səlahiyyət sahibidi. Düşündüklərini, ürəklərindən keçəni deyə bilərlər. Elə mən də düşündüyümü bu cırhacırda həsrəti ürəyimi göynədən kəndim, onun uşaqları barəsində yazdığım misraları dilə gətirirəm. Axı indi o yerlər cənnətdi.**

***Bu kənd uşaqları yaman dəcəldi***
***Ağaca dırmaşır, daşa dırmaşırg***
***Yapışıb qartalın caynaqlarından -***
***Zirvədə səs yetməz qaşa dırmaşır...***

***Gah qoyun otarır, quzu səsləyir***
***Dərəni düz keçir, düzü səsləyir...***
***Dünənə boylanıb bizi səsləyir -***
***Yanında xatirə - qoşa dırmaşır...***

***Şəlalə altında yuyunub çıxır***
***Ən hündür budağa yüyürüb çıxır...***
***Böyük qarşısına buyurub - çıxır!***
***Gizlənmir, nə də ki, başa dırmaşır...***

***Əbülfət gördüyün, bildiyin yazır***
***İllərin yadından sildiyin yazır***
***Haradan haraya gəldiyin yazır -***
***Hərə də seçdiyi tuşa dırmaşır!..***

**Bütün yazı boyu təbiətlə necə deyərlər, vuruşduq, əlbəyaxa olduq. Günəş gücünü göstərdikcə artıq qan-tərə batdığımı özümdən başqa hamı da gördü. Hətta kiminsə özümə zülm etdiyimi düşünüb mənə çox rəhm dolu bir nəzərlərlə baxdığını, hətta o baxışlarla "özünə yazığın gəlsin!" dediyini anladım. Amma yenə səmimiyyətlə etiraf edim ki, vallah-billah Bakının bu istisində rəhm də heç bir işə yaramır. Ən yaxşı rəhm sərin bir yer tapmaq, cibə beşüç manat qoyub Bakını tərk etməkdi. Təəssüf ki, bu da xəyaldı, arzudu. Düşünürəm ki, daş üstündə ot bitirən Tanrı nə vaxtsa bizim qəbildən olanların da istəyini çin edər. Yəni biz də yol çantamızı atarıq çiynimizə və deyərik - Getdik eee!!!!**

**Hə, amma hələki getməmişəm. Hələki Bakıdayam...**

**Hə, isti öz işini gördü. Biz də, yəni mən və bilgisayar yazarımız Gülər xanım düşündüklərimizi birtəhər sizə çatdırdıq. Xoşunuza gəlsə paylaşarsınız.**

**Millət vəkili Zahid Orucun bir məqaləsi məni "Əhməd Kadırov" mövzusuna müraciət etməyi məcbur etdi.**

Müəllif məqaləsində yazır ki, 13-cü əsrin sonlarında İngiltərə kralı 1-ci Eduard Şotlandiyaya qoşun yeridəndə müstəqillik davasına qalxmış xalqın önündə gedən liderləri ələ almağı onları silah gücünə ram etməkdən üstün tuturdu:" Çünki atası 3-cü Karlın ölümündən sonra taxt-taca yiyələnən hökmdar Yerusəlimdən Parisədək geniş bir məkanda hərbi savaşlarda iştirak edərkən müharibənin güzəştlər, taktika və müqavilələr sənəti olduğunu yaxşı əxz etmişdi.

Ona görə də Şotlandiya krallığı uğrunda mübarizədə bir-biri ilə didişən müxtəlif tayfalar arasında mübahisəni həll etmək adı ilə oraya gələndə üsyan qaldıran və illərlə İngiltərə qoşunlarına qan udduran Uilyam Uollesi məhz öz silahdaşlarının xəyanəti ilə ələ keçirməyə nail oldu.Rusiya Çeçenistan asiliyini fərqli bir yolla cilovlamağı bacarmışdı".

Z. Orucun fikirlərində sonuncu cümlələr:" Yeltsinin qətlə yetirdiyi Dudayev, Mashadov və yüzlərlə azadlıq mücahidindən sonra Putin məscid minbərindən düşürüb hakimiyyət kürsüsünə gətirdiyi Əhməd Kadırovla Qafqazdakı itaətsizlik hərəkatını boğmağı bacarmışdı". Başladım, internet üzərindən Çeçenistanın rəhbəri olmuş Əhməd Kadırovun kimliyini araşdırmağa...

# Onu dost öldürdü, yoxsa düşmən?

## Əhməd Kadırovun müəmmalı taleyi



Söhbətin kökünə isə oğul Ramzan Kadırovun qalmaqallı müsahibəsi ilə başlayaq. Deməli, 2019-cu ildə Çeçenistanın rəhbəri Ramzan Kadırov XIX əsrdə Qafqazdakı dağ xalqlarının lideri olmuş Şeyx Şamili əvvəl Rusiyaya qarşı vuruşub, sonra ruslar tərəfə keçməkdə ittiham edib. Mənbələr bildirir ki, Kadırovun sözlərinə jurnalistlər, ictimai xadimlər və din adamları etiraz olaraq Mahaçqalada 100 nəfərin iştirak etdiyi aksiya keçirib.

Həmin vaxt çeçen bloqçu Tumso Abdurəhmanov Ramzanın atası Əhməd Kadırovla Şeyx Şamili müqayisə edib.

Abdurəhmanov deyib ki, Ramzanın sözləri onu təəccübləndirir, axı onun atası da təxminən eyni şeyi edib: "Niyə təxminən deyirəm? Çünki təslim olan Şeyx Şamildən fərqli olaraq sənin atan könüllü olaraq Rusiya tərəfə keçib".

2 il əvvəl Ukrayna Milli Təhlükəsizlik və Müdafiə Şurasının katibi Oleksiy Danilov "Ukrainska pravda"ya müsahibəsində deyib ki, Putin Kadırovdan qorxur: "Çünki Kadırovun atasını öldürmək əmrini o verib".

Bu gün ata Kadırovun doğum günüdür. Əhməd Abdulhəmidoviç Kadırov 1951-ci ilin avqustun 23-də ailəsinin sürgün edildiyi Qazaxıstanın Karaqanda şəhərində doğulub. Kadırovlar ailəsi 1957-ci ilin aprel ayında Çeçenistan-İnquşetiyaya geri dönüb.

Çeçenistanın gələcək prezidenti 1971-ci ildə işləmək üçün Sibirə gedir. 1976-cı il oktyabrın 5-də onun övladı Ramzan doğulub. Əhməd Kadırov 2003-cü ilin 5 oktyabrından 2004-cü ilin mayın 9-a kimi Çeçenistan Respublikasının prezidenti olub.

Daha əvvəl isə bir neçə il Çeçenistanın müftisi olub. İkinci Çeçenistan müharibəsindən sonra isə Federal hökumətin tərəfinə keçib. Qazaxıstanın Qaraqanda şəhərində doğulan Kadırov Daşkənd İslam Universitetini və Mahaçqala Biznesin İdarə Edilməsi İnstitunu bitirib. Siyasi elmlər namizədi olub.

2003-cü ilin 5 oktyabrında prezident seçilib və 2004-cü ildə o, üsyançıların törətdiyi terror hadisəsində öldürülüb.

Mənbələrdə o da qeyd edilir ki, bomba idman obyektinin yenidən qurulması zamanı platformanın içinə yerləşdirilmişdi. Əhməd Kadırovun öldürülməsinin məsuliyyətini səhra komandanı Şamil Basayev öz üzərinə götürdü. Terrorçunun sözlərinə görə, Kadırovun ölümü üçün ona 50 min dollar ödənilibmiş.

Ata Kadırov ölümündən sonra "Çeçenistan Respublikasının inkişafı və terrorizmlə mübarizədə göstərdiyi cəsarət və qəhrəmanlığa görə" Rusiya Qəhrəmanı adına layiq görüldü.

Buna baxmayaraq Avropa və Ukrayna mediası yazırdı ki, ata Kadırovun ölümünü Rusiya dövlət xidməti orqanları həyata keçirib. Çünki siyasi və hərbi arenada təcrübəli, öz ölkəsində müəyyən qədər nüfuzlu, Rusiyanın bəzi tələbləri ilə müəyyən qədər razılaşmayan bir liderdənsə, Rusiyaya Ramzan Kadırov kimi dərin elmi, savadı, təcrübəsi olmayan, vəzifə, mənsəb, şöhrətpərəst bir gənclə işləmək daha sərfəli idi.

Maraqlıdır ki, bu terror hadisəsindən həmən sonra oğul Kadırov 2004-cü ildə İkinci Rus - Çeçen müharibəsində rusların yanında olduğu üçün "Rusiya Federasiyasının Qəhrəmanı" fəxri adına layiq görüldü. 2007-ci ildə Çeçenistan rəhbəri postuna gətirilən Ramzan Kadırov bu günə qədər öz vəzifəsindədir.

Son olaraq: 20 avqustda Rusiya Prezidenti Vladimir Putin Çeçenistanın birinci prezidenti, Rusiya Qəhrəmanı Əhməd-Hacı Kadırovun məzarını ziyarət edib.

***P.S. Rusiya imperiyasına xidmət göstərən hər kim olursa olsun, 100 illər keçsə də, o Rusiya tərəfindən hər zaman xatırlanır, mükafatlanır, təltif edilir, xəyanət etdiyi xalqın yaddaşına "qəhrəman" kimi qazılır.***

**Əntiqə Rəşid**

## Netanyahu oğlunun təhlükəsizliyinin gücləndirilməsini istəyib?

**"İsrailin Baş naziri Benyamin Netanyahu bu yaxınlarda hökumət başçısının təhlükəsizliyi məsələlərini nəzərdən keçirən konsultativ komissiyaya müraciət edib. O, müraciətində oğlu Yair Netanyahunun mühafizəsini gücləndirməyi istəyib".**

Adalet.az xəbər verir ki, bu barədə məlumatı "The Times of Israel" portalı yayıb.

Bildirilib ki, bu, onun "İranın hədəfinə" çevrilə biləcəyi ehtiyatları ilə əlaqəlidir.

Mənbələrin məlumatına görə, sözügedən komissiya Yair Netanyahunun mühafizəsinin gücləndirilməsini əsaslandıran kəşfiyyat materialları təqdim etməyi tələb edib.

Daha sonradan Netanyahunun ofisi müraciətlə bağlı mediada yayılan məlumatı təkzib edib.

Qeyd edək ki, 33 yaşlı Yair Netanyahu 2023-cü ilin aprelindən Mayamidə yaşayır. Onun mühafizəsi ilə İsrailin ümumi təhlükəsizlik xidmətinin 2 əməkdaşı məşğul olur.

Onu da xatırladaq ki, avqustun 20-də Y.Netanyahunun Mayamidə yaşadığı elit yaşayış kompleksində partlayıcı qurğuya bənzər əşyanın tapıldığı barədə məlumat yayılmışdı. Bildirilib ki, həmin gün bina sakinləri öz mənzillərini tərk etməmələri və pəncərəyə yaxın durmamaları ilə bağlı kompleksin administrasiyasından və polisdən bildiriş alıblar. Üç saatdan sonra isə onlara sözügedən əşyanın yoxlanıldığı və onun bomba olmadığı barədə məlumat verilib. İnsident zamanı Netanyahunun oğlu binada olmayıb.

## Harris Trampı qabaqlayır..?

**Milli Demokratik partiyasının qurultayından sonra, siyasi kommunikasiyalar və ictimai fikri araşdırmalar labaratoriyasının keçirdiyi sorğuların nəticələrinə görə, partiyanın namizədi Kamala Harris, Respublikaçılar partiyasından prezidentliyə namizəd Donald Trampı bir neçə bənd üstələyir.**

Newsweek mətbu orqanının verdiyi məlumata görə, Harris Donald Tramdan dörd bənd irəlidədir. 23-24 avqusta keçirilən sorğuların nəticələrinə görə, sorğuda iştirak edənlərun 47 faizi Harrisi, 43 faizi isə Trampı prezident görmək istədiklərini bildiriblər.

PolCom Lab-ın da keçirdiyi sorğuya görə, seçicilərin 49 faizi Harrisi, 45 faizi isə Trampı dəstəkləyiblər.

**The Wall Street Journal qəzetinin keçirdiyi sorğuların nəticələrunə görə isə, Tramp Harrisdən çox dəstək qazanıb. Qəzetin məlumatına görə, eks prezident rəqibini 2 faiz qabaqlayır.**

**Rüstəm Hacıyev**

# HƏSƏN müəllim, YUBİLEYin MÜBARƏK!!!

**Müəllim. Orta və ali məktəbi bitirdikdən sonra elə bilirdim ki, bu söz mənimçün tarixə döndü. Bundan sonra kimə müəllim desəm də bu yalnız hörmət əlaməti və ya müraciət forması ola bilər. Amma bilmirdim ki, həyat məktəbi Təhsil Nazirliyinin tərkibində olan bütün məktəblərdən alidir, həm də ki, əbədi. İmtahandan üzüağ çıxmaq isə çətin. Çünki bu məktəbin nə kitabı var, nə də dəftəri. Amma inandırım sizi ki, müəllimlərin yaxşı olsa çətin heç nə yoxdur. Mənim də həyat məktəbimdə az da olsa belə müəllimlərim olub. Onlardan biri də Həsən müəllimdir. Keçmiş müdirim, sadiq dost-yoldaş, heç vaxt köməyini, məsləhətini əsirgəmiyən, bir sözümü iki etməyən Həsən Zal oğlu Həsənov.**

### İlk tanışlıq

"Xəbərlər"də işləmək çoxdankı arzum idi. Ona görə də atamı dəng eləmişdim ki, AzTV-nin sədri Nizami Xudiyevə xahiş eləsin, o da məni Proqram direktorluğundan bu redaksiyaya keçirsin. Heydər Əliyev kimi bir prezidentin hakimiyyətdə olduğu və ictimai-siyasi hadisələrin çevik cərəyan etdiyi bir dövrdə "Xəbərlər" aparıcı mövqeyə malik idi. Nəsə, atam Nizami müəllimə xahiş edir ki, Mahiri keçirt "Xəbərlər"ə. O da "baş üstə" deyir. Növbəti növbətçiliyin sonunda, gecə saat 12-də dəhlizdə Nizami müəllimlə üz-üzə gəldik:

- A bala, nə istəyirsən? Dədanı niyə qızışdırıb salmısan üstümə? Get qəbul otağına gəlirəm. Görüm nə istəyirsən...

Yanında dörd nəfər vardı. Qayıdıb qəbul otağına girəndə onu Baş proqram direktoru Məmmədəli Zülfüqarov, bir də ortaboylu, qarasaçlı, səliqəylə geyinmiş bir nəfər müşayiət edirdi.

- Bala, nə istəyirsən? Bax istəyirsən bu Həsəni çıxarım, səni qoyum onun yerinə. İstəyirsən? İstəyirsənsə Məmmədəlini çıxarım, ol baş proqram direktoru. Bacaracaqsan?

- Nizami müəllim, Mahir "Xəbərlər"ə redaktor keçmək istəyir, - deyə Məmmədəli müəllim Nizami müəllimin şirin Naxçıvan ləhcəsində mənimlə məzələnməsinə son qoymağa cəhd etdi.

- Yaxşı. Mahir, mikrafon tuta bilirsən?

- Yox.

Mən pərt olmuşdum. "Xəbərlər" həvəsim də ölmüşdü. Ona görə də "yox", "yox" deyib bir dəfəlik AzTV-dən uzaqlaşmaq istəyirdim.

- Yazı yaza bilirsən?

- Yox.

- Uşaq bağçası-zaddır səninçün "Xəbərlər"? Ora hazırlıqlı adam lazımdır.

Nizami müəllim nə soruşurdusa "yox" deməyə başladım. Çox arif adam idi sədrimiz. Gördü ki, pərt olmuşam. Ona görə belə deyirəm. Burdan çıxandan sonra üz tutacağım, gileylənəcəyim ünvanı da yaxşı bilirdi. Amma atamı çox istədiyindən məcbur olub.

- Yaxşı, gəl içəri. Məmmədəli, Həsən, siz də gəlin.

Kabinetə girdik.

- Həsən, bu uşağı verərsən o qızın yerinə. Nə idi adı onun?

- Gözəl Nəcəfova.

- Hə, Gözəlin yerinə. Məmmədəli, buraxılış redaktoru yerini də boş saxla. Qoy adı orda getsin. Bir ay vaxt verirəm. Bacarsa, Həsən, raportunu yazıb gətirərsən. Keçirərik ştata. Bacarmasa...

Çox sevinirdim. İstədiyimə nail olmuşdum. Ən əsası isə həvəsim böyük idi. Nizami müəllimin kabinetindən Həsən müəllimlə çıxdıq. "Sabah səhər gələrsən ikinci mərtəbəyə. Otağını göstərərəm" dedi. Həsən Zal oğlu Həsənovla ilk tanışlığım belə oldu. Jurnalistika sahəsində ilk müəllimim də elə Həsən müəllim oldu.

### Sınaq müddəti

Bu bir ayda nə tapşırıq verdilərsə elədim. Yazı metodlarını, iş qaydasını öyrəndim. Demə "Xəbərlər"də ən zəhlətökən iş axşam çəkilişləriymiş. Heç kim həvəs göstərmirdi bu cür mədəniyyət tədbirlərinə. Mən isə canla-başla gedirdim. Öyrənirdim. Özüm də bilmədən demə məni digərlərindən fərqləndirən bir cəhət də varmış. Mənim leksikonumda digər həmkarlarımdan fərqli olaraq "Niyə axı mən? Ora niyə mən getməliyəm? Dünən mən getdim də, bu gün qoy başqası getsin" sözləri yox imiş. Həsən müəllim də işçidə çalışqanlığı, tapşırığı vaxtında yerinə yetirməyi yüksək qiymətləndirirmiş. Xeyrini də gördüm. Bir aydan sonra Həsən müəllimin yazdığı raport Nizami müəllimin qabağındaydı. O gündən indiyəcən Həsən müəllimi daha da yaxından tanımağa başladım.

### "Torpaq yetişdirir"

Sovet vaxtı rektorlar qəbul imtahanı keçirilən auditoriyaları gəzirmişlər. 1972-ci ildə S.M.Kirov adına Azərbaycan Dövlət Universitetinin rektoru Faiq Bağırzadə gələcək tarixçilərin imtahanına girir. "Kim bileti çəkib, həmən cavab verə bilər?" sualını verəndə, arxa partada əyləşən bir oğlan əlini qaldırır. İnamla bileti çəkir və cavab verməyə başlayır. Əlavə sualları da cavablandırır. "Əla!", "5", - deyə Faiq Bağırzadə əlini yüksək bilik nümayiş etdirən oğlanın çiyninə vurur.

- Bala, adın nədir?

- Həsən.

- Məktəbi harda bitirmisən?

- Göycə mahalında.

- Lap yaxşı, - üzünü komissiya üzvlərinə çevirərək, - Görürsünüz də... torpaq yetişdirir.

Çox sakit və bilikli adamdır Həsən müəllim. Ensiklopedik biliyə malik insanlar indi cəmiyyətimizdə çox azdır. Uzun müddət Azərbaycan Sovet Ensiklopediyasında çalışıb. Sonra "Vətən səsi", "Amal" qəzetlərində əməkdaş, "Yeni Azərbaycan" və "Respublika"qəzetlərində baş redaktorun 1-ci müavini, AzTV-də "Xəbərlər"in baş redaktoru, AzTV sədrinin televiziya üzrə müavini və ən nəhayət son iş yeri "Xalq Qəzeti"nin baş redaktoru. Qısa tərcümeyihalı bundan ibarətdir Həsən müəllimin. Amma mən onun həyat yoluna sizə məlum olmayan spektrlərdən nəzər salmağa çalışacağam.



### Sizə yarım saat vaxt verirəm

Yuxarıda qeyd etdiyim kimi, çox mülayim və sakit adamdır Həsən müəllim. "Xəbərlər"də işləyəndə bircə dəfə səsini ucaltdığını gördüm

Hardasa prezident çəkilişi olur. Materialı da təcili efirə çatdırmaq lazım imiş. Tədbirin əvvəlindən çəkilmiş kasseti tez verirlər sürücü Əbdülə. O da tez çatsın deyə tıxacdan sıyrılıb maşını Prezident Aparatının qabağından kəsə sürür və DYP onu saxlayır. Nə and-aman edirsə ki, bəs efir "yanır", kasseti çatdırmalıyam" - polislər qulaqardına vururlar. Onda Əbdül sənədləri də onlarda qoyub, sürür gəlir işə. Həsən müəllim gecikdiyinə görə onu tənbeh edəndə, başına gələn hal-qaziyyəni danışır. Mən də növbətçiydim. Həsən müəllim bunu eşitmədi Dəstəyi götürdü, harasa zəng elədi. "Danışan "Xəbərlər"in baş redaktoru Həsən Həsənovdur. Sizə 15 dəqiqə vaxt verirəm. Xidməti maşınımın sənədləri stolumun üstündə olmasa..." deyib dəstəyi yerinə çırpdı. On beş dəqiqə keçməmiş DYP serjantı tər-qan içində redaksiyaya girdi. Əlində də sənədlər.

İlk və axırıncı dəfə Həsən müəllimi onda əsəbiləşib səsini qaldıran gördüm.

...Mən də qorxdum...

20.00 "Xəbərlər"inə az qalmış Prezident Aparatından sədrin qəbul otağındakı faksa sərəncam, fərmanlar gəlməyə başlayırdı. Hamısını da efir variantına uyğunlaşdırıb diktora ötürürdük. Necə deyərlər dəhlizdə qaçhaqaç düşürdü. Belə növbətçiliklərin birində:

Həsən müəllim studiyanın qapısında dayanmışdı. Mən də sərəncamın olduğu faks əlimdə dəhlizin giriş qapısını açdım.

- Mahir, cəld ol! - deyə Həsən müəllim dilləndi.

Bir addım irəli atmaq istəmişdim ki, səs gəldi. Yoluma davam etmək istədim. Amma sanki nəsə məni tutub saxlayırdı. Həsən müəllim də demə bunu görürmüş. Tez qabağıma gəlib kağızı əlimdən alıb studiyaya getdi.

Demə qapıdan keçəndə pencəyin aşağı iç cibi dəstəyə ilişib. Addımımı atanda da dartılıb astarı cırıb. Həsən müəllim studiyadan çıxıb gördü ki, kostyumun astarının cırılmasından dilxoram. Fikrimi dağıtmaq üçün gülə-gülə:

- Kostyumun cırılıbmış? Mən də qorxdum. Elə bildim ki, faks cırıldı.

### Redaktə xüsusi istedaddır

Baş redaktorumuz Həsən Həsənov və müavini Mülatif Adurovun gözəl redaktə qabiliyyətləri vardı. Balaca bir səhv gözlərindən qaçmazdı.

Həsən müəllim düzəlişləri qırmızı rəngli qələmlə edirdi. İlk vaxtlarda yazılarım "qanına qəltan olurdu". Amma səhvlərimi izah da edirdi, öyrədirdi. Bu gün də yazı-pozumda hər hansı bir yanlışlıq hiss edəndə, amma səhvimi tuta bilməyəndə Həsən müəllimin üstünə qaçıram.

"Qabilin o dünyadan məktubu" adlı ilk publisistik yazıma vəsiqə verən, "qələmin var, amma tənbəlsən" deyib tənbeh eləyən də məhz Həsən müəllimdir. Onun mənə "Müasir Azərbaycan ədəbiyyatının canlı ensiklopediyası"san deyərək həvəsləndirməsi sonda bu mövzuda nə qədər yazının, xatirənin meydana gəlməsinə səbəb oldu. Məhz belə yazılardan ibarət ilk toplunun "Atam Qabilin qəribə əhvalatları" kitabımın da redaktorluğunu Həsən müəllim öz üzərinə götürdü. Əlbəttə ki, dostumuz, mərhum İbrahim Ömərovun gözəl tərtibatını da yaddan çıxarmaq olmaz.

Qış vaxtı idi. Axşam saat altıda ilk qar yağmağa başladı. Mən, Gülsəfa Əhmədova, Bahadır Şəfi və Əli Nəcəfxanlı növbətçiydik. Təbiətin bu gözəlliyini vəsf etmək, ara dilində desək inşa yazmaq həm də gənc şair olan Əli müəllimə tapşırıldı. O da yazdı. İlk cümlə beləydi - "Bakıya noğul-noğul qar yağır". Birdən Həsən müəllim otağından səsləndi:.

- Əli, yazı hazırdır?

- Bəli, Həsən müəllim.

- Tez gətir bura.

Mən otaqdaydım. Həsən müəllim də daxili telefonla sədrlə danışırdı. Əliylə Bahadır içəri girib kağızı Həsən müəllimə verdilər:

- Yazı hazırdır, Nizami müəllim. Operator da kadrları çəkib gəlir. Oxuyum?

Həsən müəllim kağızı əlinə alıb oxumağa, elə birinci cümlədən bədahətən redaktə başladı. "Bakıya..." Həsən müəllim ani fasilə verdi, "noğul-noğul" sözünü çıxartdı. "İlk" sözünü artırıb davam elədi. "Bakıya ilk qar yağır". Beləcə bir səhifəlik yazını gözəyarı redaktə eləyərək oxudu. Əli:

- Bax, Mahir, buna deyərlər "naxadu" redaktə.

### Şair Qabil və Həsən müəllim

Atamla Həsən müəllim arasında qarşılıqlı hörmət vardı. Avtoqraf şəklində olsa da Həsən müəllimə şeir də ithaf eləmişdi.

***Canım-gözüm Həsən!***
***Mahirə bir şey olsa,***
***Bəs sən orda nəsən?***

Amma bu tanışlıq azadlıq hərəkatının ilk illərinə gedib çıxırdı. O dövrdə ictimai hadisələrlə bağlı beynəlxalq təşkilatlara müəyyən müraciətlər olunurdu. Bəxtiyar, Qabil, Xəlil Rza, Ziya Bünyadov, İsmayıl Şıxlı kimi ziyalılar bu müraciətləri imzalayanlar içərisində ilk olurdular. Təşkilatlanma işlərində o dövrün qabaqcıl, əsas hərəkətverici qüvvələri olan gənc ziyalılarının da rolu danılmaz idi.

Onlardan biri olan Həsən Həsənov hazırladığı müraciəti götürüb gəlir yaşadığımız Yazıçılar evinin həyətinə. İmzalatdırmaq üçün. Yuxarı - Qabilin mənzilinə qalxmağa heç ehtiyac da qalmır. Əsəbi halda harasa gedən atamla elə həyətdə rastlaşır. Gəlişinin məqsədini deyəndə atam heç müraciəti oxumadan, məğzini bilmədən "yox, qol çəkmirəm" deyir. Daha doğrusu bu sözlə hirsini tökür Həsən müəllimin üstünə. O da "Qabil müəllim, imza atmasanız da, siz Ayaz Mütəllibova ünvanladığınız 24 sualla hər şeyi demisiniz" söyləyir. Bu, atamın xoşuna gəlir, geri qayıdır.

- Xoşum gəldi səndən. Ver bura kağızı, - deyir. Heç oxumadan imzasını qoyur, yoluna davam edir.

### Vətən həsrəti

Yuxarıda yazdığım kimi Həsən müəllim Qərbi Azərbaycanda, Göyçə mahalında doğulub. Mən oralarda olmasam da Həsən müəllimin, İbrahimin söhbətlərində o yerləri gəzib gəlmişəm. Göyçə gölündə farel balığı tutmuşuq, ocaq qalamışıq. Qazana elə gölün dupduru suyundan töküb balığı soyutma bişirmişik. Özümüzlə gətirdiyimiz araqdan yüz-yüz vurmuşuq da... "Google" axtarış sistemində Həsən müəllimgilin kəndlərini görmüşəm də. Məni kəndin küçələriylə gəzdirib, oxuduğu məktəblə tanış edib, evlərinin yerini göstərib. Yəqin ki, nəvaxtsa kəndlərinə qonaq da aparar məni. Qiyabilik gerçəkliyə çevrilər.

### Deduşka Qasan Qasanov

Həsən müəllim üç qız atasıdır. Mən isə iki. Bir qız atası kimi vəzifəsini yerinə yetirib, hamısını köçürüb. Mən də elə onun kimi. İndi də nəvələri dilindən düşmür. Qəribə bir yarışa çıxmışıq. Həyatımızın əlamətdar çağlarında bir-birimizə zəng edəndə özəl salamlaşmağımız da var. Zəng edib baba olması münasibətilə təbrik etmək istədim. Dəstəyi götürdü. Təbrikimi gözləmədən:

- Deduşka Qasan Qasanov sluşaet.

İki il keçdi. O mənə təbrikə zəng elədi. Bu dəfə mən:

- Deduşka İmamverdiyev sluşaet, - dedim.

Üstündən bir az keçdi. Artıq Həsən müəllim "dvajdı deduşka Qasanov sluşaet" deyirdi. Cavabım çox gözlətmədi. Mən də "dvajdı deduşka" oldum. Sonra hər ikimiz "trijdı". Sonra Həsən müəllim məni "yerimdə otuzdurdu" - "çetırejdı deduşka" deməklə. Hələ onu da əlavə etdi ki, "hələ uşaqsan. Mənə çata bilmərsən". Həyatsa davam edir. Mən artıq beş nəvənin babasıyam. O isə məni ötüb. İnanıram ki, bu cür hərbiçisayağı "doklad"larla bir-birimizi hələ çox sevindirəcəyik.

### Əliyevçi

Həsənovlarla İmamverdiyevləri birləşdirən bir mühüm cəhət də var. O da dildə yox, mənən Əliyevçi olmaqlarıdır. Bu yolda Həsən müəllim gəncliyindən Qabillər, Vahabzadələr kimi ön cəbhədə olub. Bu şəxsin xilaskarlıq missiyasını hələ o vaxt görən, əməli addımlar atan, Heydər Əliyevin siyasətini ürəklə həyata keçirənlərdən biri olub. İndi də belədir.

Prezidentimiz İlham Əliyevin 40 yaşı tamam olanda o vaxt AzTV-də bir neçə hissədən ibarət film hazırlanmışdı. Daha doğrusu bu film Həsən müəllimin yaradıcılığının məhsulu idi. Sonluq isə özəl idi. Tamaşaçı üçün yeni və maraqlı idi Həsən müəllimin bu sonluğu. Demə İlham təkcə ad yox, həm də Əliyevlərin ailə kodu imiş. "İlham" sözündəki hərflər ayrı-ayrılıqda bu ailənin üzvləriymiş: "İ" - İlham, "L"- Leyla, "H"- Heydər, "A" - Arzu, "M"-Mehriban.

### Son

**"Xalq Qəzeti"ndə işləmirəm. Amma elə həftə olmur ki, redaksiyaya getməyim. Bəziləri indi də elə bilirlər ki, mən bu qəzetin əməkdaşıyam. Jurnalistikadan uzaqlaşsam da yazılarımda bu stil hələ də duyulmaqdadır. Çünki bu sahədə on altı illik bir MƏKTƏB keçmişəm. Və bu həyatımın on altı ilində Həsən Həsənov həmişə mənim müəllimim, baş redaktorum olub. Mən də onun ərköyün tələbəsi, işçisi. "Xalq qəzeti"ndə işləyərkən işə mütəmadi gecikdiyimə, çox vaxt isə ümumiyyətlə gəlmədiyimə görə 25 dənə töhmət verib mənə. Amma sonda düz yola gətirib. Utandığımdan ərizəmi yazıb işdən çıxmışam. Amma insanlığımız, dostluğumuz əvvəlki səviyyəsində qalıb.**

**Hə. Az qala yadımdan çıxmışdı. Həsən müəllim, 70 yaşın mübarək! TƏBRİKLƏR!**

**Mahir Qabiloğlu**

# SEVİLMƏYİ HAQQ EDƏN AQİL ABBAS

## Əbülfət Mədətoğlunun təəssuratı

**Həmin gün , yəni iyunun 10-da Ağcabədidə mənim də, elə mənimlə birlikdə olan hər kəsin də ovqatı başqa idi. Çünki keçiriləcək tədbir özü bizi bu ruha kökləmişdi. Adətən millət vəkili Aqil Abbasın seçiciləriylə olan görüşlərin demək olar ki, böyük hissəsinin iştirakçısı və şahidi olmuşam. Açığını deyim ki, həmin görüşlər özünün aurası, fikir və mövzu yükü ilə həmişə məni sıxıb. Çünki iştirakçılar ancaq öz ehtiyaclarını, öz tələblərini dilə gətiriblər. Hamı deputatdan istəyib, umub - yardımı da, köməyi də. Bu dəfə isə fərqli bir görüş olacaqdı...**



Görüşü Ağcabədi rayon İcra Hakimiyyəti və bir də rayonun mədəniyyət işçiləri birlikdə təşkil etmişdilər.

Görüşün mövzusu, əslində yenə Aqil Abbas idi. Yəni onun bu ilin aprel ayının 1-də tamam olan 70 yaşının doğulduğu Ağcabədidə qeyd olunması idi.

Mən görüşdən öncə keçirilən tədbirin proqramı ilə tanış olanda hiss etdim ki, təşkilatçılar bu işə məsuliyyətlə yanaşaraq , real mənzərəni, hava şəraitini və bir də vaxta dəyər verməyi az qala zərgər dəqiqliyi ilə hesablamışdılar. Adətən belə tədbirlərdə bir boşluq, bir sərbəstlik donlu şərait yaradılır. Bu dəfə isə sərbəstliyin özünə də bir önəm verilmişdi.

Bu önəm də mahiyyəti sərbəstlikdən mükəmməl istifadə idi, yararlanmaq idi.



Görüş Ağcabədi rayon Mədəniyyət Evində təşkil olunmuşdu.

Mədəniyyət Evinin həyətində xüsusi afişalar qoyulmuşdu. Bu görüşə dəvət afişaları idi. Binanın foyesində isə yazıçı Aqil Abbasın kitablarının sərgisi təşkil olunmuşdu. Görüşü "525-ci qəzet"in baş redaktoru, AYB-nin katibi, Mətbuat Şurasının sədri Rəşad Məcid idarə edirdi. Yəni biz tamaşaçılar, izləyicilər səhnədə Aqil Abbasla yanaşı əyləşmiş Rəşad Məcidin özünəməxsus üslubda, hər zaman olduğu kimi , yenə də aparıcı missiyasını bizlərə həzm etdirirdi. Onun yumoru da, təbəssümü də, hətta ciddi söylədiyi fikirlərin içindəki şirinlik də ürəyə yatım idi. Rəşad Məcid Aqil Abbas barəsində təqdimat xarakterli qısa çıxışını edəndən sonra söz millət vəkili, Milli Məclisin Komitə sədri Tahir Rzayevə verildi. Tahir müəllim hələ Dövlət Universitetində oxuduğu illərdən tanıdığı, tələbə yoldaşı olduğu Aqil Abbasla bağlı maraqlı xatirələrini danışdı, onun bir millət vəkili kimi xalqla təmasının şirinliklərindən söz açdı. Xüsusi vurğuladı ki, Aqil Abbası təkcə ağcabədililər yox, bütün Azərbaycan sevir, dəyərləndirir, hətta bu sevgi dövlətin bütün qurumlarında da birmənalı şəkildə qəbul olunubdur.

Rəşad Məcidin idarə etdiyi görüşdə musiqi də könülləri oxşayırdı. İstəyir Elnur Fərzəliyevin "Sevgili



canan" romansı, istər Əhəd Təhməzovun "Sarı gəlin"i, eləcə də Ü.Hacıbəyov adına Qarabağ Muğam Mərkəzinin şagirdləri Ləman, Laləzar və Aylinin " Qarabağ şikəstəsi" bu görüşün daha da yaddaqalan olmasında öz sözünü deyirdi.

Görüşdə çıxış edən Ağcabədi rayon İcra Hakimiyyətinin başçısı Rafil Hüseynov sözünə bir az uzaqdan başladı. O, öncə Aqil Abbası bir jurnalist, "Ədalət" qəzetinin baş redaktoru, Azərbaycanın bir ziyalısı kimi təqdim etdi. Onun torpağa, Qarabağa bağlılığını xüsusi vurğuladı. Rafil müəllim bildirdi ki, Aqil Abbas vəhylə Ağdamın necə azad ediləcəyini "Dolu" romanında yazmışdı. 15 il bundan öncə o, romanında yazmışdı ki, biz bir güllə atmadan Ağdama dönəcəyik. Həyat göstərdi ki, Aqil Abbas Vətən sevgisi ilə bu torpaqların necə azad ediləcəyinə inamını təkcə sözündə-söhbətində deyil, həm də əsərlərində bizlərə çatdırıb. Onun sonuncu "Çay qırağında bitib susuz qalan ağacların sağlığına" povesti də məhz həmin sevginin gerçək nümunələrindən biridir. Biz ağcabədililər sevinirik ki, eloğlumuz ölkə prezidentinin fərmanı ilə ən yüksək ordenə layiq görülüb. Həm mükafat, həm də yubiley münasibətilə Aqil müəllimi bir də təbrik edib, Ağcabədi rayon İcra hakimiyyəti başçısının fəxri fərmanını məmnuniyyətlə ona təqdim edirəm.

Görüşdə çıxış edən hər kəs, xüsusilə Aqil Abbasın şəxsi təşəbbüsü və maliyyə dəstəyi ilə yaradılmış Bayat kənd kitabxanasının müdiri Təhminə Quliyevanın söylədiyi fikirlər böyük maraqla qarşılandı. Sonra söz yubilyara verildi. Tam səmimi deyəcəm, ilk dəfəydi ki, yazıçı Aqil Abbası doğulduğu məkanda çox kövrək, çox duyğulu bir halda gördüm... Həqiqətən ONUN bu halını ilk dəfəydi izləyirdim. Ona görə də verilən suallara, hətta replikalara da yığcam və içdən gələn bir sevgi ilə cavab verirdi. Ən maraqlısı da bu idi ki. Aqil Abbas hər kəsə elan etdi ki, 30 ildən sonra sizə deyirəm:

- Nə qədər ki Ağdam işğaldaydı, mən ağdamlıydım. İndi isə ağcabədiliyəm. Sizinlə fəxr edirəm!



**Bəli, görüş başa çatdı. Amma heç kim ayrılıb getmək istəmirdi. Yazıçının avtoqrafla kitabını əldə etmək istəyənlər növbəyə düzülmüşdü. Mən isə kənardan dayanıb bu gün səhər-səhər Aqil Abbasın Rəşad Məcidl birlikdə Ulu Öndərin abidəsi önünə tər çiçəkləri qoyduğu andan orta məktəbin aşağı sinifində oxuyan VIII Muğam Televiziya müsabiqəsinin diplomantı Lətif Lətiflinin "Sarı bülbül"ü dinlədiyimiz ana qədər necə bir duyğulu halda olduğunu, gözlərinin dibindəki sevinc və qüruru və bir də hər dəfə Zəfərdən, Ağdamdan, Şuşadan danışanda üzəyinin necə atlandığını müşahidə edirdim. Haqqındı, Aqil Abbas. Sən təkcə doğulduğun Ağcabədinin yox, bütün Azərbaycanın sevilən söz adamı, millət vəkilisən. 70 yaşın mübarək olsun!**

*Rüstəm Hacıyev*

# ABŞ dünyanı qarışdırmaqda israrlıdır

**Hazırda dünyanın bir çox yerlərində aləmi bir-birinə qatan Birləşmiş Ştatlar heç bir halda sakitləşə bilmir. İndi də Koreya yarımadasında suları bulandırmağa çalışır.**

**"Renxap" agentliyinin verdiyi məlumata görə, ABŞ və Cənubi Koteyanın birgə keçirdiyi Ulchi Shield (UFS) hərbi təlimləri bu gün başa çatıb. Bu barədə Cənubi Koreyanın qərərgah rəislərinin komandanlığı məlumat verib.**

**Əslində ilk baxışda burda elə bir fövqaladə hadisə baş vermədiyini düşünmək olar. İstənilən ordu silahlı qüvvələrinin hazırlıq vəziyyətini nəzarətdə saxlamaq üçün mütamadi olaraq hərbi təlimlər keçirir. Bu təlimlər bir-biriylə hərbi əməkdaşlıq edən bir və ya bir neçə dövlətin birgə iştirskı ilə də keçirilə bilər.**

**Lakin, ABŞ-ın bu təlimlər zamanı ilk dəfə olaraq Şimali Koreyaya qarşı nüvə hücumunun imitasiya ssenarisinin sınaqdan keçirilməsi təbii ki, onsuzda ağlı başında olmayan nüvə silahına malik Şimali Koreya Respublikasının prezidenti Kim Çen I-nı adekvat addımlar atmağa sövq edəcəyi gün kimi aydındır. Özü də sınaq məqsədiylə deyil, bir başa, real olaraq Cənubi Koreyaya nüvə slahları ilə hücum edilə bilər.**

**Və, həqiqətən də gözlənildiyi kimi, Kim Çen I-nın reaksiyası özünü çox da gözlətmədi. Şimali Koreyanın lideri təcili olaraq bu məqsədlə Pilotduz uçuş aparatlarının yaradılması ilə bağlı göstəriş verib. Yəqin ki, bu PUA-lar ən azından taktiki nüvə başlıqları ilə təmin olunacağı istisna olunmur. Şimali Koreya hələ ki, taktiki nüvə silahlarına malik olmasa da, müttəfiqləri sayılan və hazırda ABŞ-la yumşaq desək xoş münasibətləri olmayan Rusiya bu məsələdə onlara yardımçı ola bilər.**

**İndi də, guya Vaşinqton Şimali Koreya rəhbərliyinin bu bəyanatından təşvişə düşüb, bu təhdidi ciddi qəbul edib və vəziyyətin inkişafını izləyəcəyini bildirib. Halbu ki, Vaşinqton hərbi təlimlər zamanı Şimali Koreyaya nüvə hücumlarının həyata keçirilməsinin imitasiya ssenarisinə, qarşı tərəfdən sərt reaksiya göstəriləcəyini də yaxşı bilrdi. Əslində Koreya yarımadasında növbəti münaqişə ocağının qalanması üçün bu, Pentaqonun hazırladığı planın tərkib hissəsi kimi qəbul olunmalıdır.**

**Nəzərə alsaq ki, ABŞ-ın daha bir "ötürməsiylə" Uzaq Şərqdə hələ çözülməsi mümkün olmayan Çin-Tayvan münaqişəsi də alovlanmaqdadır. Bütün bunlardan sonra, bu regionda da vəziyyətin nə dərəcədə gərgin olacağını və nə ilə nəticələnə biləcəyini təsəvvürə belə gətirmək olmur.**

## *Elektrikli avtomobillər iqlimə necə təsir edir?*



**Təbii sərvətlərdən istifadənin getdikcə daha çox əhəmiyyət kəsb etdiyi müasir şəraitdə elektriklə işləyən avtomobillərin üzərinə böyük məsuliyyət düşür.**

Bu marağın birinci səbəbi elektriklə işləyən avtomobillərin ekoloji cəhətdən təmiz olmasıdır. Dünyadakı hökumətlər, avtomobil istehsalçıları və bir çox ekspertlər elektrik avtomobillərinin neftdən istifadəni azaltmaq və iqlim dəyişikliyi ilə mübarizə aparmaq üçün mühüm texnologiya olduğu qənaətindədirlər.

Azərbaycanda son illər elektriklə işləyən avtomobillərin sayı artmaqdadır. Ölkəmizdə mövcud infrastruktur elektromobillərin şəbəkələşmiş şəkildə istifadəsi üçün müəyyən addımlar atılır. Bakıda və regionlarda bir neçə şarj məntəqəsi quraşdırılıb. Lakin Azərbaycan ərazisində belə şarj məntəqələrinin sayı azdır. Azərbaycana elektromobillərin gətirilməsi zamanı onlara aksiz vergisi tətbiq olunmur. Elektromobil idxal edən fiziki və hüquqi şəxslər yalnız ƏDV, əməliyyat və vəsiqə haqqı rüsumlarını ödəyir. Nəticədə belə avtomobillərin ümumi alış qiyməti ucuz başa gəlir.

Benzinlə işləyən avtomobillərin istixana qazı emissiyalarına yüksək təsir göstərə bilər. Akkumulyatorla işləyən elektrik avtomobillər isə emissiyalara çox az təsir göstərir. Bu avtomobillərin istixana qazı emissiyaları benzin və dizellə işləyən avtomobillərin emissiyalarından təxminən 17-30 faiz aşağıdır. Elektromobillərin istehsal prosesləri də daha səmərəli olmalı və elektrik enerjisi istehsalı daha təmiz olmalıdır. 2050-ci ilə qədər elektrikli avtomobilin emissiyaları ən azı 73 faiz azaldıla bilər. Araşdırmalara görə, dünya üzrə avtomobillər hər gün 18 milyon barrel yanacaq məhsulları istifadə edirlər. Elektromobillərin indiki satış tempi və digər tendensiyaların mövcud sürəti ilə 18 milyon barrellik istehlakı 1 milyon barrel azaltmaq üçün dünyada minimum 50 milyon elektromobilin istifadəsi lazımdır.



Əli Hüseynov

# "Evə gəlim, danışarıq"

## (Qarabağdan xatirə)

*Beli bir deyim var: ən sonda ümidlər ölür.*

*Ümidləri öldürən nədir bəs? Məkan, zaman, insan - hansı məhfumdur bu hissi bizlərin əlindən alan?*

*Bir qismimizin ümidlərini əlindən alan məkandır, bəzilərimizdə zaman, bir çoxumuzda insanlar...*

*Amma...*

*Ümidlərin qırılmasında bu üç nüansın toxunduğu insanlar da var dünyamızda. Həmin insanlar bilirsiniz kimlərdir?*

*Şəhid anaları.*

*Şəhid bacıları.*

*Şəhid övladları.*

*Şəhid qardaşları.*

*Və digərləri...*

*"Evə gəlim, danışarıq". Bu ifadə kənardan üç sözdən ibarət bir cümlə kimi səslənir. Bilirəm, mən də bilirəm! Üç cümlənin hər hərfində üç əsrə sığmayacaq ağrı, acı, qorxu, sevinc, kədər yatır - bunu tam dörd il öncə öyrənmişdim.*

*Son danışdığımızda demişdim ki, "gələndən sonra necə edəcəksən bəs?"...*

*Elə sözü gedən cavab gəldi - "evə gəlim, danışarıq".*

*Gözlədim, xoş xəbər gözlədim. Qısa görünsə də, qorxu dolu gözləmə müddəti idi. O an hər bir səs, hər bir danışıq mənə eyni sözü deyirdi - "evə gəlim, danışarıq".*

*Evə gəldi. Görüşdük. Ona baxırdım, danışa bilmirdi. Nə özü danışa bilirdi, nə üstünə örtüb möhkəm qucaqladığı o bayraq, nə fotoları danışa bilirdi. Amma mən danışmaq istəyirdim, axı içimdə ondan soruşacağım çox sual var idi.*

*Həmin gün inamımı itirdim... Artıq kimsə "danışarıq" deyəndə "indi danış" deyib təkid edirəm - çünki, mən "danışarıq" deyənlərin səsini bir daha eşitmədim...*

*Ancaq yenə də ümid edirdim ki, onu yeni evində eşidərəm. Eşitdim...*

*Mən onu dənizlərdə, səmalarda eşitdim. Amma, səsi uzaqlardan gəlirdi.*

*Ən son anda isə onu tam dəqiq dinləyə bilmişdim - Hadrutdakı yeni evində, azad Qarabağ səmasında gülümsəyərək mənə belə deyirdi:*

*"Evimə gəldin, indi danışarıq..."*

## Azərbaycanda su ehtiyatları yarıbayarı azala bilər



**Dünyada temperatur 4-5 dərəcə artsa, Azərbaycanın su resursları əsrin sonuna 40-50 % azala bilər.**

Adalet.az xəbər verir ki, bunu Ekologiya və Təbii Sərvətlər Nazirliyinin (ETSN) Ekoloji siyasət şöbəsinin müdir müavini Rafiq Verdiyev "Su İdarəetmə Sistemlərinin iqlimə Dayanıqlı Kənd Təsərrüfatında Rolu: COP29 Dəyirmi Masa Müzakirələri" mövzusunda keçirilən tədbirdə deyib.

O bildirib ki, lakin İqlimə dair Paris razılaşmasına əməl edilərsə, bu gösəricinin 20-25 % civarında olacaq.

"Biz indidən hazır olmalıyıq ki, gələcək illərdə bu problemlərlə üzləşməyək. Bəzən olur ki, quraqlıq illərdə illik normanın 40-50 %-i qədər su olur və bu kəskin su qıtlığına səbəb olur. Bu səbəbdən də indidən infrastrukturumuzu hazır etməliyik",-deyə o qeyd edib.

## Kreml: Avropaya qazı Türkiyədən verəcəyik

**Rusiyanın Avropaya qaz nəqli üçün alternativ yolları var.**

Adalet.az xəbər verir ki, bunu Kremlin mətbuat katibi Dmitri Peskov deyib.

"Türkiyədə qaz qovşağının yaradılması planı aktualdır və bununla bağlı iş gedir. Təbii ki, Ukrayna tərəfinin bu cür qərarları ilk növbədə ABŞ-dan gələn digər mallarla müqayisədə hələ də daha zəmanətli və sərfəli rus qazını almaq istəyən avropalı istehlakçıların maraqlarına ciddi ziyan vuracaq. Onlar daha çox pul ödəməli olacaqlar və bununla da sənayelərini daha az rəqabətədavamlı edəcəklər", - Peskov bildirib.

Qeyd edək ki, dünən Ukrayna Prezidenti Vladimir Zelenski Ukrayna ərazisindən qaz tranzitinin davam etdirilməsi üçün Rusiya ilə razılaşmanın olmayacağını demişdi.

AYNUR QAFARLI
pedaqogika üzrə fəlsəfə doktoru, AYB-nin üzvü
qafarli1976@mail.ru



# MİLLİLİKDƏN DÜNYƏVİLİYƏ YOL GEDƏN ŞAİR – BƏXTİYAR VAHABZADƏ

**Millətin ucalığını, uca olmasını bir neçə əsas atribut müəyyənləşdirir. Bu, birinci növbədə, hər bir millətin özünün milli keyfiyyətləri ilə bağlıdır. Burada milli düşüncə, milli əxlaq və vicdan, adət-ənənə, davranış qaydaları üstünlük təşkil edir. Milli ədəbiyyatın, incəsənətin, hətta o ədəbiyyat və incəsənəti yaratmaqda istifadə edilən dilin də mükəmməlliyi önəmlidir. Önəm daşıyan xüsusiyyətlərdən biri də məncə insan amili ilə bağlıdır. Bu insansa kamil olmağı ilə bərabər, həm də şəxsiyyət olmalıdır. Özü də yenilikçi və milli-mənəvi dəyərlərə malik olan şəxsiyyət... Bir də dövlətinə və dövlətçiliyinə, dövlətçilik tarixinə bələd olan şəxsiyyət... Dövlət atributlarını sevən, onu uca tutan şəxsiyyət...**

**Bu cür şəxsiyyətlər dövlətlərinə bağlı olmaqla yanaşı, onun himnini, gerbini, bayrağını həmişə sevmiş və qürur hissi keçirmişlər. Söz adamları onların arasında daha da fərqli görünmüşlər. Onlar həm özləri, həm də sözləri ilə ön sıralarda durmuşlar. İstiqlalçılıq ideyası azadlıq eşqi ilə yaşayan millətlərin həmişə haqqına çevrilmişdir. Bu ideyanı gerçəkləşdirmək istəyən millətlərin köləlik əbədi olaraq həyatından çox-çox uzaqlarda olmuşdur. Qul olmaq psixologiyası onların düşüncəsinə yad olan, tamamilə ölümə bərabər tutulan amil kimi görünmüşdür. Bu ideyanın müəllifi siyasətçilər olsa da, sözçüləri və yayıcıları milli varlığını hiss edən söz adamları - şairlər olmuşdur. Tarixə səyahət etsək, görərik ki, onlar barmaqla sayılacaq qədər azdırlar. Buna baxmayaraq, güclüdürlər, əzəmətlidirlər, millidirlər və azadlıqsevərdirlər.**

**Məkumdur ki, Azərbaycan ədəbiyyatı dünya ədəbiyyatına N.Gəncəvi, M.Füzuli, İ.Nəsimi, M.F.Axundzadə, M.Cəlil, M.Ə.Sabir, H.Cavid, S.Vurğun və bu kimi dəyərli simaları bəxş etmişdir. Bu simalar həm də dünya ədəbiyyatının bir hissəsi olan Şərq və eləcə də ümumtürk ədəbiyyatının böyük azman sənətkarlarıdır. Hərəsi bir dövrün başlanğıcı, onun hərəkətverici qüvvəsidir. Öz zamanının tarixi və o tarixi bütün gerçəkliyi ilə göstərən güzgüsüdür. Xalqımızın, Türk kimliyimizin göstəriciləri olan Nizamini, Füzulini, Mirzə Fətəlini, Sabiri, Mirzə Cəlili oxuyan dünya oxucusu xalqımızın necə müdrik və uzaqgörən olduğunun şahidi olur. Təkcə böyük Nizaminin adı və yazdığı əsərlər belə bunu deməkdə bizə əsas verir.**

**Şübhəsiz, ayrı-ayrı dövlərin özünəməxsus ədəbiyyatı olmusdur. Onu yaradanlar da həmin özünəməxsusluğu görərək ona uyğun, ancaq Böyük İnsan və insanlıq amilinə söykənərək fəaliyyət göstərmiş, əsərlərində reallığa önəm vermişlər. Bir sözlə, insanı insanlığa sığmayan əməllərdən uzaq durmağa səsləmiş və haqqın yanında olmağı özlərinə mənəvi borc bilmişlər. Xəqani - Nizamidən üzübəri bu, həmişə belə olmuşdur. Əgər belə demək mümkünsə, ədəbiyyat hər bir an xalqın yolgöstərəni olmuş, onun yoluna işıq salmışdır. Ümumiyyətlə, ədəbiyyatın ümumi mənzərəsi çox vaxt belə olmuşdur. Bu ədəbiyyatı yaradanlar özləri də, yaratdıları ədəbiyyat da milli olmaqla yanaşı, həm də dünyəvi olmuşdur. Bu istər ədəbiyyatın azad, sərbəst, istərsə də başının üstündə "demokl" qılıncı olduğu dönəmlərində də bu cür görünmüşdür.**

**B.Vahabzadə Azərbaycan ədəbiyyatı tarixində özünün müstəqil olaraq ayrıca yeri olan şairdir. O, XX əsr Azərbaycan ədəbiyyatı tarixində istiqlal şairi kimi tanınır. Ədəbiyyata bu yöndən yanaşanda onun həm özü və şəxsiyyəti, həm də yaradıcılığı tamamilə başqalarından fərqlənir. Mövzu baxımından da şairin yazıları rəngarəng və zəngindir. Ancaq ideyaca düz və bir xətlidir. Vətən və millət ideyasının bu xətdə şahdamar təşkil etməsi isə başlıca məqsəddir. Demək olar ki, B.Vahabzadə yaradıcılığının yetmiş-səksən faizi bu mövzulardadır. Buna baxmayaraq başqa mövzular da şairin yaradıcılığında azlıq təşkil etmir. Sənətkarlıq baxımından da bu şeirlər çox mükəmməl şəkildə özünü göstərir.**

**Yuxarıda qeyd etdiyimiz kimi, B.Vahabzadə həm də şəxsiyyətdir. O, bir şəxsiyyət kimi də öz yaradıcılığını şəxsiyyətləndirən şairimizdir. Onun hansı mövzuda yazılmasından asılı olmayaraq bütün şeirlərində oradan bir şəxsiyyətin boylandığını görürük. Özü də elə-belə şəxsiyyət yox, məğrur və qürurlu, əyilməsi mümkün olmayan şəxsiyyət... Belə şəxsiyyəti olan xalq isə, əlbəttə, xoşbəxt xalqdır. Axı milləti irəli aparmaq, onun qamətini həmişə düz saxlamaq, dünya arenasında tanıtmaq, yüksək səviyyədə təmsil etmək həmişə B.Vahabzadə kimi şəxsiyyətlərin elə bil boyuna biçilir, bu şərəfli işin ağırlığı belə simaların çiyinləri üzərində durur. Bu cür simalar həm özləri, həm də yaradıcılıqları ilə mənsub olduqları milləti şərəfləndirir və ona şərəf gətirir. Birmənalı olaraq deyə bilərik ki, dahi şair B.Vahabzadə bu cərgədə olanların birincilərinin birincisidir.**

**B.Vahabzadə Vətənini, millətini, ana dilini sevən, ona vurğun olan milli, hətta sözün əsl gerçək mənasında millətçi şairdir. Məncə, milli və millətçi olmaq heç də dünyəvilikdən uzaqlaşmaq, dünyaya qarşı çıxmaq deyil. Çünki milli varlığını qorumaqla bəşəri dəyərlərə malik ola bilərsən. Bir sözlə, dünyəvilik millilikdən keçir. Dünyəvilik milliliyin təməl daşları üzərində olanda daha yaxşı, gözəl və gerçək görünür. Ona görə də B.Vahabzadə yaradıcılığına nəzər yetirsək, onun həm yazdıqlarının, həm də özünün məhz bu cür göründüyünün şahidi oluruq. Beləliklə, buradan çıxan son nəticə də o olur ki, dahi şair nə qədər millidirsə, o qədər də dünyəvidir.**

**Bir tədqiqatçı kimi sözümü dedikdən sonra yekun olaraq bu dahi şairin azad ruhuna öz şeirimlə sığal çəkmək istəyirəm. Necə ki, şair özü də belə demişdir:**

***Qatlayıb dizinin altına qoyar,***
***Alim Bəxtiyarı şair Bəxtiyar.***

**Təbii ki, ölçüyə gələ bilməyəcək bu alim şairi sözlə də ifadə etmək çox çətin olduğu üçün ruhuna öz şeirimlə sığal çəkməyə çalışışdım:**

### YANIB QƏTRƏ-QƏTRƏ BƏXTİYAR OLDUN

*Bir sönməz ilhamla yazıb yaratdın,*
*Sözün meydanında ixtiyar oldun.*
*Ömrünü əritdin millət yolunda,*
*Sən özün taleyə, bəxtə yar oldun.*

*Sözə maya tutdun doğrudan-düzdən,*
*İşlədi dərinə, olmadı üzdən,*
*Dikəldin çinartək soykökümüzdən,*
*Ruhun var olduqca özün var oldun.*

*"Birdir Azərbaycan - birdir can" yazdın,*
*Yurdumun şəninə çox dastan yazdın,*
*Ən qorxunc zamanda "Gülüstan" yazdın,*
*Ən cavan çağında saçı qar oldun.*

*Vətən ana oldu, sən ona bəndə,*
*Ucaldın vətənlə göylərə sən də.*
*Şəhid oğullara ağı deyəndə,*
*Sızlayan, inləyən kaman, tar oldun.*

*Haqqın, ədalətin səndin hakimi,*
*Sağaltdın, hər dərdin oldun həkimi.*
*Ad yazdın tarixə bir ustad kimi,*
*Həmişə dillərə belə car oldun.*

*Ürəyin bir vurdu obayla, ellə,*
*Zirvəyə ucaldın pillə və pillə,*
*Bu xalqa yadlardan dəyəndə güllə,*
*Dözmədin, talandın, tarimar oldun.*

*Bir bayraq, bir Vətən, bu idi andın,*
*Vicdanı həmişə Allahın sandın,*
*"Şam əgər yanmırsa" dedin də yandın,*
*Yanıb qətrə-qətrə Bəxtiyar oldun.*

**Yekun olaraq demək istərdim ki, XX əsrin 80-90-cı illərində Azərbaycanda baş verən milli azadlıq hərəkatının kökü ustad şairin 50-60-cı illərə aid "sandıq ədəniyyatı"nın əsasında formalaşaraq özünün ən yüksək mərhələsini yaşadı. İstiqlalın şirinliyinin dadılması üçün neçə-neçə acılardan keçməyin diaqnozunu qoyan şair köləliyin özünü köləyə döndərənlərdən olmuşdur. Bu baxımdan B.Vahabzadə yaradıcılığı da onun özü kimi azadlıqsevərdir.**

### ADIN DA, ÖZÜN DƏ BƏXTİYAR OLDU

***Endin lap dərinə, kökündə qaldın,***
***Sən özün soy oldun azadlığına.***
***Ağırdın, öz ağır çəkində qaldın,***
***Boy verdin, boy oldun azadlığına.***

***Yüz eşqin şamını sevindirdin sən,***
***Daşını, damını sevindirdin sən,***
***Hürr oldun, hamını sevindirdin sən,***
***Hoyunla hoy oldun azadlığına.***

***Yanaraq közün də Bəxtiyar oldu,***
***Aynuram, sözün də Bəxtiyar oldu,***
***Adın da, özün də Bəxtiyar oldu,***
***Toy etdin, toy oldun azadlığına.***

**Təkcə Azərbaycanın yox, bütün Türk dünyasının istiqlalsevər şairi olan B.Vahabzadənin yaradıcılığı millətimizin ömrü qədər həmişə əbədiyaşar, cavan və möhtəşəm olacaqdır.**

**Bu möhtəşəmlik, bu cavanlıq onun poeziyasında sözün əsl mənasında özünü göstərir. Əbədiyyət qazanmış bu insana və onun əbədi poeziyasına eşq olsun.**



VAQİF YUSİFLİ

# ƏHMƏD HAQSEVƏRİ YAXŞI TANIYIN

Əhməd Haqsevər (Əliyev Əhmədağa Nəcəf oğlu) ...İstəyirəm ki, bu şairi sizə daha yaxşı tanıdım. Əslində, belə bir tanıtmağa ehtiyac duymazdım, çünki onun şeirləri "Azərbaycan", "Ulduz" və digər jurnallarda vaxtaşırı dərc olunur, indiyə kimi onun dörd şeirlər kitabı da çap edilib, Yazıçılar Birliyinin də üzvüdür. Əhməd Haqsevər çoxcəhətli yaradıcılıa malikdir və bir şairin təkcə lirik şeirlər yazmaqla kifayətlənməyib digər poetik janrlarda da qələm çalması ilk baxışda təəccüb doğurur, amma nə yazırsa-yazsın, şeir üçün ölçülü-biçili normativlərdən kənara çıxmır. Bu yaxınlarda onun "Mənim təzadlı dünyam" adlı şeirlər kitabı ("İmza" nəşrlər evi) çapdan çıxıb və bu kitab bir şairi tanımaqvə onun özünəməxsusluğunu təyin etmək üçün fürsət verir.

Əhməd Haqsevər kitaba yazdığı ön sözdə özünü belə tanıdır: "Şeirlərimi əruz və heca vəznində yazmaqla şeirin sərbəst növündən də istifadə edirəm. Yaradıcılığımda bir neçə yeniliyə də imza atmışam. Xalq şairi Rəsul Rzanın franmız ədəbiyyatından Azərbaycan poeziyasına gətirdiyi modern şeir üslubunda yazdıbı "Rənglər" silsiləsi formasında mən də şeirlər yazmış, hətta bu şeir növünü inkişaf etdirib məsnəvi olmaqla heca şeirinə də çevirmişəm. Poeziyada ən çətin janr sayılan sonetin müxtəlif növlərində doğru-düzgün yazmaqla iki növünü də yaratmışam-qafmyəbənd və qayıdan sonet. İkimli sonet və akrostix sonet idə Azərbaycan ədəbiyyatında ilk dəfə olaraq mən yazmışam". Əlbəttə, şəxsən mən bir şairin "mən, mən yaratmışam" sözlərinə heç də yaxşı baxmıram. Amma Əhməd Haqsevərin şeirlərində belə yeniliklərə rast gəldim. Əsas məsələ, heç də nəsə yenilik yaratmaq deyil, şeirin özüdür-o şeirdə ifadə olunan və səni həyəcanlandıran, duyğulandıran poetik nəfəsdir.

Təxminən 450 səhifədən artıq bu şeirlər kitabında o poetik nəfəsi hiss etdim. Təbii ki, mən Əhməd Haqsevərin o kitabdakı bütün şeirləri barədə, lap elə mövzularına görə qruplavşdırsam belə yenə sözümü tam deyə bilməyəcəyəm. Amma kitabda elə şeirlər var ki, o şeirlər Əhməd Haqsevərin səsdən sözə, sözdən şeirə keçdiyinin və nəticədə ŞEİR yarandığının şahidi olursan. Əhməd Haqsevər şeirin axışı olan bədii təsvir vasmtələrinə tez-tez müraciət edir, təbii ki, təşbihlər, metaforalar şeirin bədii gözəlliyini təmin edirsə, əsl şeir yaranır. Məsələn, mən onun "Gənclik", "Məhəbbət", "Ata evi", "Ana", "Kitab", "Nəsihət" şeirlərində nə qədər istəsən təşbğih, metafora və digər bədii təsvir vasitələrinin sıralanmasını görərsiniz, bəzilərini bəyənərsiniz, bəzilərini yox. Nədir məhəbbət?

*Mənzil isindirən alov, hərarət,*
*Ömür yollarna boylanan məşəl.*
*Səmaya yüksələn ömrün qanadı.*
*Könüldən könülə düşən işıq, nur.*
*Ləkə götürməyən dumduru büllur.*
*Ürəkdən yüksələn ümid bayrağı.*

Əlbəttə, hər bir maddi əşya və ya mücərrəd məfhum haqqında belə təşbihlər düzümü yaratmaq olar. Necə ki, böyük şairimiz Rəsul Rza "Rənclər"də yaratmışdı. Ə.Haqsevər də bu ənənəni davam etdirir.

Mən Əhməd Haqsevəri təbiəti duyan, onunla öz dilində danışmağı bacaran bir şair kimi də tanıtmaq isçtəyirəm. Açığını deyim: Yurdumuzun Cənub bölgəsinin təbiət gözəllikləri Əhməd Haqsevərin şeirlərində söz rəssamlığı ilə çəkilir. Bircə "Lənkəran" şeirini oxusanız kifayətdir.

Əhməd Haqsevəri mən fikir poeziyasına meyl edən bir şairi kimi səciyyələndirə bilərəm . Onun heç bir şeiri fikirsiz deyil, yəni o şeirin mayasında şair müəyyən bir fikir söyləyir və çalışır ki, o fikir təzə olsun, süni və quraşdırma olmasın. Həm də bu fikir bədiiliklə süslənsin. Şeirdə ifadə olunan fikir gərək öz bədii libasını geyinsin.

Amma əsas qüvvə FİKİRDİR!Dahi V.Q.Belinski yavzırdı ki: "Şeirin poetik olması üçün nəinki təkcə rəvanlıq və ahəngdarlıq azdır,hətta hiss özü də təkdikdə hələ kifayət eləməz: burada fikir lazımdır k, hər cür poeziyanın da elə əsl məzmununu təşkil edən budur" .

*Körpə qızım,*
*hələ yaşın il də deyil.*
*vur-tut cəmi doqquz aydır.*
*Bu dünyada istədiyin*
*Ana südü, şirinçaydır.*
*Bilirsənmi həyat nəir?-*
*Həyat, qızım,*
*hər gülənlə gülmək deyil,*
*bu qucaqdan o qucağa getmək deyil.*
*həyat -suyu dadlı, şirin*
*bir bulaqdır, içməlisən.*



Əhməd Haqsevər öncə söylədi ki, Azərbaycan şeirin bütün vəznlərində qələmi işləkdir. Mən onun əruzu çox gözəl bildiyinə, hətta bir neçə qəzəlçilərə müəllimlik etdiyini də bilirəm. Lənkəran ədəbi mühitinin yetirməsi olduğu üçün əruza hamıdan çox sevgi bəsləyib.

*Hər gün açılan gündüzə bir dandı məhəbbət,*
*Ən ülvi, təmiz, dumduru vicdandı məhəbbət.*
*Xoş günlərə yol getmədədir, xoşdu məramı,*
*Sevda daşıyan karvana sarvandı məhəbbət.*
*Ram etdiyi insanları xoşbəxt edər ancaq,*
*Ən incə, nəcib hisslərə sultandı məhəbbət.*
*Hər dərdi ürəkdən çıxarıb tərtəmiz eylər,*
*Başdan ayağa qaydadı, səhmandı məhəbbət.*
*Olmuş belə ki, Haqsevərin qəlbinə sakin,*
*Getməz o daha, söyləmə mehmandı məhəbbət.*

Bu, XXI əsrin qəzəlidir!

Amma mənim ən çox bəyəndiyim şeirləri Əhməd Haqsevər hecaav yazıb. Və onun hecalı şeirlərində fikirlə hissin, ağılla ürəyin vəhdətini görürsən. Baxın:

*Bu dünya oyun meydanı,*
*Bütün gələnlər, içində.*
*Görən varmı uduzanı*
*Sərvət bölənlər içində?*
*Məhv edir insan insanı,*
*Bax, pisi, yaxşını tanı;*
*Təmiz qeyrəti, vicdanı*
*Ax, budur sözümün canı,*
*Axır ədalətin qanı*
*Oyunun hakimi havnı?*
*Gülür gülənlər içində..*

Əhməd Haqsevər klassik poeziyaya nə qədər bağlı olan bir şair kimi iqqəti cəlb edirsə, amma müasir həyatla, bu gerçək dünyanın problemləri ilə bağlı olan şairdir. Bizim bu əsrin ab-havası, ictimai-siyasi iqlimi, mənəviyyat aləmi, qarşılaşdığımız müxtəlif hadisə və olaylavr onun şeirlərində də öz əksini tapır.

Əhməd Haqsçevəri bir sonet ustası kimi də səciyyələndirmək olar. Doğrudavn da da, o, sonet yaradıcılığında nəsə təzəliklər etməyə can atır. Amma məsləhət görərdim ki, o, bəzən bu "modern" sonet yazmağa o qədər də meyl eyləməsin. Sonetin qədimliyini qorusun.

Əlbəttə, bir kiçik yazıda mən Əhməd Haqsevərin şeir yaradıcılığı haqqında geniş söz aça bilmədim. Qalsın sonraya. Amma sözümü Əhməd Haqsevərin ən gözəl şeirlərindən birini təqdim etməklə bitirmək istəyirəm. O ŞAİRDİR deyirəm.

*De, səni burda kim əkib*
*Şəkilsənmi, rəssam çəkib?**
*Başını aşağı dikib*
*Ayağına baxan söyüd?*
*İzin ver gəlim yaxına,*
*Şərik olum qəlb dağına.*
*Öz öoyundan aşağıya*
*Şəlalətək axan söyüd.*
*Söylə, nədir ağrın-acın,*
*Tökülüb torpağa saçın?*
*Varmı bir qardaşın, bacın,*
*A qəlbini yaxan söyüd?*

# Mən də deputat olmaq istəyirəm

## İnsan hüquq və azadlığını özəl istəyə çevirənlərə

İş saatı yenicə başlamışdı. Telefon zəng çaldı. Artıq adət etmişdim. Bilirdim ki, yenə də odur. Ən azı 30 il olar ki, hər səhər işə çatanda bu zəng çalınır. İndi də telefon səsləndi. Dəstəyi qaldırdım. Xəttin o biri başından həmin o tanış səs gəldi:

- Sabahınız xeyir. Mən sizin daimi oxucunuzam...

Və beləcə həmişə dediyi sözləri təkrar etdi. Öncə qəzetimizdəki orfoqrafiya səhvlərini, üslub xətalarını bir-bir sadaladı. Sonra ürəyincə olan yazılardan danışdı, onların müəllifinə təşəkkürünü bildirdi...

Mən uzun illərdən bəri hər səhər bu diqqəti bizə ayıran oxucunun nə adını bilirəm, nə də Bakının hansı səmtində yaşadığını. Amma yüz faiz əminəm ki, bu insan əqidəli kommunist və məmur olub. Aradan ötən illər nə onun içindəki əqidəyə, nə də məmurluğuna toxuna bilməyib. Bu insan öz içini qoruyub saxlayıb. Çünki yaxşı yazıya görə, təşəkkürünü bildirəndə də onu o qədər səmimi və amiranə dilə gətirir ki, özünün ideal məmurluğunu gizlədə bilmir...

Artıq bir aya yaxındır ki, səhərlər o zəng çalınmır. Bilmirəm oxucumuzun başına nə iş gəlib. Allah ölümdən-itimdən qorusun. Gərgin zamanlardı, problemlər başdan aşır. Oğul atanı, ata oğulu ya televizorda görür, ya da telefonla arayır. Demək olar ki, çoxlu ölçülər, çoxlu mental dəyərlər ya itib, ya da gülüş obyektinə çevrilib. Bax, belə bir vaxtda o cür tələbkar, diqqətcil oxucunu itirmək, ondan ayrı düşmək heç ürəyimcə deyil. Yenə deyirəm, onun kimliyi, cəmiyyətdəki mövqeyi mənim üçün heç bir əhəmiyyət kəsb etmir. Sadəcə onun prinsipləri və bir də məni öz diqtəsi altında saxlayan zaman hökmü, yəni hər səhər eyni vaxtda zəng vurması məndə həm vərdişə, həm də bir xüsusi marağa çevrilmişdi. Hətta bazar günləri ürəyimdən keçirdi ki, həmin oxucu ev telefonuma zəng çalıb münasibətini bildirsin. Axı indi biz diqqətin, münasibətin kasadlığını yaşayırıq...

Son günlər ölkənin siyasi həyatı sükunətdən hərəkətə keçən bütöv bir varlığı xatırladır. Hara baxırsansa qruplaşan, pıçıldaşan, əlində qələmdəftər qapılar döyən, vədlər verən, bir sözlə, qaynaşan insanları görürsən. Sizə təəccüblü gəlməsin, bu gözlənilən seçkinin gözlə görünən tərəfidi, yəni görüntüləridi. Sadəcə oturub onu müşahidə etməklə insan psixologiyası, insan davranışı, insan əxlaqı barəsində mükəmməl bir yazı qoymaq olar ortaya. Amma indi bu mövzuda o qədər yazırlar ki, hansının mükəmməl, hansının da onun əksi olduğunu nə deməyə, nə də yazmağa vaxt qalmır, həvəs olmur.

Mətbuatda çap olunmuş və çap olunmaqda da davam etdirilən namizədlərin siyahılarına baxıram. Tanıdığım və tanımadığım isimlər və simalar. Bu insanların hamısı millətin, o cümlədən də mənim də vəkilim olmaq iddiasındadırlar. Layiqlilərə, millətin sevgisini və sayğısını qazananlara heç bir etirazım yoxdu. Amma bütövlükdə siyahını gözdən keçirəndən sonra əvvəlcə əllərimi dizimə, sonra başıma çırpdım.

Həqiqətən təəssüfləndim. Təəssüfləndim ki, dost-tanışı, qohum-əqrəbanı gərək səfərbər edəydim, qapıqapı düşəydim, ocaqlara-pirlərə gedəyim, nəzir-niyaz paylayaydım, Nuhdan qalma maşınımı hədiyyə kimi Dairə Seçki Məntəqəsinin qarşısında aparıb saxlayaydım. Son illərdə çıxmış şeir kitablarımdan mənə cani - dildən dəstək verənlərin, maliyyə yardımı göstərənlərin xeyrinə imtina edəydim.

Bir sözlə, hər cür havaya oynayıb, hər cür sifətə düşüb namizədliyimi irəli sürəydim. Və birmənalı olaraq ölkə KİV-lərinə bəyanat verəydim:

- Mən Millət Vəkili Olmaq İstəyirəm!

Bu bəyanatdan sonra üstümə yüyürən jurnalistlər, qulağıma tərəf əyilən insanlara imkan verməkdən birmənalı şəkildə onlardan soruşaydım:

- Niyə də olmayım? Mənim millət vəkili olmaq üçün nəyim çatmır? Əgər qaçqın deyirsiniz mən (rəhmətlik Vahid Əlifoğlu demişkən, ölkənin ən bərk qaçan və bir nömrəli qaçqını - Ə.M)! Əgər müharibə iştirakçısı deyirsiniz, mən! Əgər evsiz-eşiksiz deyirsinizsə, mən! Əgər bölgə söhbətləri edirsinizsə, coğrafi baxımdan bağlılığı olan mən! Əgər yazı-pozu deyirsiniz, qələmi-kitabı olan mən! Əgər gecəqondu söhbəti edirsinizsə, o da məndə! Ən vacibi ermənilərlə danışmaq, qarşılaşmaq söhbəti varsa, onların dilini bilən də mən!!!

Butun bu saydıqlarım və saymadıqlarım mənə əsas verir ki, rahatca millətimi (evimi-eşiyimi, qohum-əqrəbamı, dost-tanışımı, yaradıcılığımı, dolanışığımı, bir sözlə özümü - Ə.M.) parlamentdə təmsil edim. Əgər bu şərtlər keçərli deyilsə, onda siyahıda adını oxuduğum qələm dostları, iş adamları, siyasət xəstələri və başqaları hansı üstün cəhətlərinə görə namizədliklərini veriblər, onu zəhmət olmasa açıqlasınlar. Sadəcə mən Kommunist Partiyasının üzvü olmuşam, bu gün isə heç bir partiyada təmsil olunmadan qələmimin və ailəmin partiya mənsubluğunu qoruyuram. Lazım gəlsə, seçilmək xatirinə bu məsələyə evdə, ailədə geniş müzakirə açmadan baxa bilərəm. Sadəcə millət vəkili olmaq hər bir vətəndaş kimi mənim də haqqımdı Eh, bir də ki, utanmasan oynamağa nə var ki?!.

Doğrudan da zarafatı qoyaq bir kənara, özünü millətin vəkili kimi görmək istəyən və hətta artıq təsəvvür edən adları, şəkilləri qəzetləri bəzəyən insanlara, ən çox da tanıdığım insanlara baxanda namizədliyimi vermədiyim üçün çox üzülürəm. Az qalıram gedib oturam parlamentin pilləkənlərində! Şəkil əla alınar!!!

İndi diqqətin, səmimiyyətin və ən vacibi insanlığın qıtlaşdığı bir məqamda qarın qardaşdan, əl çirki sayılan pul, vəzifə qohumdan irəlidi, vacibdi. Bu zərurət gödəniyyətin mədəniyyətə üstün gəlməsinin birinci şərtidi. Görünür hər səhər redaksiyamıza telefon açan daimi oxucumuz gödəniyyətin üstün gəlməsinə imkan verməyib. Amma layiq olmadığı halda el-obanın gülünc yerinə, arvadın, qaynananın qapazaltısına çevrilənlər millət vəkili olmaq iddiasına düşüblər. Ümid edirlər ki, bulanıq suda balıq tutmaq daha asandı.Amma unudurlar ki, sular hər gün durulur...

Bax belə...

Əbülfət MƏDƏTOĞLU

## Azad edilmiş ərazilərimizdəki çaylarımız ermənilər tərəfindən çirkləndirilib

**Azad edilmiş ərazilərimizdəki çaylarımız ermənilər tərəfindən çirkləndirilib.**

Bunu Ekologiya və Təbii Sərvətlər Nazirliyinin (ETSN) Ekoloji siyasət şöbəsinin müdir müavini Rafiq Verdiyev bildirib.

R. Verdiyev əlavə edib ki, bu ərazilərdəki yerli çaylarda da çirklilik normadan yüksək olur. "Bu, əlbəttə ki, uzun illər təbii resurslardan səmərəsiz istifadə edilməsi və zərərli maddələrin, tullantıların çaylara axıdılması ilə bağlıdır. Oxçuçay və digər çaylarımızda mütəmadi olaraq monitorinqlər aparılır. Bununla Oxçuçay və digər transsərhəd çayları boyunca hidroloji məntəqələri bərpa olunub, avtomat stansiya və keyfiyyət sensorları da quraşdırılıb. Bu da bizə imkan verir ki, çaylara hər hansısa təsir varsa, ona qarşı müəyyən tədbirlər həyata keçirilə bilsin", - o əlavə edib.

## ABŞ-də nadir və ölümcül xəstəlik yayılır

**Koronavirusun yayılmasından sonra bütün dünya virusun təhlükələrinə qarşı dərhal ayıq-sayıq vəziyyətə düşüb. Bu dəfə qorxulu virusun ünvanı ABŞ-dir.**

Adalet.az xarici KİV-ə istinadən xəbər verir ki, ABŞ-nin Massaçusets ştatının bəzi bölgələrində ağcaqanadlardan insanlara keçən "şərq at ensefaliti" adlı virusuna qarşı müxtəlif tədbirlər görülüb.

Nadir və ölümcül xəstəlik kimi tanınan bu virusuna yoluxanların təxminən 30 faizi ölür. Massaçusets ştatının səhiyyə departamenti rəsmilərindən Robbi Qoldşteyn ağcaqanadların yaydığı "şərq at ensefaliti" virusu ilə bağlı mətbuata açıqlama verib. Qoldşteyn, virusun Bostonun qərbindəki Vorcester bölgəsində 80 yaşlarında bir insanda görüldüyünü təsdiqləyib.

Bunun bu il əyalətdə ilk hadisə olduğunu bildirən Qoldşteyn, virusun yayılmasının qarşısını almaq üçün tədbir gördüklərini ifadə edərək, hər kəsi xəstəliklə mübarizə üçün əllərindən gələni etməyə çağırıb. Digər tərəfdən, səlahiyyətlilər ştatın 10 bölgəsinin "yüksək və ya kritik risk" altında olduğunu bildirib və Plimut bölgəsinin sakinlərini ağcaqanadların daha çox yayıldığı axşam və səhər arasında planlaşdırılan açıq hava fəaliyyətlərini nəzərdən keçirməyə çağırıb. İnsanlara yoluxmuş ağcaqanadlar vasitəsilə keçən "şərq at ensefaliti" virusu nadir və ölümcül xəstəlik kimi tanınır. ABŞ Xəstəliklərə Nəzarət və Qarşısının Alınması Mərkəzinin məlumatlarına görə, bu xəstəliyə yoluxanların təxminən 30 faizi ölür, xəstəlikdən sağ çıxanlar isə bəzi nevroloji problemlərlə üzləşə bilər. Xəstəliyin simptomlarına yüksək hərarət, baş ağrısı, qusma, ishal və yuxululuq daxildir. Xəstəliyin hələ də müalicə üsulu yoxdur.


**MEHDİ CALAL**
*Filoloq, AYB-nin, AJB-nin üzvü, ARTİ-nin əməkdaşı*


# MƏN BİR HƏZİN NƏĞMƏ İDİM



**Şair Lətif Hüseynli ilə tanışlığımız 1982-83-cü illərə təsadüf edir. Əslən Gürcüstanın Muğanlı kəndindən olan Xudaverdi Qasımlı adlı istedadlı bir şair (Qardaşımın dostu idi) mənim şeirlərimə baxanda məsləhət bildi ki, (O vaxtlar Səməd Vurğun adına mədəniyyət sarayında tanınmış şair Xasay Cahangirovun rəhbərliyi ilə ədəbi birlik fəaliyyət göstərirdi.) o ədəbi mühitlə "qaynayıb-qarışım"...**

Elə də oldu. Orada Lətif Hüseynli ilə bərabər, Əşrəf Veysəlli, Ziraddin Qafarlı, Rauf Qaraişıq, İbrahim İlyaslı kimi istedadlı şairlərlə də dostluğumu-zun bünövrəsi qoyuldu.

Təəssüflə qeyd etmək istərdik ki, o günlərdən tanıdığımız, indi də əziz xatirələri hamımızın qəlbimizdə yaşayan istedad sahiblərindən Gülbala Meh-di, Zülfəli Zülfəliyev, Savalan Əhmədov, Əsgər Eyvazoğlu, Qulam Feyzullayev, Mir Sabir, Adil Tahir, Xaliq Oğuz, və basqa yaradıcı şəxslər indi haqq dünyasına qovusmuslar. Məkanları cənnət olsun!

Sonralar tanınmış şair Əsrəf Veysəllinin (Şəfiyevin) daha sonra gənc şair İbrahim İlyaslının rəhbərliyi ilə şəhər ədəbi ictimaiyyəti yenə də yığışar, maraqlı görüslər, tədbirlər keçirilərdi...

Sevimli şəhərimizdə Poeziya evinin (Direktoru, AYB-nin Poeziya bölməsinin rəhbəri İbrahim İlyaslı), sonra AYB-nin Sumqayıt şəhər bölməsinin (İlk sədri mərhum şair Sabir Sarvan, indiki sədri şair Gülnarə Cəmaləddin) yaranması və bu gün də gördüyümüz ənənələrin daha gözəl şəkildə davam etdirilməsi sakinlər arasında istedlı insanların çox olduğunu və ümumiyyətlə, bu şəhərdə yaşayanların incəsənətə, ədəbiyyata, xüsusən də poeziyaya ne-cə bağlı olduqlarının əyani göstəricisidir.

Azərbaycan ədəbiyyatının klassik nümunələrini, xüsusən də M. Ə. Sabirin, M. Arazın, Ə. Kərimin və basqa sevilən şairlərimizin şeirlərini Lətif Hü-seynlinin dilindən çox eşitmişik. (Elə indi də) Öz şeirlərini çox nadir hallarda - dostların təkidi ilə oxuyurdu. Hafizəmizdə də elə o vaxtlardan özünə yer tutub onun şeirləri.

İlk baxısdan şairin daxili aləmi ilə tanış olmaq üçün o şeirlərindən və ya bəndlərdən bəzilərini sizlərə təqdim etmək istəyirik:

***(Səndən danışıram şeirindən)***

***... Səndən danışıram, eh, belə-belə,***
***Gör necə özümü aldadıram ha...***
***Bir nağıl basladım mən bilə-bilə,***
***Xatirə nağılı, qurtaran deyil.***
***Sanki xatirələr qurtaran yerdən***
***Sənsizlik baslayır, sənsizlik daha.***

Və ya;

***Nağıl dolu yuxu gördüm yatmamış,***
***Qərq oldum eşq dəryasına batmamış.***
***Əlim gedib yar əlinə çatmamış***
***Düsdüm həyat axınında selə mən.***

Yaxud;

***Məndən bir uğurlu tale diləmə,***
***Əlimdən nə gəlir küsüb eləmə,***
***Ikimiz birlikdə "Yanıq kərəmə"***
***Köklənmiş bir həzin sazıq, şeirim.***
***Ay mənim arxasız yazıq şerim!***

Başqa bir şeirindən;

***Kimin ətəyinə əl uzatdımsa,***
***Əlim göydə qaldı, ətək çəkildi.***
***Əyilən belləri sığalladılar;***
***Mənim düz belimə kötək çəkildi.***

İstedadlı insanlar üçün tənhalıq elə dövrün qayğılarını çəkmək, mövcud vəziyyətlərə təhlil verərək çıxış yollarını arasdırmaq, doğru yolu göstərmək, yəni cəmiyyətlə münasibətdə olmaq deməkdir. Əminliklə deyə bilərik ki, şair dostumuz da belə istedad sahiblərindəndir. Bir az da bu səbəbdəndir ki, indiyə qədər üzvlük üçün nə AYB-yə, nə də bir-birindən dəyərli şeirlərini kitab halında buraxdırmaq üçün kimsəyə müraciət edib.

91-cı illərdən əvvəl Azərbaycan nəsriyyatlarında Dövlət hesabına "Şairin ilk kitabı" seriyasından kitablar buraxılırdı və müəllifinə də yüksək qono-rar verilirdi (AYB-yə üzv olanlara ev, telefon çəkilişi və s. bu kimi dəyərləndirmələr olurdu). Heç o dövrlərdə də bizim bildiyimizə görə nə nəsriyyatla-ra, nə də redaksiyalara müraciət etməmisdir. Halbu ki, bütün sadaladıqlarımız onun halal haqqı idi. İndiyə qədər onun qəzet-jurnalda, almanaxlarda dərc olunan və ya efirlərdə səsləndirilən şeirləri də yalnız qayğıkeş dostlarının sayəsində olmusdur. Neçə ildir ki, bu kitabda cəm olan şeirləri davamlı ola-raq ondan almağa çalısmağımız axır ki, bizim istəyimizlə nəticələndi...

Xalq şairi B. Vahabzadənin "Dünya firlanır axı" şeirinə cavab olaraq qələmə aldığı (ixtisarla verdiyimiz) bu nümunə və ya istənilən şeiri onun yara-dıcılığı haqda söylədiyimiz fikirlərin təsdiqi kimi də dəyərləndirilə bilər;

***Zalım zalımlığında, fağır fağırlığında,***
***Kimsəsizin dərdləri özü ağırlığında.***
***Həyat həyat yerində, nağıl nağıllığında;***
***Mən aldatma, ustad, dünya fırlanmır axı.***

***Fırlansaydı bizim də "həyətə"gün dşərdi,***
***Imkanlarla istəklər üst-üstə çin düşərdi.***
***Haqq-ədalət deyirlər; o yalandı, o şərdi!***
***Mən aldatma, ustad, dünya fırlanmır axı.***

***Əsrin əvvəllərindən tökülən şəhid qanı***
***Hələ də qan içində boğur Azərbaycanı.***
***Görüm lənətə gəlsin bu yazını yazanı,***
***Mən aldatma, ustad, dünya fırlanmır axı.***

***Siyasət aləmində yüzünü fırladırlar,***
***Qatlayınb neçə mərdin dizini, fırladırlar.***
***Dünyanı fırladanın özünü fırladırlar,***
***Mən aldatma, ustad, dünya fırlanmır axı,***

Budur, dəyərli oxucular! İndi sizin qarşınızda duran bu nümunələr respublika ədəbi mühitində az tanınan, amma öz dəsti-xətti ilə fərqlənən şair Lətif Hüseynlinin hamımıza ərmağanıdır. Yalançı təriflərdən xoslanmayan dostumuzun həqiqətə, səmimiyyətə olan sayğısını bildiyimizdəndir ki, ürəyimiz-dən keçən fikirlərin bir qismini sizlərlə bölüsməkdən çəkinmirik.

Tarix boyu başı bəlalar çəkmiş yurdumuzun kədəri, bu məhrumiyyətlərin səbəbləri, ata-ana, ailə-övlad məhəbbəti, düzlük, sədaqət carçısı olmaq, Uca Tanrıya bağlılıq və s. kimi müqəddəs duyğular yaddaşımızda izlər buraxan bu şeirlərin qayəsini təskil edir. Cəmiyyətimizin, ümumiyyətlə, insanlı-ğın, estetik dəyərlərimizin inkişafına mane olan ünsürləri, eləcə də dünyamızın gələcəyi naminə süniilikləri, davranısları və əməlləri ilə bu dəyərlərə kölgə salan üzdəniraqları qamçılamaq işində də elə bil ona Cəlil Məmmədquluzadənin, Mirzə Ələkbər Sabirin "suyu sıçrayıb";

***İki çaqqal bir-birini öydülər,***
***Əlbir olub haqqı yaman əydilər.***
***Neçə filin xatirinə dəydilər;***
***Nədi, nədi ulamağı bacarmır.***

***Yanlarına cəm oldular tülkülər,***
***Yeyib-içib dəm oldular tülkülər.***
***Zürafəyə lağ eləyib güldülər:***
***-"Bu ki, quyruq bulamağı bacarmır".***

***Ar-abırı quru ada satdılar,***
***Yaxşıları yamanlara qatdılar.***
***Qoca şirə atmaca da atdılar;***
***Daha meydan sulamağı bacarmır.***

Yaxud;

***Qarqaraya bağlanmış it,***
***Qulaqları dağlanmış it,***
***Hür, yaxşı, hür.***
***De ki, bu ev-eşik,***
***Bu həyət-baca mənimkidi.***
***De ki, bu nağıl dolu***
***Həyat-tapmaca mənimkidi,***
***Hür, yaxşı, hür.***
***Çöldə, bayırda qalmaqdan***
***Bir həyətdə qalmaq yaxşıdı.***
***Küçə iti olmaqdan***
***Ev iti olmaq yaxşıdı,***
***Hür, yaxşı, hür.***
***Hər yetənə yol verməzlər,***
***Hürməyənə yal verməzlər.***

"Görünən dağa bələdçi nə lazım" - deyib atalarımız. Bizim qənaətimizə görə onun şeirləri "özü-özünü təbliğ edən" və sevdirən poeziya nümunələ-ridir;

***Mənli günlərində ağlama, qızım,***
***Axı, bu günlərə cavabdehəm mən.***
***O kiçik qəlbini titrədə bilən***
***Sevincə, kədərə cavabdehəm mən.***

***"Dərslərini oxu" demişəm sənə,***
***Niyə bulud kimi dolmusan yenə?***
***Bircə dərs oxumaq düşür öhdənə,***
***Fikir ver, nələrə cavabdehəm mən.***

***Kimsə " mənəm" deyib oxuyur meydan,***
***Silaha sarılıb hey deyir qan-qan.***
***Nigaran qalmışam qoca dünyadan;***
***Yerlərə, göylərə cavabdehəm mən.***

Oxuduqca adama elə gəlir ki, şairin yaradıcılığı dövrümüzə, cəmiyyətimizə bir güzgüdür. Nizami Gəncəvinin "İskəndərnamə"sindəki "Güzgü qa-yırtdırma"sı məsələsində də dahi şairin əsas ideyası elə cəmiyyətin hər bir üzvünün bir-biri üçün güzgü rolunda olması ideyası idi...

Dəfələrlə görüşüb söhbət etmişik, ədəbi müzakirələrimiz olub ... Görməyəndə də sureti gözümün önündə canlanıb; kədərli, sıxıntılı... Gözlərinin, çöhrəsinin altında, bəzən şaqraq gülüslərdə gizlənən o sirli aləmi az da olsa duymaq üçün elə şeirləri də bələdçi ola bilir...

***Baxıram dünyanın bu gərdişinə,***
***Dəli bir ağlamaq keçir könlümdən.***

***Alı Mustafayev***

***Bu dəli gərdisli dəli dünyada***
***Hər oğul başını saxlaya bilmir.***
***Hər baxıb könlündən ağlamaq keçən***
***Sındırıb özünü, ağlaya bilmir.***

***Ağlasan səsinə qulaq asan kim,***
***Hardadı hər səsə səs verən hakim?!***
***Dəmir qapıları açammır "sim-sim".***
***Köklü yaraları bağlaya bilmir.***

***Hamının sevdiyi bu xalq, bu Vətən***
***Nədən belə gündə.., görəsən, nədən?!***
***Şəxsiyyəti gedən , mənliyi gedən***
***Millət sabaha bel bağlaya bilmir.***

Bəlkə də deyəcəyimiz bu sözləri oxuyanda şair dostumuz az da olsa bizlərdən alına bilər, çünki, cəsarət, dürüstlük, mərdlik, saflıq, əyilməzlik, onun ən xarakterik və həm də görünən xüsusiyyətlərindəndir. Amma onun bir neçə şəkli var ki, o şəkillərə baxanda hər duyğulu qəlbdə sirli-sehirli bir asso-sasiya yaranar...

Onlarla şeirlərinin yaratdığı duyğular kimi;

***Mən bir həzin nəğmə idim,***
***Dinləyənim daş oldu, daş.***
***Sevinc idim, qəm deyildim,***
***Kirpiklərim yaş oldu, yaş.***

***Atdı-tutdu fələk məni,***
***Çaş-baş saldı kələk məni,***
***Tərpətməzdi külək məni;***
***Durduğum yer boş oldu, boş.***

***Susum susmaq qızıldısa***
***Susmağım da sızıltısa ...***

Və ya;

***"Yanıq Kərəmiyə" oynama, bala,***
***Bu dərdə-ələmə oynamaq olmaz.***
***Ona əl qaldırıb oynamaq üçün***
***Gərək basdan xarab olasan bir az.***

***Indidən dərdini dərk eləməsən***
***Dərdinin üstünə dərd gələ bilər.***
***Kərəmin dərdinə dərddi deməsən***
***Taleyin ondan da sərt gələ bilər.***

***"Yanıq Kərəmi"yə oynama, bala,***
***Dəlidi deyərlər, gicdi, deyərlər.***
***Soyunu, kökünü tanımayana***
***Soysuzdu,- deyərlər,- bicdi,- deyərlər.***

Adama elə gəlir ki, bu boyda dünyayla çarpışıb-vuruşan, sanki döyüslərdə zəifləmiş, amma inadından dönməyən, bir anlıq nəfəsini dərib, qərib-qə-rib düşüncələrə dalan, biraz da ümidsizləşən, amma ümidini kəsməyən və yenidən döyüşə baslamaq istəyən bir qəhrəmanın obrazını xatırladır şairin şeirləri, elə şəkilləri də. Dərs dediyi tələbələri də, iş yoldasları da, biz şair dostları da onun doğrudan da boy-buxunlu, sağlam və mübariz ruhlu bir şəx-siyyət olduğunun canlı şahidləriyik. Bu söylədiklərimiz isə ən çox onun daxili aləminə güzgü tutduğundan bu fikirləri də sizlərlə bölüsmək qərarına gəl-dik...

**Yaradıcılığı boyu Azərbaycan ədəbiyyatının klassik (nümunəvi) ənənələrini layiqli şəkildə yaşadan, lirik şeirləri ilə ürəyimizin "Sarı simini" titrə-dən, məqamı gələndə aforizmlərlə zənginləsdirən, satirik şeirləri ilə də içimizdən keçən etirazları özünəməxsus poetik bir dillə təqdim edən şair qardaşı-mıza Uca Tanrıdan möhkəm cansağlığı, firəhli ömür və gözəl yaradıcılıq uğurları diləyirik. Sözümüzün əvvəlində qeyd etdiyimiz kimi, onunla ilk ta-nışlıq vaxtlarımızdan bu yana hafizəmizdə qalan şeirlərindən bir qismini (ya bütöv, ya da ixtisarla) sizinlə bölüsdük. İndi isə, dəyərli oxucular, MƏN BİR HƏZİN NƏĞMƏ İDİM adlı bu poetik aləmlə başbaşa qalmağınızı istərdik. Dillər əzbəri olmağa layiq, amma zamanın dolaşıq yollarında "yubanan", 2024-cü ildə "ELM və TƏHSİL" nəşriyyatında çap etdirdiyimiz kitabdakı şeirlərlə tanışlıqdan sonra, elə sanırıq ki, əsil yaxınlıq, doğmalıq baslayacaq-dı... Uğurlar olsun!**




# BAYAT

№ 20 (880)






Səyavuş Sərxanlı

## Sənsiz soyuq dəyir gecələrimə

Daha hər çağırışı dinliyəmmirəm,
Ağzım yaman yerdə dirənib dağa.
Sənsiz ürəyimə söz deyəmmirəm,
Başlayır özünü yumruqlamağa.

Karvan səsidimi yenə yüksələn -
Ağ varaq önündə bir səhra kimi.
Sənsiz bir dəvəyəm, ərəbi ölən -
Qalmışam səhrada müqəvva kimi.

Durum necə girim, necə, yerimə?
Olan-qalanı da qəm ayaqlayır.
Sənsiz soyuq dəyir gecələrimə.
Bulud yatağında ay sayaqlayır...

## Necəsən?

Günlərim leysandı, ürəyim çadır,
Döyülür aylarım, ilim, necəsən?
Nə əlim yetişir, nə ünüm çatır,
Mən kimdən öyrənim, bilim, necəsən?

Həsrətin keçilməz ormanlar təki,
Döyüldüm, sovruldum xırmanlar təki,
Gah yıxıb, gah da ki quranlar təki
Özümə dağ çəkir külüm, necəsən?

Sənə inanmışam, yenə inanım,
Oda qalanmışam, yenə qalanım,
Necəsən, başına dönüm, dolanım,
Necəsən, küsənim, gülüm, necəsən?

Təkliyim dağ olar, çənə bürünər,
Döşündə yol azan eşqim sürünər,
Yataram, yanımda yerin görünər,
Özünə yetişməz əlim, necəsən?

Qalanar dumanım, çənim yolumda,
Ömrümə, sevgimə qənim yolumda;
Sən ey qurban olan mənim yolumda,
Gəlim qabağında ölüm, necəsən?!

## Bu gələn qatar

Dilsiz baxışlarda dil açır bahar,
Çiçəyə bələnər dünya deyirəm;
İlk görüş gətirir bu gələn qatar,
İlk görüş gətirir...
Mən gözləyirəm.

Yayı qarşılayır nərgizli dağlar,
İstək olan yerdə nə kədər, nə qəm;
Məhəbbət gətirir bu gələn qatar,
Məhəbbət gətirir...
Mən gözləyirəm.

Payız yağışına qoşulur bağlar,
Hər qonan yarpağda inildəyirəm;
Göz yaşı gətirir bu gələn qatar,
Göz yaşı gətirir...
Mən gözləyirəm.

Rəhimlə, hüzünlə səpələnir qar,
Kəfənə bələnir gözümdə aləm;
Ayrılıq gətirir bu gələn qatar,
Ayrılıq gətirir...
Mən gözləyirəm

## Dünya haqqında qoşma

Nə müddətdi üz sürtürəm üzünə,
Köksü geniş, yolları dar dünyadı.
Ana deyib baş qoymuşam dizinə,
Can desə də, bietibar dünyadı.

Uşaq olub şirni aldım əlindən,
Cavan olub yerə dəydim belindən,
Baş açmadım fitnəsindən, felindən,
Qəmində gül, gülündə qar dünyadı.

Göz qamaşır günəşinin gözünə,
Evindəyik, nə deyək ki, üzünə?
Eh, məni də oxşadıbdı özünə,
Yazda xəzan, qışda bahar dünyadı.

Kimə yoldu, kimə yükdü, kimə at,
Kimə dostdu, kimə yardı, kimə yad,
Nar bağına oxşayırsa kainat
Qoynundakı ən şirin nar dünyadı.

Onun bulaq dodaqları bizik, biz,
Onun yarpaq qulaqları bizik, biz,
Onun torpaq qonaqları bizik, biz,
Gözü gülər, köksü ağlar dünyadı.

Milyon-milyon yuva quran o quşdu,
Milyon-milyon sorğulardan sovuşdu.
Asta yeri, dörd yan eniş-yoxuşdu,
Ömür kimi çox nahamvar dünyadı.

Yiyə çıxan ona görən kim idi?!
Küləkləri talelərin simidi;
Gah müdriklər, gah keflilər kimidi,
Gahdan ayıq, gahdan xumar dünyadı.

Ey Səyavuş, oddan köynək geyirik.
Yarat deyə, ömrümüzü yeyirik;
İnanma ki, qoca dünya deyirik
Əlində gül, dilində yar dünyadı...

## Görüşlər, ayrılıqlar

Mənim görüşlərdən acığım gəlir,
Görüşlər sevgini boğur dünyada.
Mənim görüşlərdən acığım gəlir -
Görüşdən ayrılıq doğur dünyada!

Həsrətə düşürəm sevirəm ancaq,
Sevirəm - işığam,baharam demək!
Qoy hicran ömrümdə çatsın min ocaq,
Hicranım var isə Mən varam demək!

Vüsal çənə bənzər, dumana bənzər,
Uca duyğulan aldadıb boğar;
Həsrətdünya görmüş insana bənzər,
Arzuya çağırar, eşqə çağırar.

Dünyadan ləzzət al, kam al deyən kəs,
Görüş - ədalətdi,hicran - yüksəliş.
Ömrü görüşlərə həsr eləyən kəs
İtirib -Özünü tapa bilməmiş...

Ey ağlı yuxulu, qəlbi ayıqlar,
Mən gördüm dünyanı qansızlayanda:
Görüşə gələndə uçan ayaqlar
Görüşdən dönəndə halsızlayanda.

Görüşlər... kim deyir xoşqılıqlıdı,
Xəzan duyğuları aparar gedər;
Görüşlər ölümü yaxşılıqlıdı -
Yazıq bənövşəni qoparar gedər.

Dünya - görüşlərlə bir qəmxanadı,
Ayrılıqsız həyat - ömrün asanı...
Ey dad! Ayrılıqlar əsl anadır -
Dünyaya o doğur əsl insanı!

Günəş həsrətiylə fırlanır yer də,
Ulduz yanıb-sönür yolları üstə;
Doğulmamış neçə mütəfəkkir də
Ölüb görüşlərin qolları üstə.

Kəsib daşıdıqca ömürü günlər,
Ötəri hisslərə qaçmasın insan.
Yaranar dağ yüklü ən böyük əsər,
Ən böyük hicranın ağrılarından...

## Pəncərə önünə həmişə sən gəl

Saçın dan yeritək şehdə yuyunsun,
Sən oyan nəğməli quşlardan əvvəl.
Qəlbimin dərdləri bir az uyusun,
Pəncərə önünə həmişə sən gəl.

Bu təmiz, bu sadə təbiətinlə
Ucal gözlərimdə, göylərə yüksəl.
Məni yandırmağa məhəbbətinlə
Pəncərə önünə həmişə sən gəl.

Dünyaya qəlbimdən baxır pəncərəm,
Onun gözlərinə dəymə; kənar əl.
Qəlbimdən dünyaya baxmaq istəsəm -
Pəncərə önünə həmişə sən gəl.

## Eh, yenə həsrətin gözümə dəydi

Yarpaqlar töküldü yağış, qar kimi,
Meşəni həsrətə bələdi payız.
İl boyu yazdığı məktublardımı -
Eşqini torpağa ələdi payız?

Sənin həsrətinə büründü aləm,
O qumral saçların gözümə dəydi.
Düşən yarpaqların biri deyirəm,
Məktuba dönəydi, səndən gələydi.

Sözümü doğru bil, səmimiyyət bil,
Dünya bağışlamaz hər avaz mənə;
Məhəbbət xətrinə qismətim deyil,
Nəzakət xətrinə məktub yaz mənə.

Yaz, Xəzər eşqi var - sənsiz hönkürən,
Sən keçən yerlərin kefi duruldu;
Sən minən avtobus bildimi görən
Şəhərin ən şirin mahnısı oldu!

Yaz, ömrün yolunu qəfildən kəsən
Bir qəfil məhəbbət ağrılarından.
Yaz,bircə qızının üstünə əsən
Dalğasaç ananın intizarından.

Yetər, üzdü məni adilik, yetər!
Qeyri-adiliyə əvəz ol, əvəz.
Eh, səni aldatmaq - ölümdən betər,
Özümü aldatmaq - ağlıma gəlməz!

Sərin ahlarımı öpsün duman, çən,
Bir də bu intizar düşərmi ələ?
Səni tanımışam - sevdiyim gündən,
Özümü tanıya bilmirəm hələ.

Yaz... nədən dərdini udar, ovudar,
Eşqin ayağına döşənər insan?
Onu sevənləri atar, unudar,
Onu sevməyəni düşünər insan?

Özgədən umuruq sevincimizi,
Karıq qəlbimizin bayram səsinə.
Görə bilməyirik öz incimizi,
Möhtacıq özgələr sədəqəsinə!

Bir payız saraldı - gözündə bahar,
Yay günü qəfildən yağan qaram mən.
Şeirlər qalırsa səndan yadigar -
Bəxtimə gör necə minnətdaram mən.

Uzaq duyğuların dalğası kimi,
Hərdən pəncərəmə külək dəyirdi.
Saralan bir nərgiz topası kimi,
Günəş də mənimtək qəribsəyirdi.

Məktub yaz, əzizim, məktub yaz mənə,
Onu qəlbim kimi açım oxuyum.
Bir dəfə, beş dəfə, on dəfə yenə
Öpüm, gözlərimin üstünə qoyum...

## Məhəbbət yarımçıq nəğmə kimidir

Yolumuz ayrılır, ayrılır yaman,
Ana balasından ayrılan kimi.
Qartal qayasından, Şimşək buluddan,
İnsan obasından ayrılan kimi.

Çox soyuq olubsan, çox buz olubsan,
Məhəbbətmi söndü, şaxtamı düşdü?
İndi ki, bu qədər ucuz olubsan,
Unut, unutmağın vaxtı yetişdi.

Bilməmiş olmazsan: Məhəbbət, əzab
Ürək yanğısıdır, quru ad deyil.
Ömür ağrılara gətirmirsə tab
Əzizim, o həyat bir həyat deyil.

Bir küsən gəlintək etibar gedir,
Ağrılar, hicranlar göyərdir izi;
Məhəbbət -yarımçıq nəğmə kimidir,
Yazar davamını başqa birisi...

***

Təzəlik istəyir yenə ömür-gün,
Narahat, çağlağan düşüncələrdən.
Təzədən sevməyim, yanmağım üçün
Sən məni rədd elə, rədd elə hərdən.

Çəkilsin qapımdan şaxta, qar, soyuq,
Bir isti yağıştək yağa-yağa gəl.
Təzədən bir görüş çırağını yox,
Sən bütün ömrümü yandırmağa gəl!

Mən səni həsrətdən tapmışam axı,
Təzədən divan tut dərdi-sərimə.
Ürəyim -sevgilər qəbristanlığı,
Təzədən baş çəkim sevdiklərimə.

Aydan, ulduzlardan asım eşqimi,
Dönüm dağ selinə, daşım, tələsim,
Ürəyin yaratmaq havası kimi
Təzədən nurlanım, təzədən əsim.

Dünyada təzə bir sevgi var deyə,
Doğulum təzədən, ölüm təzədən;
Sevməsək, düşmənlər şadlanar deyə,
Təzədən sev məni, gülüm, təzədən...

***

Ha sənə desinlər kimin qadını
Ha sənə desinlər kimin anası
Mənəm elə çəkən sənin adını
Mənəm yada salıb belə yanası

Mənəm dan yerini çıraq eləyən
Ozan məhəbbətlər gülzarı üstə
Mənəm qürubları bayraq eləyən
Asan məhəbbətlər məzarı üstə

Hardan biləydim ki,ayrılıq varmış
Dərin duyğuluca,sərin gözlücə
Elə sevməklə də ölmək olarmış
Ayaq üstüdəcə,diri gözlücə

Hardan biləydim ki,ocaq həsrətin
Qaçaq duyğulara ox olacaqmış
İkinci anaymış ilk məhəbbətim
Ondan məhəbbətlər doğulacaqmış

Sellə çağlamışam,yellə əsmişəm
Ələnib getmişəm yağış,qar təki
İlk eşqim mən sənə çox tələsmişəm
Bayrama tələsən uşaqlar təki.

**Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə 44 günlük "Vətən Müharibəsi"ndə qazanılmış tarixi qələbə, Ermənistan tərəfindən törədilmiş sülh və insanlıq əleyhinə cinayətlər, habelə müharibə cinayətləri ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması**

№ 32 (2406) 30 avqust 2024-cü il

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# 44 GÜNÜN BÖYÜK ZƏFƏRİ!

**Dünyada çox müharibələr olub və bu müharibələr də şəhərlərin dağılması, insanların ölməsi, bir sözlə, uşaqların gözü yaşlı qalması ilə nəticələnib. Dünya tarixində 365 illik, 100 illik, 25 illik, 7 illik, 5 illik müharibələr olub və bu müharibələr onu göstərib ki, bəşəriyyət və insanlıq hansı faciələr yaşayıb. Düzdür, müharibələri eləyən güclər, qüvvələr və maraqlı dövlətlər olur. O maraqlı dövlətlər də bu müharibələrdən böyük qazanclar əldə edir, vəsait qazanır. Heç şübhəsiz, bu cür müharibələr bayaq dediyimiz kimi, bəşəriyyətə və insanlığa çox böyük zərbədir. Ən azından ona görə ki, müharibə özü ilə ölüm, aclıq, fəlakət və faciələr gətirir.**



Bizim ölkəmiz də uzun illər, daha doğrusu, düz 30 il çox çətin və mürəkkəb durumda oldu. Ona görə mürəkkəb durumda oldu ki, ərazimizin 20 faizi erməni işğalçıları tərəfindən zəbt edilmişdi, onlar və havadarları zəbt edilmiş rayonlarımızın, şəhərlərimizin, kəndlərimizin və qəsəbələrimizin altını üstünə çevirməklə yanaşı, varını-dövlətini, sərvətini də taladılar. Bununla da gözləri doymadı, Ağdamda, Füzulidə qəbir daşlarını söküb apararaq onun yerində taxıl əkdilər. Heç insanlığa sığarmı belə bir vəhşilik? Amma sığdı. Çünki bu müharibə cinayətlərini eləyənlər insan deyildilər, heç onlara vəhşi də demək o qədər ədalətli olmaz. Onlar goreşənlər idi. Goru eşib dəfn olunmuş insanların məzardakı qızıl dişlərini axtarırdılar. Tapdıqları cəsəddən qızıl dişləri götürür, sümükləri isə hara gəldi atırdılar. Bu vəhşiliyə Allah heç vaxt dözməzdi və dözmədi də.

Düz 30 ildən sonra səbr kasası daşan və hər cür dərdə dözən Azərbaycan ermənilərin cavabını verməyə hazır idi. Ermənilər isə tez-tez atəşkəsi pozur, yaşayış məntəqələrimizi fasiləsiz olaraq ağır artileriyalardan atəşə tuturdular. Bu cür vəhşiliyə tab gətirmək, dözmək qətiyyən mümkün deyildi. Ona görə də Ali Baş Komandan, Azərbaycan prezidenti İlham Əliyevin əmri ilə ordumuz 2020-ci il sentyabrın 27-də səhər saatlarında Cəbrayıl və Füzuli istiqamətlərində əks-hücuma keçdi. Bu hücum qüdrətli Azərbaycan ordusunun və Azərbaycan əsgərinin qeyri-adi bir döyüşü idi. Bu hücum 30 ildir susan tanklarımızın, ən müasir silahlarımızın necə bir qüvvəyə malik olması və qüdrəti idi. Bu hücum Azərbaycan əsgərinin adi əsgər olmadığını, aslan, şir kimi döyüşdüyünü təsdiq edirdi.



Bir neçə günün içində bayaq dediyimiz kimi, Cəbrayıl və Füzuli istiqamətində çox ağır döyüşlər getdi. Və bu döyüşlər zamanı Azərbaycan ordusu ilk dəfə olaraq öz gücünü və qüdrətini erməni işğalçılarına göstərdi. Çünki ermənilərin səngərlərinə və ağır texnikalarına havadan, yerdən və müxtəlif istiqamətlərdən güclü atəş açılırdı. Bu atəş sanki göydən odun yağmasını xatırladırdı. Heç şübhəsiz, erməni ordusu hələ indiyə kimi belə bir döyüş görməmişdi. Onlar ordumuzun güclü zərbələri nəticəsində ağır texnikalarını, artilleriyalarını və digər döyüş maşınlarını itirir, xilas olmaq üçün həmin tanklardan özlərini bayıra atır və canlarını götürüb qaçmaq istəyirdilər. Amma Azərbaycan əsgəri yağı düşmənə aman vermirdi. Özündənrazı və təkəbbürlü erməni ordusuna və onun əsgərinə əsl dərs verirdi. Hətta ermənilərin əsgərləri Azərbaycan ordusunun əks hücumunun necə güclü olduğunu hiss edərək sığınacaqlarda gizlənir və səngərdən çıxmaq istəmirdi. Elə bizim xüsusi təyinatlılar və döyüşən oğullarımız isə onları səngərdə yaxalayır, məhv edir və ələ keçirirdi. Bir erməni generalı deyir ki, azərbaycanlıların pilotsuz təyyarələrini görəndə bilirdik ki, hamımız öləcəyik. Çıxış yolu qaçıb gizlənmək və müdafiə olunmaq idi. Amma biz səngərdə gizlənsək də həmin pilotsuz təyyarələr bizi axtarıb tapır və məhv edirdi. Ancaq azərbaycanlıların pilotsuz təyyarələri Təcili Tibbi Yardım maşınlarına atəş açmırdı. Mənim özüm də gördüm ki, artıq ya pilotsuz təyyarə vasitəsilə öldürüləcəm, ya da əsir götürüləcəm, ona görə də vaxt itirmədən Təcili Tibbi Yardım maşınına minib döyüş mövqeyini bir neçə polkovniklə tərk etdik və Xankəndinə qaçdıq.

Bax, budur erməni generallarının və polkovniklərinin qeyrəti. Çünki onlar həmişə öyrəşmişdilər ki, kimlərsə ermənilərin əvəzinə döyüşəcək. Çünki onlar Qarabağda döyüşlər zamanı rus əsgərlərinə çox böyük ümid bəsləyirdilər. Təbii ki, rus əsgəri də heç vaxt onların yerinə döyüşən deyildi. Ermənilərin ağlı 90-cı illərin əvvəllərinə getmişdi. Çünki 90-cı illərin əvvəllərində onlar rus ordusunun havadarlığı ilə işğal altında olan torpaqlarımızı ələ keçirmişdilər.

Artıq sentyabrın dörd günü ərzində Cəbrayılın və Füzulinin neçə-neçə kəndi işğaldan azad olundu. Bir neçə gündən sonra isə Cəbrayıl şəhəri erməni işğalçıları tərəfindən təmizləndi. Sonra Hadrut Azərbaycan ordusunun gücü ilə ermənilərin əlindən geri alındı və Hadrut şəhərində Azərbaycan bayrağı dalğalandı. Strateji əhəmiyyəti olan Füzuli şəhəri də azad olundu.

**Bir-bir Azərbaycanın işğal altında olan rayonları, şəhərləri, qəsəbələri azad edilirdi. Bir müddətdən sonra Qubadlı, Zəngilan və ən nəhayət, Şuşa şəhəri ermənilərdən tamamilə təmizləndi və Azərbaycan 44 günlük İkinci Qarabağ savaşında çox möhtəşəm bir qələbə qazandı. O qələbə ki ermənilər məcbur olub təslim aktına imza atdılar. Bu təslim aktına görə bir müddətdən sonra Ağdam, Laçın və Kəlbəcər boşaldılmalı idi. Elə nəzərdə tutulan vaxtda da həmin rayonlar boşaldıldı və Azərbaycan ordusu bayrağımızı həmin yaşayış məntəqələrinə sancdı. 44 günlük müharibədə ermənilərin bir mülki əhalisinin birinin burnu belə qanamadı. Çünki Azərbaycan ordusu dünya hərb tarixində anoloqu və oxşarı olmayan bir tarixi əməliyyat apardı. Bu əməliyyat göstərdi ki, Azərbaycan və onun ordusu dünyanın ən qüdrətli ölkəsi, ordusudur. Ona görə də bir çox ölkələr tərəfindən Azərbaycanın 44 günlük apardığı müharibə təcrübəsi öyrənilir və ondan bəhrələnilir.**

**EMİL FAİQOĞLU**

AZƏRBAYCAN RESPUBLİKASININ MEDİANIN İNKİŞAFI AGENTLİYİNİN MALİYYƏ YARDIMI İLƏ

# Türkiyənin Şimali Egeydəki incisi Assos

**Zeytun ağaclarının kölgəsi altında olan qədim Assos İda dağının ətəyində bir Egey xəzinəsidir. Çanaqqalanın müasir Ayvacık rayonunda əsrlər boyu bir çox sivilizasiyaya ev sahibliyi edən Assos, qorunan təbiəti, saf havası və qədim sərvətləri ilə Egey dənizinin ən gözəl yerlərindən biridir. Gəlin Türkiyənin bu cəvahiratını yaxından tanıyaq.**

### *Egeyin sərin marşrutu*

Assos sonsuz mavi sulardan zövq ala biləcəyiniz çoxsaylı körfəz və çimərliklərə malikdir. Kadırğa və Sivrice kimi gözəl körfəzlər, Sokakağzı kimi təmiz çimərliklər və Qədim Liman da daxil olmaqla bir çox digər yerlər bu qorunan mənzərənin orijinal gözəllikləri arasındadır. Kadırğa körfəzi isə uzun, geniş sahil xətti və Mavi Bayraq statusu ilə seçilir. Assos boyu sahillər əsasən iri daşlardan ibarət olsa da, insanlar ümumiyyətlə taxta dayaqlar vasitəsilə dənizə tullanırlar. Qeyd etmək lazımdır ki, Assosdakı dəniz coğrafi mövqeyinə görə bir qədər gec isinir və suları Aralıq dənizinə nisbətən daha sərindir. Həmçinin, Assosun düşərgə sahələrində, kiçik hostellər, lüks və rahat otellər və butik otellər arasından seçim edə bilərsiniz.

### *Möhtəşəm Assos antik şəhəri*

Assosun sahil xəttini bu qədər cazibədar edən, Egey dənizinin sönmüş vulkanik təpənin üzərində qurulmuş Assos qədim şəhəridir. Şəhərin tarixi eramızdan əvvəl 6-cı əsrə gedib çıxır. Dövrümüzə qədər gəlib çatan əzəmətli divarları və arxeoloji qazıntılar zamanı aşkar edilən tikililəri ilə bu gün diqqəti cəlb edən qədim şəhər 2017-ci ilin may ayında YUNESKO-nun Ümumdünya Mədəni İrs Siyahısına daxil edilib. Onun məşhur sakinləri arasında fəlsəfə məktəbinin əsasını qoyan filosof Aristotel də var. Afina məbədi antik şəhərin mütləq görülməli yerlərindən biri kimi seçilir. Assos Akropolunda yerləşən Afina məbədi şəhərin qoruyucusu kimi tanınan ilahə Afinaya həsr olunub. Sütunları və heyrətamiz dəniz mənzərəsi ilə göz oxşayan struktur həm də Anadolu coğrafiyasında Arxaik-Dor məbədinin yeganə nümunəsi kimi memarlıq baxımından



əhəmiyyətlidir. Şəhərin ən hündür nöqtəsində, xüsusən gün batımında bu məbədi ziyarət etmək həqiqətən unudulmaz bir bir hissdir. Gün batımını seyr etdikdən sonra Aqora, Gimnaziya və açıq hava teatrı kimi şəhərin digər yerlərini də görə bilərsiniz. Şəhərin ən gözəl məkanlarını Aqora, Gimnaziya və açıq hava teatrını ziyarət etmək mümkündür.

### *Bəhramqala kəndi*

Bəhramqala kəndi qədim şəhər divarları içərisində kiçik yaşayış məntəqəsidir.

Kəndin dar küçələri ilə gedərkən daş memarlıq sənətinin gözəl nümunələri olan tarixi evlərə rast gəlirsən. Bundan əlavə, kənd qadınları bu küçələrdə və ya kiçik dükanlarda qurduqları stendlərdə suvenirlər və evdə hazırlanmış ərzaq məhsulları satırlar. Burada müxtəlif göyərti və zeytun yağından tutmuş evdə hazırlanmış "tarhana"ya, tərəvəzlərdən ibarət ləzzətli şorbaya, ətirli qatıq, göyərti, ətirli ədviyyatlara qədər bir çox yerli və təbii məhsullar tapmaq mümkündür.

Kənddə Osmanlı dövründən qalan məscid və körpü də var. Kvadrat formalı və tək günbəzli XIV əsrdə tikilmiş Hüdavəndigar məscidi mehrabının üzərindəki mürəkkəb həndəsi motivləri ilə diqqət çəkir. Bəhramqala yaxınlığındakı Tuzla çayı üzərində yerləşən Hüdavendigar körpüsü səliqəli işlənmiş tağları ilə memarlıq baxımından heyranedicidir. Avtomobillərin hərəkətinə qapalı olan bu zərif 600 illik körpüdən keçə bilərsiniz. Assos həm də onu əhatə edən gözəl yerli kəndlərə görə araşdırmağa dəyər bir yerdir. Assosdan cəmi yarım saatlıq məsafədə yerləşən Yeşilyurt və Adatəpənin tarixi, füsunkar və səvimli kəndləri bölgə üçün mütləq görməli olduğunuz yerlər siyahısında olmalıdır. Adatəpə kəndini ziyarət edərkən, Adatəpə Zeytunyağı Muzeyini kəşf edə bilərsiniz. Türkiyənin ilk zeytunyağı muzeyi olan bu kompleks zeytun yağı istehsalının bütün mərhələlərini müşahidə etməyə imkan verir.

### *Unudulmaz ləzzətlər*

**Tarixi və təbii gözəllikləri ilə məşhur olan Assos həm də regional ləzzətlər təklif edən heyrətamiz qastronomik məkandır. Burada balqabaq dolması çiçəklərindən tutmuş dəniz paxlasına qədər Egey mətbəxinin bütün ləzzətlərini tapa bilərsiniz. Limandakı restoran və meyxanalarda İzgara ahtapot salatı, şişli qılınc, izgara alabalıq, əqrəb şorbası, izgara kalamar və tərəvəz dolması kimi Assosun xüsusi yeməklərindən dada bilərsiniz.**

## *Rusiyalı jurnalist ermənilərlə serial çəkir: Erməniəsilli Tina Kandelaki*



**Rusiyalı təbliğatçı-jurnalist Tina Kandelakiermənilərlə birgə yeni serialın çəkilişlərinə başlayıb.**

Adalet.az xəbər verir ki, prodüserləri Artur Canibekyan, Tina Kandelaki və Boris Xançalyanın olduğu "Hər şey bu barədə" serialının çəkilişlərinə başlanılıb.

Erməni mediası bildirir ki, layihə ilk dəfə 2023-cü ildə "Pilot" festivalında nümayiş etdirilib. Serial "Comedy Club Production"ın sifarişi ilə TNT və "Norm Production" tərəfindən istehsal olunur.

Tina Kandelakinin atası gürcü, anası ermənidir. Onun fəaliyyətində ermənipərəslik aşkar hiss olunur. Tina Kandelaki bir dəfə Rusiya Federasiyası Prezident Administrasiyası rəhbərinin müavini - Rusiya Prezidentinin mətbuat katibi Dmitri Peskovla RTVI-n efirində yayımlanan "Xüsusi qonaq" proqramına müsahibə zamanı ona provokativ suallar vermiş və Azərbaycan və Türkiyə əleyhinə fikirlər bildirmişdi.Ümumiyyətlə, Kandelaki bir çox cızma -qaralarında da Türkiyəni və Azərbaycanı hədəf seçib, bəzən isə təhqir edib.

**Əntiqə Rəşid**

## *Azərbaycan cüdoçusu ikiqat dünya çempionu oldu*



**Perunun paytaxtı Limada keçirilən yeniyetmələr arasında dünya çempionatının ilk günündə Azərbaycan cüdoçuları 1 qızıl və 1 bürünc medal qazanıb.**

QOL.az xəbər verir ki, -50 kq. çəkidə Məhəmmədəli Hüsiyev əzmkarlıqla mübarizə apararaq bürünc medal əldə edib, 55 kq. çəkidə mübarizə aparan Nihad Məmişov bütün rəqiblərini məğlub edərək ikinci dəfə dünya çempionu titulunu qazanıb. O, gün ərzində göstərdiyi üstün performansla, xüsusilə finalda Monqolustan təmsilçisi Batbilegi ipponla məğlub edərək bu titula layiq olduğunu bir daha sübut edib. Məmişovun bu uğuru Azərbaycanı medal cədvəlində ikinci yerə yüksəldib.

## *Musleranı ağır cəza gözləyir*

**"Qalatasaray"ın qapıçısı Fernando Musleraya ağır cəza tətbiq oluna bilər.** QOL.az xəbər verir ki, uruqvaylı qolkiper Çempionlar Liqasının pley-off mərhələsində "Yanq Boyz"a qarşı cavab oyununda (0:1) rəqib futbolçuya təpik vurduğu üçün qırmızı vərəqə ilə cəzalandırılmışdı.

"Fanatik" nəşri yazıb ki, UEFA bu hərəkətinə görə Musleraya ağır cəza verməyi planlaşdırır. Qurumun oyunçunu 3-4 oyunluq cəzalandıracağı gözlənilir.

Bu, baş verəcəyi təqdirdə qapıçı Avroliqanın Liqa mərhələsində keçiriləcək 8 matçın yarısını buraxacaq.

## *Sahib İbrahimov: "Boş qalan yeri o doldurur"*



**Sahib İbrahimov etirafı ilə diqqət çəkib.**

Adalet.az bildirir ki, o, həyat yoldaşının əsas varlıq olduğunu söyləyib:

"Yaxşı ömür-gün yoldaşı insanın həyatında çox vacib amildir. İstər qadın, istərsə də kişi bir-birinə ana-baci, ata-qardaş olur. Boş qalan yeri o doldurur. Daha doğrusu doldura bilir".

## *Müğənni: "Ancaq ona pərəstiş edirdim"*



**Müğənni Ofelya Şabanova pərəstiş etdiyi müğənninin adını açıqlayıb.**

Adalet.az bildirir ki, o, hələ illər öncə Zahidə Günəşə pərəstişarlıq etdiyini söyləyib:

"Zahidə xanım oxuyanda mən oxmurdum. Dedilər təzə müğənni efirə çıxıb, Zahidə Günəş. Getdim kasetin aldım, ancaq onun ifalarını dinləyirdim. Ancaq ona pərəstiş edirdim, başqa heç kəsə. Vaxt gəldi, müğənni oldum, onun mahnılarını ifa etdim. Çox bəyənirəm o xanımı".

## *Rəhman Məmmədli: "Ən çox onların laqeydliyinə yanıram"*



**Gitara ifaçısı Rəhman Məmmədli övlad-valideyn, gəlin-qaynana münasibətlərindən danışıb.**

Adalet.az bildirir ki, valideynlərinə laqeyd yanaşan övladları qınayıb:

"Mən ən çox oğul övladlarının laqeydliyinə yanıram. Qız ailə qurur, başqa ocağa gedir, yükü ağırlaşır. Onu çox da qınmaq olmur. Təbii ki qız da valideyni daim axtarmalıdır. Amma oğul daha çox can yandırmalıdır. Oğul övladları dünyaya gələndə valideyn sevinib, aslan oğlum deyib, əzizləyir. Oğul da o dəyərə layiq olmalıdır. Mən anamın son gününə qədər əyilib dırnaqların kəsmişəm. Etməliyəm, övlad kimi borcumdu. Bütün balalar anaya-ataya can yandırmalıdır. Xüsusilə onlar yaşlananda yanında olub, daim dayaq olmaq gərəkdir".

## *Akşin Fatehi nə qəzəbləndirdi?*



**Meyxanaçı Akşin Fateh şou-proqramların birində əsəblərinə hakim ola bilməyib.**

Adalet.az bildirir ki, proqramın aparıcısı ondan xahiş edib ki, duet ortağı Nəfəsə gül buketi versin. Meyxanaçı isə aparıcının sözünü yerə salmadan bir buket gülü Nəfəsin qarşısındakı masaya qoyub. Aparıcısı isə niyə gülü Nəfəsə vermədiyini soruşanda o, sərt cavab verib: "Fərqi nədir ki? Biz burda tamaşa oynayırıq yoxsa nə edirik?! Mən Nəfəs xanıma bundan da gözəl gül hədiyyə edə bilərəm. Biz sənət dostuyuq. Burda nə var ki"?!

Müğənni Nəfəs isə duet ortağının fikrini təsdiqləyib.

## *Qumral: "Bilmirəm mənim anamdır, yoxsa onun"?*

**Qumral Musayeva ona edilən qadağalardan danışıb.**

Adalet.az bildirir ki, o, yoldaşının çox qadağa qoyduğunu deyib: "Geyimlərimə və rəqslərimə görə çox əsəbləşir. Bəzən qadağa qoyur. Amma mən də bu sənəti sevirəm axı. Anam da mənim yox, onun sözünü deyir. Bilmirəm mənim anamdır, yoxsa onun (gülür). Belə olanda mən də əsəbdən dəli oluram. Yoldaşıma bir söz deyən kimi mənimlə qırğın edir. Anamı heç başa düşə bilmirəm".

**Əntiqə**


Təsisçi və baş məsləhətçi: Aqil ABBAS
Baş redaktor: İradə TUNCAY

Qəzet "Ədalət" qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və "Son dakika" MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.
kod: 200112 h\h
Müxbir hesab: 0137010001994
S.W.I.F.T. Bik: AIIBAZ 2xhesab N: 38070019411100451111 VÖEN: 1300456161
İndeks:0107 Qeydiyyat nömrəsi 100

Ünvan: Bakı AZ.1073 Mətbuat prospekti, 529-cu məhəllə, "AZƏRBAYCAN" nəşriyyatı, 6-cı mərtəbə.
Telefon: 538-05-50, 538-51-31. 534-55-98 Faks: 539-80-26
adaletqezeti@rambler.ru
adaletqezeti@mail.ru, adaletqezeti@box.az

Tiraj: 1500
Sifariş: 194
Çapa imzalanmışdır: 29.08.2024